Xalqın qəzeti!

# Xalq qəzeti

№ 265 (30959) 17 dekabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Prezidentinin növbəti humanist addımı

## *Qəbul ediləcək amnistiya aktı "Konstitusiya və Suverenlik İli"ndə minlərlə evə sevinc gətirəcək*



**Əlimizdə Heydər Əliyev siyasi kursunun humanist addımlarının miqyasını göstərən geniş bir məlumat var. Orada göstərilir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra keçən 34 il ərzində ölkədə 12 dəfə amnistiya aktı qəbul edilib və həmin aktlar ümumilikdə 70 min şəxsə şamil olunub. İlk amnistiya elə Azərbaycanın müstəqilliyinin bərpası münasibətilə qəbul edilmişdi. Bu amnistiya aktlarının əksəriyyəti İlham Əliyevin Prezident olduğu dövrə düşür. Eyni zamanda, indiyə qədər dövlət başçısının imzaladığı əfv sərəncamlarının sayı 70-dən çoxdur. Bunların da əksəriyyəti məhz indiki dövlət başçısının hakimiyyəti dövrünə aiddir.**

Qürurla deyə bilərik ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bağışlamaq, əfv etmək, hansısa səhvi və ya günahı üzündən əzizlərindən ayrı düşmüş insanların ailəsinə, ocağına qovuşmasını təmin etmək kimi humanist addımlar müasir Azərbaycan həqiqətlərinin mühüm tərkib hissələrindən biridir. Həm Ümummilli liderin, həm Prezident İlham Əliyevin, həm də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu istiqamətli təşəbbüslərinin sayı hər il artır. Həmin təşəbbüslərin – əfv sərəncamı və amnistiya aktlarının icrası zamanı on minlərlə soydaşımız, eləcə də ölkəmizdə həbs edilmiş əcnəbi şəxslər öz azadlıqlarına qovuşublar.

*(ardı 3-cü səhifədə)*

## Xəzəryanı region və müasir geosiyasət: Azərbaycan konteksti



Səhifə ⇨ 5

## Çoxqütblü dünyada mötəbər dialoqun yenidən qurulması



**Ər-Riyadda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının (UNAOC) 11-ci Qlobal Forumu çoxqütblü dünya nizamında normativ güc uğrunda gedən sakit, lakin dərin geosiyasi mübarizənin bir hissəsidir. Forumun məkanı, mövzu seçimi və iştirakçı tərkibi onu göstərir ki, "dialoq" siyasi alət, strateji legitimlik mexanizmi və yumşaq güc platformasıdır.**

*(ardı 4-cü səhifədə)*

## Əli Əkbər Vilayəti kimlərin düşərgəsindədir?

*İranın Ali Dini Liderinin müşaviri köhnə oyunundan əl çəkmir*



**Bəzi adamlar var ki, onların əslində, nəyə nail olduqlarını anlamaq çox çətindir. Hesab edirik ki, İranın Ali Dini Liderinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti də belələrindəndir. Onun söylədikləri gözlənilməzdir. Yəni cənab Vilayəti hər zaman pis mənada təəccübləndirib. Təəssüf ki, o, yenə öz ampluasındadır.**

Əvvəla, onu deyək ki, Ə.Ə.Vilayəti İranın kifayət qədər təcrübəli diplomatlarından sayılır. Zamanında ölkəsinin xarici işlər naziri olub. Özü də 15 ildən çox bu postu tutub. Deməli, regiona yaxşı bələddir. Yaşadığımız müştərək coğrafiyanın hansı təbəddülatlara şahid olduğunu, nə kimi çətinliklərdən keçdiyini anlamamış deyil.

*(ardı 4-cü səhifədə)*

## İkili standartların kölgə saldığı cinayətlər




Səhifə ⇨ 4

## Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

**Əlahəzrət!**

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu il Azərbaycanın Bəhreyndə Səfirliyinin təsis edilməsi ikitərəfli münasibətlərimizin yeni müstəviyə keçməsinin bariz nümunəsi, böyük potensiala malik əlaqələrimizin bütün sahələrdə inkişaf etdirilməsinə verdiyimiz önəmin təzahürüdür.

İnanıram ki, xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq qarşılıqlı etimad və hörmət üzərində qurulmuş Azərbaycan-Bəhreyn ənənəvi dostluq əlaqələrinin və əməkdaşlığının dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Bəhreyn xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 dekabr 2025-ci il**

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayının iştirakçılarına

**Hörmətli Qurultay iştirakçıları!**

Sizi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayında salamlayıram.

Azərbaycan həmkarlar ittifaqları çoxşaxəli fəaliyyəti, əmək münasibətlərinin inkişafında rolu və vətəndaş cəmiyyətinin möhkəmlənməsinə verdiyi töhfələrlə respublikanın ictimai və sosial həyatında önəmli yer tutur.

Ölkəmizdə işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, layiqli iş şəraitinin yaradılması, sosial tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli addımlar atılır. Müasir dövrün çağırışlarına çevik uyğunlaşmaq, həmkarlar ittifaqları üzvləri ilə sıx əlaqələr qurmaq, xidmətləri rəqəmsallaşdırmaq, müvafiq sahələrdə süni intellektin tətbiqi imkanlarını genişləndirmək, xidmət keyfiyyətini və məmnunluq səviyyəsini yüksəltmək xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq əmək standartlarına uyğun fəaliyyət, dünya həmkarlar hərəkatı ilə əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsi həmkarlar ittifaqlarının nüfuzunun daha da artırılmasına xidmət edir. Güclü və sağlam vətəndaş cəmiyyətinin inkişafında, həmrəyliyin möhkəmlənməsində həmkarlar ittifaqları mühüm işlər görür.

Respublikamızın dinamik sosial-iqtisadi inkişafı, "yaşıl iqtisadiyyat"a ədalətli keçid, süni intellektin əmək bazarına təsiri həmkarlar ittifaqlarının qarşısında məsuliyyətli və strateji vəzifələr qoyur, onları daha fəal olmağa sövq edir. İşçilərlə işəgötürənlər arasında sosial dialoqun əsas tərəfdaşı və əmək dəyərlərinin qoruyucusu kimi çıxış edən həmkarlar ittifaqları peşə birliklərinin möhkəmləndirilməsi, işçilərin maariflədirilməsi, əmək hüquqları sahəsində onların bilik və bacarıqlarının artırılması prosesində yaxından iştirak etməlidir. Bütün bunlar əmək münasibətlərinin düzgün tənzimlənməsinə, sosial ədalətin və qarşılıqlı məsuliyyətin təmin olunmasına xidmət edir.

Azərbaycan dövləti həmkarlar ittifaqlarının müstəqil və sərbəst fəaliyyət hüququnu qanunvericilik çərçivəsində tam təmin edir və bu sahədə onların azad fəaliyyəti üçün geniş imkanlar yaradıbdır.

Sahə həmkarlar ittifaqlarının sosial tərəfdaşlarla səmərəli əməkdaşlığın dərinləşdirilməsinə və qarşılıqlı etimad mühitinin formalaşdırılmasına, kollektiv məsuliyyətin artırılmasına xüsusi diqqət yetirilməlidir.

Hörmətli Qurultay iştirakçıları!

Əminəm ki, Azərbaycan həmkarlar ittifaqları bundan sonra da üzvlərinin hüquq və maraqlarını əzmlə müdafiə edəcək, əmək münasibətlərinin müasir və sivil əsaslarla tənzimlənməsinə, bütünlükdə ölkəmizin sosial-iqtisadi inkişafına töhfələr verəcəkdir.

Hesab edirəm ki, bu Qurultay həmkarlar hərəkatının yeni çağırışlara uyğun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və təkmil fəaliyyət strategiyasının formalaşması baxımından böyük önəm daşıyacaqdır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayının işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 dekabr 2025-ci il**

## Mərkəzi Asiya üçün Azərbaycanın sülh təcrübəsi



Səhifə ⇨ 5

# Bakı 2026-cı ildə Dünyanın idman paytaxtı seçildi

Səhifə ⇨ 12

# Fəxri xiyabanda Ulu öndərin xatirəsinə ehtiram



**Ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyəti dekabrın 16-da Fəxri xiyabanı ziyarət edib.**

Nümayəndə heyəti əvvəlcə xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə tər çiçəklər düzüb.

Görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər güllər qoyulub.

***



**Həmin gün İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyəti Bakıda "Qardaşlıq Məzarlığı" Əbədi Xatirə Kompleksini ziyarət edib.**

Nümayəndə heyətinin üzvləri burada İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə həlak olmuş qəhrəmanların xatirəsini dərin ehtiramla anıb, kompleksin önünə gül dəstələri qoyub.

Sonra qonaqlar Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin abidəsini ziyarət ediblər. Abidənin önünə gül dəstələri düzülüb, görkəmli kəşfiyyatçının xatirəsi ehtiramla anılıb.

*XQ*

# Baş nazir Həştərxan vilayətinin qubernatoru ilə görüşüb



**Dekabrın 16-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinlə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüş zamanı Azərbaycan Respublikasının Rusiya Federasiyasının müxtəlif subyektləri, o cümlədən Həştərxan vilayəti ilə səmərəli əməkdaşlığı qeyd olunub.

İqtisadi-ticari sahədə və investisiya sektorunda qarşılıqlı fəaliyyətin artırılması, nəqliyyat-logistika, mədəni-humanitar və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu vurğulanıb. Həştərxan vilayəti tərəfindən Qubadlı rayonunda uşaq bağçasının inşası qeyd edilib.

Söhbət zamanı "Şimal–Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişafına, həmçinin Xəzər dənizinin dayazlaşması probleminə xüsusi diqqət yetirilib.

*XQ*

# Milli Məclisin növbəti plenar iclası

**Dünən spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. İclasda gündəliyə daxil edilmiş 10 məsələ və cari mövzular ətrafında geniş və məzmunlu müzakirələr aparıldı.**




Deputatlar gündəliyə keçməzdən əvvəl cari məsələlər barədə çıxışlar etdilər. Parlamentarilər Azərbaycan Prezidenti İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" çərçivəsində irəli sürdüyü amnistiya təşəbbüsünü yüksək qiymətləndirdilər, bu addımın həm hüquqi, həm də humanizm baxımdan mühüm əhəmiyyət daşıdığını vurğuladılar. Deputat Aqil Abbas çıxışında amnistiya təşəbbüsünün cəmiyyətdə geniş rezonans doğurduğunu qeyd edərək bildirdi ki, bu qərar minlərlə ailə üçün sevinc mənbəyinə çevriləcək: "Möhtərəm Prezidentimiz amnistiya təşəbbüsünə qadınlar, balalar, analar-bacılar – nə qədər insan sevinəcək. Bu, çox mühüm aktdır".

Milli Məclisin deputatı Razi Nurullayev çıxışında toy mədəniyyəti ilə bağlı problemlərə toxunaraq qeyd etdi ki, toy mərasimlərində israfçılıq həddini aşıb. Onun sözlərinə görə, şadlıq evlərində artıq qida tullantıları, şişirdilmiş menyular və əlavə xərclər nə milli ənənələrlə, nə dini dəyərlərlə, nə də iqtisadi məntiqlə uzlaşır və toylar sevinc məclisindən daha çox sosial yarışa çevrilir. R.Nurullayev, eyni zamanda, şadlıq evlərində musiqinin həddindən artıq yüksək tonda olmasının sağlamlıq üçün ciddi riski yaratdığını vurğuladı: "Akustikanın olmaması səbəbindən səs o qədər yüksəlir ki, eşitmə problemlərinə yol açır".

Milli Məclisin deputatı Qüdrət Həsənquliyev işəgötürənlərlə Həmkarlar İttifaqları təşkilatları arasındakı münasibətlərə toxunaraq bu qurumların işçilərin hüquqlarının müdafiəsində yetərincə fəal olmadığını bildirib. Onun sözlərinə görə, hazırda həmkarlar ittifaqları cəmiyyətdə daha çox maddi yardım və müalicə göndərişləri verən strukturlar kimi tanınır, halbuki əsas missiya əmək hüquqlarının qorunmasıdır. Deputat qeyd etdi ki, bir çox müəssisələrdə həmkarlar ittifaqlarının sədrləri rəhbərlik tərəfindən müəyyən olunur. Bu səbəbdən işçilərin gecə saatlarınadək işlədilməsi, əməkhaqqının ödənilməməsi, asanlıqla işdən çıxarılma halları geniş yayılıb, lakin əksər hallarda nə həmkarlar ittifaqlarına, nə də məhkəmələrə müraciət edilir. Q.Həsənquliyev vurğuladı ki, hətta bərpa ilə bağlı məhkəmə qərarlarının icra olunmadığı hallar mövcuddur və bu vəziyyət həmkarlar ittifaqlarına ciddi siyasi dəstəyin zəruriliyini ortaya qoyur.

Daha sonra gündəlikdə yer alan məsələlərin müzakirəsinə başlanıldı. İclasda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi müzakirə olundu. Məsələ ilə bağlı Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, eləcə də digər deputatlar çıxış edərək sənədin strateji əhəmiyyətini və iki qardaş ölkə arasında hərbi əməkdaşlığın daha da dərinləşdirilməsində rolunu vurğuladılar. Müzakirələrin yekununda qanun layihəsi səsverməyə çıxarıldı və ilk oxunuşda qəbul edildi.

İkinci və üçüncü məsələlər üzrə – "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə və "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi ilə bağlı qanun layihələri müzakirə olundu. Məsələlərlə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Zaur Şükürov çıxış etdi. O, Azərbaycanın kosmik tədqiqatlar sahəsində əldə etdiyi nailiyyətlərə toxunaraq qeyd etdi ki, Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyevin liderliyi ilə uğurla davam etdirilir. Onun sözlərinə görə, Azərbaycan artıq on ildən çoxdur beynəlxalq kosmik ailənin üzvüdür, iki telekommunikasiya peykinə malikdir və bu peyklər azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunaraq 45-dən çox ölkəyə xidmət göstərir. Müzakirələrin sonunda hər iki qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi və beləliklə, kosmonavtların xilas edilməsi ilə bağlı sazişə qoşulma ratifikasiya edildi.

Dördüncü – doqquzuncu məsələlər üzrə – "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" qanun layihəsi, nəqliyyat, ticarət gəmiçiliyi, istehlakçı hüquqları, ətraf mühitin mühafizəsi, dövlət rüsumu, daşınmaz əmlakın dövlət reyestri, eləcə də Vergi Məcəlləsi, sosial sığorta və dövlət qulluğu sahələrini əhatə edən bir sıra qanunlara dəyişiklikləri nəzərdə tutan layihələr müzakirəyə çıxarıldı. Qeyd edilən qanun layihələri daha əvvəl Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxıldığından, məsələlərlə bağlı komitənin sədri Azər Əmiraslanov çıxış edərək sənədlərin mahiyyəti, məqsədi və gözlənilən nəticələri barədə məlumat verdi. Çıxışlardan sonra ilk üç qanun layihəsi üçüncü, digərləri isə elə birinci oxunuşda qəbul edildi.

Sözügedən qanun layihələrinin müzakirəsi zamanı Milli Məclisin deputatı Razi Nurullayev kənd və qəsəbələrdə illərdir yaşayış olan, lakin mülkiyyət sənədləri olmadığı üçün qaz və elektriklə təmin olunmayan evlərin ciddi sosial problemə çevrildiyini bildirdi: "Söhbət qeyri-qanuni tikililərdən deyil, ailələrin uzun müddət məskunlaşdığı yaşayış evlərindən gedir və xüsusən kənd yerlərində aşağı gəlirli ailələr üçün sənədləşmə prosesinin həm bahalı, həm də mürəkkəb olması onları kommunal xidmətlərdən kənarda qoyur". Deputat qeyd etdi ki, texniki imkan və infrastruktur mövcud olduğu halda, yalnız sənəd tələbi səbəbindən vətəndaşların qaz və işıqdan məhrum edilməsi insan ləyaqətinə toxunan məsələdir. Bu baxımdan millət vəkili yaşayış faktı yerli icra hakimiyyəti və ya bələdiyyə tərəfindən təsdiqlənən evlərə müvəqqəti əsasla minimum kommunal xidmətlərin göstərilməsini və paralel olaraq sadələşdirilmiş sənədləşmə mexanizminin tətbiqini təklif etdi. R.Nurullayev vurğuladı ki, istilik və enerji lüks deyil, insanların ən elementar yaşayış ehtiyacıdır və bu məsələ qanunvericilikdə sosial ədalət prinsipi əsasında həllini tapmalıdır.

Deputat Vasif Qafarov "Dövlət rüsumu haqqında" qanunun müzakirəsi zamanı daşınmaz əmlakla bağlı hüquqların dövlət qeydiyyatı zamanı dövlət rüsumundan azad olunan şəxslərin siyahısına təltif olunmuş müharibə veteranlarının da daxil edilməsinin məqsədəuyğun olduğunu bildirdi. Onun sözlərinə görə, bu addım vətənpərvərlik, dövlətçilik və milli-mənəvi dəyərlərin qorunması prinsiplərinə, eləcə də gənclərin vətənpərvərlik ruhunda tərbiyəsini nəzərdə tutan normativ hüquqi aktların mahiyyətinə tam uyğundur. Deputat, eyni zamanda, dövlət rüsumlarından azadolma hüququ olan şəxslər barədə vahid elektron reyestrin yaradılmasını təklif edərək qeyd etdi ki, bu məlumatların müvafiq dövlət orqanlarının informasiya sistemlərinə inteqrasiyası hüquqi mexanizmlərin təkmilləşdirilməsinə, əlavə arayış tələblərinin aradan qaldırılmasına və vətəndaşlar üçün prosedurların daha operativ və şəffaf icrasına xidmət edəcək.

Son olaraq gündəliyin sonuncu məsələsi müzakirə olundu. Əmək, Cinayət, Vergi və Cəzaların İcrası məcəllələrində, eləcə də sosial müdafiə, məşğulluq, sosial sığorta, gender bərabərliyi, gənclər siyasəti, əlilliyi olan şəxslərin hüquqları, ünvanlı sosial yardım və digər sahələri əhatə edən bir sıra qanunlarda dəyişiklikləri nəzərdə tutan qanun layihələri ətrafında fikir mübadiləsi aparıldı. Məsələlərlə bağlı deputatların çıxışları dinlənildi, aidiyyəti komitələrin rəyləri təqdim olundu. Müzakirələrin yekununda qanun layihələri ayrı-ayrılıqda səsverməyə çıxarılaraq qəbul edildi.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# YAP Sədrinin müavini Ankarada Türk Dili Ailəsi şənliyində




**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının dəvəti ilə 15 Dekabr Dünya Türk Dili Ailəsi Günü münasibətilə Ankarada keçirilən məclisdə iştirak edib.**

Türkiyə Prezidenti, AK Parti Sədri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən şənlikdə partiyanın "Türk Dünyası Strateji Baxış Sənədi" təqdim olunub.

AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlu konsepsiyada qarşıya qoyulan əsas hədəfin türk dövlətləri arasında bütün səviyyələrdə əlaqələrin daha güclənmiş çoxşaxəli lığın gücləndirilməsində müstəsna rolunu qeyd edərək "Türk Dünyası Strateji Baxış Sənədi"nin qəbul olunması ilə bu istiqamətdə çox mühüm bir addımın atıldığını vurğulayıb. O, ortaq türk əlifbası ilə belə bir konseptual sənədin hazırlanmasını AK Partinin qlobal məsuliyyət hissi ilə Türk dünyasında həmrəyliyi gücləndirmək iradəsinin konkret təzahürü adlandırıb.




da möhkəmləndirilməsi və Türk dünyasının ortaq gələcəyinin formalaşdırılması olduğunu bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan çıxış edərək, beynəlxalq müstəvidə, o cümlədən Türk dünyasında sülh və təhlükəsizlik naminə işbirliyinin önəmini diqqətə çatdırıb, xalqların rifahı və ölkələrin tərəqqisi naminə beynəlxalq hüququn normalarına əsaslanan məqsədyönlü siyasətin vacibliyinə toxunub.

Dövlət başçısı çıxışında Türk Dövlətləri Təşkilatının yaradılması və çoxşaxəli fəaliyyətinin Türk dünyasında birliyin, əməkdaşlığın gücləndirilməsində müstəsna rolunu qeyd edərək...

Türkiyə Prezidenti BMT-nin mədəniyyət agentliyi olan UNESCO-nun Səmərqənddə keçirilən Baş Konfransının qərarı ilə dekabrın 15-nin Dünya Türk Dili Ailəsi Günü elan olunmasının əhəmiyyətinə toxunaraq, diqqəti bu xüsusda Türk dövlətlərinin qarşısında duran vəzifələrə cəlb edib.

Səfər çərçivəsində Tahir Budaqov AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, TBMM-in üzvü Kürşad Zorlunun adından tədbir iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətə də qatılıb.



# Baş Prokurluğun heyəti BMT məclisində



**Qətər Dövlətinin paytaxtı Dohada BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyası öz işinə başlayıb.**

130-dan artıq dövlətin rəsmi heyətlərinin və çoxsaylı beynəlxalq və regional təşkilatların nümayəndələrinin təmsil olunduğu tədbirdə Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikası Baş Prokurorluğunun məsul əməkdaşlarından ibarət geniş tərkibli nümayəndə heyəti iştirak edir.

Tədbirin ilk hissəsində Assambleyanın fəaliyyətinin təşkili ilə əlaqədar məsələlər müzakirə edilib, Assambleyanın yeni sədri və müavinləri seçilmişdir. Keçirilmiş səsvermə nəticəsində Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Vyana şəhərindəki bölməsi, ATƏT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli Konvensiyaya Tərəf Dövlətlərin 11-ci Assambleyası sədrinin Şərqi Avropa regionu üzrə müavini seçilib.

Assambleyanın ilk günündə Plenar iclasda çıxış edən Baş prokuror Kamran Əliyev qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əsaslı islahatlar həyata keçirilib. Bundan sonra o, ötən Assambleyadan keçən müddət ərzində qəbul edilmiş yeni qanunvericilik aktları barədə məlumat vermişdir. O həmçinin qeyd edib ki, informasiya texnologiyalarının inkişafı korrupsiya və əlaqəli cinayətlərdən də yan keçməyib.

Belə ki, cinayətkarlığın ənənəvi formaları ilə yanaşı, qabaqcıl texnologiyalardan istifadə etməklə törədilən və mürəkkəbliyi ilə fərqlənən cinayətlərin də artım tendensiyası müşahidə edilir, bu sahədə ölkəmizin hüquq mühafizə orqanları tərəfindən görülmüş tədbirlər barədə də məlumat verib.

Baş prokuror həmçinin qeyd edib ki, ölkəmiz bir sıra beynəlxalq və regional təşəbbüslərin aktiv iştirakçısı olmaqla yanaşı, qlobal tədbirlərin keçirildiyi mərkəzə də çevrilməkdədir. Bakı şəhəri cari ilin may ayında BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) 6-cı Plenar iclasına ev sahibliyi edib, 90-dan artıq ölkənin 300-dən yuxarı nümayəndəsinin qatıldığı tədbirdə Şəbəkənin fəaliyyətinə töhfə verən bir sıra vacib sənədlər qəbul olunub. Növbəti ildə isə Bakı şəhəri İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Korrupsiyaya qarşı Mübarizə Qurumlarının 3-cü iclasına ev sahibliyi edəcəkdir.

Sessiya öz fəaliyyətini dekabrın 19-dək davam etdirəcək.

***XQ***



# Azərbaycan Prezidentinin növbəti humanist addımı

*(əvvəli 1-ci səhifədə)*

Ulu öndər xatırladırdı ki, hər bir insanın özünəməxsus, çoxsaylı arzuları ola bilər. Həbsxanada olanların isə ən ümdə arzusu məhz azadlığa çıxmaq, əzizlərinə qovuşmaqdır. Prezident İlham Əliyev bu məsələdə böyük həssaslıq nümayiş etdirir. Dövlət başçımız dönə-dönə xatırladıb ki, bizim siyasətimizin təməlində insan amili dayanır.

Məhz həmin humanizm prinsiplərinin nəticəsidir ki, xalqımız bu il həm böyük siyahını əhatə edən əfv sərəncamının sevincini yaşayıb, həm də 20 mindən çox insana şamil ediləcək amnistiya aktından yaranacaq məmnunluğun ərəfəsindədir.

Xatırladaq ki, dövlət başçımızın bu il mayın 25-də imzaladığı "Məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, qəbul edilmiş "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam həm ölkəmizdə, həm də beynəlxalq aləmdə özünəməxsus rezonans yaratmışdı.

Bundan başqa, Ali Baş Komandanın təşəbbüsü ilə 2021-ci il noyabrın 5-də Milli Məclis tərəfindən "8 Noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərar qəbul edilmişdi ki, bu da dövlətin öz siyasətində insan ləyaqətinə hörmətin bariz nümunəsi kimi qəbul edilirdi.

Son günlər isə ölkə mətbuatı yazır ki, Prezident İlham Əliyev ilin sonunadək məhkumlara amnistiya verəcək. Əlavə edilir ki, dövlət başçısı amnistiya aktını artıq Milli Məclisə göndərib. Hətta sənəd artıq parlamentdə müzakirəyə çıxarılıb. Ancaq bu amnistiya aktı əvvəlki anoloji sənədlərdən xeyli fərqli olacaq. Qeyd etdiyimiz kimi, budəfəki amnistiya aktının 20 mindən çox məhkuma şamil olunacağı bildirilir. Mətbuatın yazdığına görə, bu aktın icrası zamanı 5 min nəfərdən çox insan azadlıqdan məhrumetmə cəzasından qurtulacaq və azadlıqdan məhrum edilmiş daha 3 min nəfərin cəzası azaldılacaq. Üstəlik, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi bildirilir. Bundan başqa, bildirilir ki, dövlət başçısının növbəti humanist təşəbbüsü ilə "böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaq". Bu amnistiya aktının daha geniş auditoriyanı əhatə etməsi də təsadüfi deyil. Cəmi iki həftədən sonra biz ölkəmizdə elan edilmiş "Konstitusiya və Suverenlik İli"ni başa vuracağıq. Avropalı ekspertlərin fikrincə, Azərbaycan Konstitusiyası insan azadlıq və hüquqlarına ən böyük önəm verən Əsas Qanunlardan biridir. Bundan başqa, biz bu il milli tariximizin ən böyük Zəfərlərindən birinə imza ataraq, əsrlərdən bəri xalqımıza qarşı törədilən terror, təxribat, separatçılıq, işğalçılıq kimi mənfur zehniyyətlərin kökünü kəsmiş və onların bir daha baş verməməsi üçün möhkəm təməl qoymuşuq. Eləcə də iki həftədən sonra xalqımız növbəti dəfə Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edəcək.

Yəni cənab Prezidentin təşəbbüsü ilə qəbul və icra ediləcək möhtəşəm amnistiya aktı xalqımız üçün üç istiqamətdən önəmli və əlamətdar olacaq.

Ekspertlərin fikrincə, min illər boyu xalqımızın böyüklüyünü təcəssüm etdirən humanizm ənənələri bu gün artıq dövlət siyasətində davam etdirilir. Məlumdur ki, ölkəmizdə qanunun aliliyi yüksək səviyyədə təmin olunmaqla yanaşı, əlamətdar tarixlər, hadisələr ərəfəsində amnistiya aktlarının qəbul edilməsi də tarixi ənənəyə sədaqətin göstəricisidir. Prezident İlham Əliyevin bu təşəbbüsü də "Konstitusiya və Suverenlik İli"ndə xalqımıza ünvanlanan dəyərli töhfədir!

Xatırladaq ki, ictimai-siyasi proseslərdə olduğu bütün dövrlərdə hər zaman nəcib, humanist təşəbbüsləri ilə ali insani dəyərlərə yüksək qiymət verən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu istiqamətdəki fəaliyyəti xüsusi qeyd edilməldir. Çünki Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olarkən onun təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktları qəbul edilib. Bu təşəbbüslər xeyirxahlıq və mərhəmət kimi mənəvi idealların təcəssümünə çevrilib.

Sonda xatırladaq ki, növbəti amnistiya aktının hələ qəbul edilmədiyinə və təbii ki, həm də icra olunmadığına görə bundan əvvəlki aktın – Zəfər Amnistiyasının rəqəmlərini xatırlatmağı məqsədəuyğun sayırıq. Xatırlatmamız bu şəkildədir: "Zəfər Günü münasibətilə 2021-ci ildə elan edilmiş aminstiya aktı 17 min 267 şəxsə şamil olunub. Bu qərar tətbiq olunan şəxslərin sayına görə həmin ilə qədər qəbul edilmiş ən geniş amnistiya olub. Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayanlardır. Amnistiya qərarı azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 5971 məhkuma tətbiq edilib. Onlardan 2710 məhkum azadlıqdan məhrumetmə cəzasından azad olunub, 3261 məhkumun cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb. Həmçinin azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 8559 şəxsə amnistiya tətbiq edilib. Onlardan 5722 məhkum cəzadan azad edilib, 2837 məhkumun cəzası azaldılıb. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 1909, islah işləri cəzasına məhkum olunmuş 2471, ictimai işlər cəzasına məhkum edilmiş 86, cərimə cəzasına məhkum edilmiş 1202 və digər cəzalara məhkum olunmuş 54 şəxs bu cəzalardan azad edilib. Şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 62 məhkum barəsində də amnistiya tətbiq olunub".

Yəqin ki, hörmətli oxucu bu xatırlatmanın ikinci cümləsindəki "Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı..." ifadəsinin fərqinə vardı. Yəni Azərbaycan dövləti ərazi bütövlüyümüzün bərpası uğrunda gedən döyüşlərdə iştirak etmiş şəxslərin səhvlərini də bağışlayıb, günahlarını da.

Həmişə azadlıqda, əzizlərinin yanında, doğma ocağında olasan, Azərbaycan vətəndaşı! Daha heç bir maraq səni səhv yola çəkə bilməsin!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

---

*Konstitusiya və Suverenlik İli – 2025*

# Milli birliyin, qanunun aliliyinin və dövlətçilik düşüncəsinin təntənəsi




**Prezident İlham Əliyevin ölkəmizin dövlətçilik tarixində iki böyük hadisənin – Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və dövlət müstəqilliyimizin bərpasının 34-cü ildönümünün qeyd olunması ilə bağlı olan 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tarixi qərarı keçilmiş 30 illik Konstitusiya yoluna nəzər salmaqla bərabər, həm də gələcəyə – daha mütərəqqi, ədalətli və şəffaf idarəçilik sisteminə doğru inamlı addım atmaq mənası daşıyır. Bu təşəbbüs, eyni zamanda, Azərbaycan dövlətçiliyinin təməl prinsipləri olan insan hüquqları və suverenliyin daha da möhkəmləndirilməsini şərtləndirir.**

Xatırladım ki, 1991-ci ilin 18 oktyabrında qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" əsrlərlə xalqımızın qəlbində yaşatdığı azadlıq arzularını reallığa çevirdi. Sovet imperiyasının dağılması nəticəsində bərpa edilən müstəqillik, eyni zamanda, Azərbaycanın dövlətçilik iradəsinin parlaq təntənəsi idi. Lakin o dövrdə mövcud olan xaos, siyasi qeyri-sabitlik və vətəndaş qarşıdurması müstəqilliyin real məzmununun qorunmasını təhlükə altına qoymuşdu.

Məhz belə bir çətin, ağır şəraitdə xalqın çağırışı ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev respublikamızı dağılmaqdan xilas etdi, dövlətçiliyin bərpası və hüquqi sistemin qurulması istiqamətində misilsiz fəaliyyət göstərdi. Dahi şəxsiyyətin rəhbərliyi ilə qəbul edilən 1995-ci il Konstitusiyası dövlət müstəqilliyinin hüquqi təminatı oldu. Beləliklə, müstəqillik ideyası Konstitusiya vasitəsilə daimi və dönməz xarakter aldı.

1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müstəqil dövlətimizin Əsas Qanunu kimi hüquqi sistemin bünövrəsini qoydu. Bu sənəd dövlətin quruluşunu, hakimiyyət bölgüsünü, vətəndaşların hüquq və azadlıqlarını, eləcə də Azərbaycan Respublikasının suverenliyinə dair fundamental prinsipləri təsbit etdi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan bu fundamental sənəd Azərbaycan dövlətinin suverenliyini, ərazi bütövlüyünü, insan hüquq və azadlıqlarını təmin edən ali hüquqi akt kimi formalaşdı. Konstitusiya qanunlarla bərabər, həm də cəmiyyətin mənəvi dəyərlərinin, milli kimliyinin və dövlətçilik fəlsəfəsinin ifadəsinə çevrildi. Eyni zamanda, hüquqi dövlət prinsiplərinə əsaslanan, demokratik, dünyəvi və unitar respublika modelini təsdiqlədi. Bu ali sənədin qəbul edilməsi ölkəmizin beynəlxalq aləmdə tanınan, sabit hüquqi sistemə malik dövlət kimi inkişafının başlanğıcı oldu.

Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən illər ərzində müasir Azərbaycan dövlətçiliyini yeni keyfiyyət mərhələsinə yüksəldib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində Konstitusiyada bir sıra mühüm dəyişikliklər edilib, dövlət idarəçiliyi daha çevik, şəffaf və xalq yönümlü modelə çevrilib.

2009-cu və 2016-cı illərdə keçirilmiş ümumxalq referendumu nəticəsində qəbul olunan dəyişikliklər insan hüquqlarının müdafiəsini gücləndirib, icra hakimiyyətinin məsuliyyətini və səmərəliyini artırıb, həmçinin dövlətin sosial yönümlü mahiyyətini daha da dərinləşdirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hüquqi dövlət prinsiplərinə əsaslanan, innovativ idarəçilik mexanizmləri ilə fəaliyyət göstərən müasir ölkəyə çevrilib.

Hüquq və azadlıqlara zəmanət verən bu ali sənədin 147-ci maddəsində bütün qanunverici və icraedici orqanların qəbul etdikləri normativ aktların Konstitusiyaya uyğun olması açıq şəkildə bildirilib. Bu norma ilə Əsas Qanunun aliliyi və hüquqi sabitliyi reallaşdırılıb. Həmin prinsipin qorunması isə birbaşa prokurorluq orqanlarının əsas missiyasına çevrilib.

Bu gün Azərbaycan Respublikasının Prokurorluğu vahid mərkəzləşmiş sistem kimi fəaliyyət göstərir və qanunçuluğun keşiyində dayanır. Konstitusiyanın 133-cü maddəsinə əsasən, prokurorluq orqanları dövlətin və vətəndaşların hüquqlarının müdafiəsini həyata keçirir, cinayətkarlığa qarşı mübarizə aparır, qanunvericiliyin icrasına nəzarət edir. Bu mənada prokurorluq hüquqi qurum olmaqla bərabər, həm də müstəqilliyin hüquqi dayağıdır. Çünki qanunların tətbiqinin zəiflədiyi yerdə dövlət suverenliyi təhlükə altına düşür. Odur ki, prokurorluq orqanlarının fəaliyyəti suverenliyin hüquqi təminatının ayrılmaz hissəsidir.

Qeyd edim ki, qanunçuluğun təminatı hər bir demokratik dövlətin əsas dayağıdır. Ədalət prinsipi isə bu dayağın mənəvi ölçüsüdür. Azərbaycan Respublikasında son illər aparılan islahatlar göstərir ki, hüquqi dövlət konsepsiyası yalnız qanunvericiliklə məhdudlaşmır, o, həm də ədalətin real təcəssümünə xidmət edir. Prokurorluq orqanları bu istiqamətdə preventiv, eləcə də müdafiə xarakterli funksiyalar yerinə yetirir. Hüquq pozuntularının qarşısının alınması, cinayətlərin istintaqı, dövlət maraqlarının qorunması bu funksiyaların ayrılmaz hissəsidir. Bu fəaliyyət nəticəsində cəmiyyətdə hüquq mədəniyyəti formalaşır, qanuna hörmət prinsipi güclənir, vətəndaş-dövlət münasibətlərində etimad möhkəmlənir.

Son illərdə bu sistemdə aparılan islahatlar, elektron idarəetmənin tətbiqi, şəffaflıq və vətəndaş məmnunluğuna yönələn yanaşma prokurorluğu müasir dövrün çağırışlarına uyğunlaşdırıb. Nəticədə dövlətin hüquqi sabitliyi və xalqın dövlətə olan etimadı daha da möhkəmlənib.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu Zəfər, eyni zamanda, Konstitusiyada təsbit edilmiş "Azərbaycan Respublikasının ərazi bütövlüyü və dövlət suverenliyi toxunulmazdır" prinsipinin həyatdakı təcəssümüdür. Məhz bu tarixi hadisədən sonra suverenlik anlayışı dövlət atributu olmaqla bərabər, həm də milli kimlik və vətəndaş qüruru rəmzinə çevrildi.

Azərbaycan bu gün təkcə milli qanunvericilik səviyyəsində deyil, eyni zamanda, beynəlxalq hüquq sistemində də etibarlı tərəfdaş kimi tanınır. İnsan hüquqlarının müdafiəsi, gender bərabərliyi, sosial rifah, ekoloji hüquqlar və vətəndaş cəmiyyəti institutlarının inkişafı sahəsində atılan addımlar ölkəmizin hüquqi modernləşmə modelini formalaşdırıb.

Onu da vurğulayım ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması yubiley hadisəsi olmaqla yanaşı, həm də Azərbaycan cəmiyyətinin hüquqi düşüncəsinin inkişafı üçün geniş bir ideoloji platformadır. İl ərzində davamlı şəkildə dövlət və cəmiyyətin bütün sahələrində hüquqi maarifçiliyin gücləndirilməsi, dövlətçilik ənənələrinin təbliği və vətəndaş məsuliyyətinin artırılması istiqamətində mühüm təşəbbüslərin həyata keçirilməsi məhz bunun bariz ifadəsidir.

Azərbaycanın dövlətçilik yolu Konstitusiyanın qəbulundan və müstəqilliyin bərpasından ötən onilliklər ərzində göstərdi ki, hüquqi və suveren dövlət anlayışları bir-birindən ayrılmazdır. Ulu öndər Heydər Əliyevin yaratdığı hüquqi dövlət modeli Prezident İlham Əliyevin müasir islahat strategiyası ilə daha da güclənərək milli inkişafın əsas xəttinə çevrilib.

Bu gün Azərbaycan həm regionda, həm də beynəlxalq müstəvidə müstəqil siyasi iradəsi, sabit hüquqi sistemi və güclü dövlət institutları ilə fərqlənir. "Konstitusiya və Suverenlik İli" isə bu inkişafın növbəti mərhələsinin, milli birliyin, qanunun aliliyinin və dövlətçilik düşüncəsinin daha da möhkəmlənməsinin parlaq təntənəsidir.

***Pərviz İBAYEV,***
***Bakının Nizami rayon prokuroru, baş ədliyyə müşaviri***

---

# Dövlət və həmkarlar ittifaqları tandemi

## *AHİK-in VIII qurultayında əməkdaşlığın strateji yol xəritəsi çəkildi*



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) VIII Qurultayının keçirilməsi ölkənin sosial-iqtisadi həyatında yeni mərhələnin başlanğıcıdır. Qurultayın vaxtı və gündəliyi, iştirakçıların tərkibi, səsləndirilən bəyanatların strateji çəkisi təsdiq edir ki, Azərbaycanın vətəndaş cəmiyyəti institutları arasında xüsusi mövqeyi olan həmkarlar ittifaqları artıq qlobal çağırışlara cavab verən, rəqəmsal transformasiyanı və "yaşıl iqtisadiyyat" imperativlərini dərk edən, milli maraqların qorunmasında dövlətin bərabərhüquqlu tərəfdaşı rolunu oynayan institusional gücə çevrilməkdədir.**

2018-2025-ci illəri əhatə edən hesabat dövrünün yekunlarının müzakirəsi əslində bütöv bir tarixi epoxanın – Vətən müharibəsindəki Zəfər, pandemiya ilə mübarizə, postmünaqişə quruculuğu və iqtisadiyyatın şaxələndirilməsi dövrünün sosial yekunlarının təhlili deməkdir. Məhz həmin təhlil növbəti illər üçün yol xəritəsini müəyyən edən mühüm baza rolunu oynayır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri Sahib Məmmədov qurultaya hesabat çıxışında bildirdi ki, 2018-2024-cü illər ərzində ümumilikdə 45,9 min müraciətə baxılıb, onlardan 88,9 faizi müsbət həll edilib, 1000-dən artıq üzv işə bərpa olunub. Fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdırılması üçün zəruri informasiya texnologiyaları infrastrukturu qurulduğunu deyən sədr 2024-cü ildə və bu ilin 11 ayı ərzində 300 minə yaxın həmkarlar ittifaqı üzvünə dəstək göstərildiyi, hazırda 209 şəhid ailəsinin 378 üzvü Konfederasiya və üzv təşkilatların himayəsində olduğu, hesabat dövründə 38 mindən artıq yollayış verilərək 76 mindən çox vətəndaşın güzəştli şərtlərlə istirahət və müalicəsi təşkil edildiyini diqqətə çatdırdı.

***

Qurultayın işini və onun strateji əhəmiyyətini müəyyən edən əsas amil, heç şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevin həmkarlar ittifaqlarının fəaliyyətinə verdiyi yüksək siyasi və hüquqi qiymət, eyni zamanda, müəyyənləşdirdiyi strateji hədəflərdir. Dövlətin həmkarlar ittifaqlarının müstəqil və sərbəst fəaliyyət hüququnu qanunvericilik çərçivəsində tam təmin etməsi və bu sahədə onların azad fəaliyyəti üçün geniş imkanlar yaratması barədə Prezidentin vurğusu ölkədəki sosial dialoqun imitasiya xarakteri daşımadığını, real və işlək mexanizmlərə söykəndiyini göstərən tutarlı arqumentdir. Müstəqillik anlayışı təşkilatın qərarqəbuletmə prosesində, əmək hüquqlarının qorunmasında və sosial siyasətin formalaşdırılmasında suveren iradəyə malik olması kimi başa düşülməlidir. Respublika iqtisadiyyatının neft sektorundan qeyri-neft sektoruna, ənənəvi sənayedən innovativ texnologiyalara doğru sürətli transformasiyası fonunda dövlət başçısının həmkarlar ittifaqlarının qarşısında qoyduğu strateji vəzifələr təşkilatın fəaliyyət fəlsəfəsinin yenilənməsini zəruri edir.

*(ardı 5-ci səhifədə)*

# Çoxqütblü dünyada mötəbər dialoqun yenidən qurulması

*(əvvəli 1-ci səhifədə)*

Qlobal Forum fundamental analitik sualları gündəmə gətirir. Maraqlıdır: niyə sivilizasiyalararası dialoq mövzusu məhz çoxqütblü dünya mərhələsində yenidən ön plana çıxır? Soyuq müharibədən sonra formalaşmış Qərb mərkəzli liberal beynəlxalq nizam uzun müddət özünü həm güc, həm də norma istehsalçısı kimi təqdim edə bilmişdi. Demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı universal model statusu qazanmış, alternativ yanaşmalar isə ya marginallaşdırılmış, ya da “keçid mərhələsi” kimi qiymətləndirilmişdi. Lakin son onillikdə bu normativ hegemonluq tədricən aşınmağa başladı. Qlobal maliyyə böhranları, regional müharibələr, ikili standartlara dair artan ittihamlar və Qərbin öz daxilində yaşadığı siyasi parçalanmalar universal model iddiasını ciddi şəkildə zəiflətdi. Nəticədə, beynəlxalq sistemdə güc balansı ilə yanaşı, dəyər və legitimlik müstəvisində də boşluq yarandı.



Çoxqütblü dünya məhz bu nöqtədə öz mahiyyətini göstərir. Yeni mərhələdə dövlətlər və regional mərkəzlər yalnız hərbi potensial və iqtisadi çəkiləri ilə deyil, təklif etdikləri normativ çərçivə ilə rəqabət aparırlar. Bu rəqabət daha çox “idarəolunan müxtəliflik”, “inklüzivlik” və “qarşılıqlı hörmət” kimi anlayışlar üzərində gedir. Çünki fərqli sivilizasiya modellərinin yanaşı mövcud olduğu bir sistemdə tək bir dəyər paketinin universallaşdırılması mümkün deyil. Belə şəraitdə dialoq və kompromis sistem davamlılığının şərti kimi ortaya çıxır.

UNAOC forumunun gündəliyində ön plana çıxan “məsuliyyətli liderlik” və “inklüziv dialoq” anlayışları bu reallığın siyasi ifadəsidir. Əslində, bu anlayışlar qlobal idarəetmənin kimin tərəfindən və hansı əsaslarla həyata keçiriləcəyi sualına verilən alternativ cavabdır. Qərbin uzun müddət monopoliyasında olan “qlobal norma istehsalı” sahəsi artıq paylaşılır və bu paylaşım açıq qarşıdurma ilə deyil, dialoq dili ilə aparılır. Dialoq bu kontekstdə çoxqütblü sistemdə legitimlik istehsal edən siyasi mexanizm funksiyasını daşıyır. Məhz bu səbəbdən sivilizasiyalararası dialoq mövzusu bu gün yenidən aktuallaşır. Çünki çoxqütblü dünyada sabitlik üçün fərqli dəyər sistemlərinin bir-birini inkar etmədən yanaşı mövcud olması üçün yeni normativ çərçivəyə ehtiyac var. UNAOC forumu bu ehtiyaca cavab olaraq dialoqu normativ vakuumu dolduran, parçalanmış qlobal məkanı birgə idarəetmə məntiqi ilə birləşdirməyə çalışan siyasi platforma kimi çıxış edir.

***

Bəs forumun Səudiyyə Ərəbistanında keçirilməsinin hansı geosiyasi əhəmiyyəti var? Qeyd edə bilərik ki, UNAOC-un 1-ci Qlobal Forumunun məhz Ər-Riyadda keçirilməsi Körfəz regionunun beynəlxalq sistemdəki rolunun transformasiyasını simvolizə edir. Uzun illər qlobal siyasətdə əsasən enerji tədarükçüsü və maliyyə resursları ilə ölçülən Səudiyyə Ərəbistanı bu gün özünü normativ və ideya istehsal edən aktor kimi təqdim etməyə çalışır. Dəyişimin mərkəzində “Vision 2030” dayanır və forum həmin strategiyanın diplomatik-mədəni ölçüsünün açıq nümayişidir.

Eyni zamanda, Ər-Riyad bu platforma vasitəsilə qlobal gündəmi formalaşdıran aktor kimi çıxış etmək niyyətini göstərir. Burada əsas məqsəd yalnız müsbət imic yaratmaq deyil, Səudiyyə Ərəbistanını müxtəlif sivilizasiya və siyasi bloklar arasında təmas nöqtəsi kimi mövqeləndirməkdir. İslam dünyası ilə Qərb arasında uzun illər mövcud olmuş etimadsızlıq və dəyər fərqləri fonunda Ər-Riyad özünü dialoqun mərkəzi kimi təqdim edir. Forumun gündəliyində mədəni və dini müxtəlifliyin idarə oluna bilən və hətta faydalı resurs kimi təqdim edilməsi də Səudiyyə Ərəbistanının öz daxili transformasiya narrativi ilə birbaşa uzlaşır. Bütün bunlarla krallıq göstərməyə çalışır ki, fərqliliklərin tanınması düzgün idarə olunduqda sosial və siyasi davamlılıq yaradan elementə çevrilə bilər.

Ən mühüm geosiyasi siqnal isə ondan ibarətdir ki, Ər-Riyad qlobal normativ mərkəzlərin coğrafiyasını genişləndirmək iddiasındadır. Forum vasitəsilə səsləndirilən əsas mesajlardan biri budur: beynəlxalq normalar və dəyərlər artıq yalnız Brüssel, Vaşinqton və ya ənənəvi Qərb paytaxtlarında formalaşmır. Çoxqütblü dünyada bu proses daha çox mərkəzli, daha çox səsli və daha az monopoliyalı xarakter alır. Səudiyyə Ərəbistanı özünü bu yeni mərkəzlərdən biri kimi təqdim etməklə qlobal siyasətdə statusunu keyfiyyətcə dəyişməyə çalışır.

***

Azərbaycanın bu platformada iştirakı hansı strateji xəttin davamıdır? Ölkəmizin Ər-Riyadda keçirilən UNAOC Qlobal Forumunda iştirakı taktiki xarakter daşımır və konkret bir tədbirlə məhdudlaşan diplomatik jest kimi oxuna bilməz. Bakının iştirakı son illər ardıcıl şəkildə qurduğu və beynəlxalq sistemdə özünəməxsus mövqe formalaşdırmağa yönəlmiş strateji xəttin – “körpü-dövlət” konsepsiyasının məntiqi davamıdır. Azərbaycan bu konsepsiya çərçivəsində özünü nə Qərb mərkəzli normativ hegemonluğun passiv istehlakçısı, nə də alternativ güc bloklarının ideoloji əlavəsi kimi təqdim edir. Müasir mərhələdə Bakı çoxqütblü dünya nizamında dialoqu istehsal edən, fərqli dəyər sistemləri arasında əlaqə yaradan müstəqil aktor roluna iddia edir.

Azərbaycanın multikulturalizm və dinlərarası dialoq sahəsində yaratdığı platformalar, xüsusilə Bakı Prosesi çərçivəsində keçirilən beynəlxalq forumlar ölkəni dialoq mövzusunda normativ təcrübə sahibi aktora çevirib. Forumun gündəliyində yer alan rəqəmsal dezinformasiya, süni intellektlə gücləndirilmiş nifrət diskursları və miqrasiya narrativlərinin manipulyasiyası kimi mövzular Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki ölkə son illər açıq şəkildə informasiya müharibəsinin hədəfi olmuş, eyni zamanda, postmünaqişə mərhələsində öz siyasi və hüquqi narrativlərini beynəlxalq müstəvidə yenidən qurmaq zərurəti ilə üzləşmişdir. Azərbaycan bu mövzulara təhlükə prizmasından yanaşmır, informasiya məkanında legitimlik və həqiqət uğrunda mübarizənin necə aparılmalı olduğuna dair təcrübə paylaşır.

Bu kontekstdə Ər-Riyad forumu Azərbaycan üçün çoxqütblü dünyada öz normativ xəttini ixrac etmək üçün əlverişli platformadır. Bakı dialoq, qarşılıqlı hörmət və inklüzivlik anlayışlarını konkret siyasi davranış modeli kimi təqdim etməyə çalışır. Mövcud amillər Azərbaycanın regional aktordan qlobal normativ diskussiyalara töhfə verən ölkəyə çevrilmək niyyətini göstərir.

Azərbaycan və Səudiyyə Ərəbistanı timsalında dialoq artıq Qərb–Qərb müzakirəsi yox, Qlobal Cənubun da qaydaları yenidən yazmağa başladığı çoxtərəfli proses kimi



formalaşır. Çoxqütblü dünyada dialoq daha çox aktorun səsini eşitdirən, fərqli təcrübələri legitim bilən və normativ monopoliyanı parçalamağa yönəlmiş prosesə çevrilir. Bütün bu amillər beynəlxalq sistemdə yalnız gücün deyil, mənanın və narrativin də paylaşılmasına doğru gedən dərin struktur dəyişikliyindən xəbər verir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Əli Əkbər Vilayəti kimlərin düşərgəsindədir?



*(əvvəli 1-ci səhifədə)*

Heç şübhəsiz, Vilayəti Azərbaycan dövlətinin müstəqillik illərində reallaşdırdığı siyasi kursdan da xəbərdardır. Elə məsələ bundadır. Yəni problem belə təcrübəli və məlumatlı birinin, loru dildə desək, ağlına gələni danışmasıdır. Görəsən, Vilayəti bilmir ki, Azərbaycan Cənubi Qafqaz coğrafiyasına kənar qüvvələri daxil etmək niyyətindən tam uzaqdır? Sualımız ritorikdir.

***

Əlqərəz, Ə.Ə. Vilayəti yenə Zəngəzur dəhlizi ilə bağlı danışıb. O deyib ki, İran ABŞ Prezidenti Donald Trampın Qafqazla bağlı planına qarşıdır, çünki bu plan İranın təhlükəsizliyinə ciddi təhdid yaradır. “Mehr” informasiya agentliyinin məlumatına görə, o, bu açıqlamanı Ermənistanın Tehrandakı səfiri Qriqor Akopyanla görüşü zamanı verib: “Qafqazla bağlı sözdə Tramp planı Zəngəzur dəhlizindən heç nə ilə fərqlənmir və İran ona qəti şəkildə qarşıdır”.

Fikrini davam etdirən Vilayəti izah edib ki, Zəngəzur dəhlizi “NATO-nun İranın şimalında mövcudluğuna şərait yaradır” və ölkənin şimal bölgələri ilə Rusiyanın cənubu üçün ciddi təhlükəsizlik təhdidi deməkdir. O, həmçinin qeyd edib ki, TRIPP marşrutu “praktiki olaraq adı dəyişdirilmiş eyni layihədir və indi ABŞ şirkətlərinin Ermənistana gəlişi formasında həyata keçirilir”.

Ən başlıcası, Vilayəti bu qənaətə gəlib ki, Birləşmiş Ştatlar iqtisadi fəaliyyət bəhanəsi ilə regiona hərbi baxımdan müdaxilə edir. “Təcrübə göstərir ki, amerikalılar əvvəlcə, guya, iqtisadi layihələrlə həssas bölgələrə daxil olurlar, lakin tədricən onların mövcudluğu hərbi və təhlükəsizlik ölçülərinə qədər genişlənir”, – deyən müşavir əlavə edib ki, İran sərhədlərində istənilən formada Amerika mövcudluğunun açılması təhlükəsizlik baxımından aydın nəticələr doğurur.

***

Göründüyü kimi, Vilayəti köhnə şakərindən əl çəkmir. Onun hazırkı açıqlaması hər zaman dilə gətirdiyi ritorikanın, bir növ, təkrarıdır. Ancaq paradoks yaranır. Çünki İranın hazırkı rəhbərliyinin TRIPP marşrutuna qarşı hansısa əks baxışı yoxdur. Yəni Prezident Məsud Pezeşkianın, eləcə də bu günlərdə Bakıda səfərdə olmuş Xarici işlər naziri Seyid Abbas Əraqçinin dilindən nə etiraz, nə də etiraza eyham vuran hansısa fikir ifadə olunub. Ona görə ki, Azərbaycan kifayət qədər şəffaf mövqe tutur, regional kommunikasiyaların açılmasının bütün aspektlərinə aydınlıq gətirir, hansısa şübhə yeri qoymur. Bu, həm də təminatdır. Təminatın müəllifi isə Prezident İlham Əliyevdir.

Digər tərəfdən, Vilayətinin fikirlərini Ermənistanın İrandakı səfiri ilə görüşdə açıqlamasına diqqət yetirək. Məsələ ondadır ki, bir vaxtlar rəsmi İrəvan Zəngəzur dəhlizinin timsalında Naxçıvana maneəsiz yola qarşı çıxırdı. Erməni iqtidarının təmsilçiləri vurğulayırdılar ki, dəhliz məntiqi ölkələrinin ərazi bütövlüyünü və suverenliyini təhdid altına alır. Mövcud xüsusda İran rəhbərliyinin də zamanında özü üçün “qırmızı xət”lər müəyyənləşdirdiyindən xəbərimiz var. Rəsmi Tehran Zəngəzur dəhlizini regionda “sərhədlərin dəyişdirilməsi cəhdi” olaraq önə çəkirdi. Bir sözlə, İranla Ermənistan arasında fikir yaxınlığı var idi. Hazırda Ermənistan Tramp marşrutu ideyasına razılıq verməklə, faktiki olaraq, Zəngəzur dəhlizi ilə də barışmış durumdadır. Bəs Ə.Vilayəti nə edir? O, erməni səfirə belə bir durumun yolverilməzliyini anlatmağa çalışır. Əlbəttə, buna anlatmaq demək mümkündürsə...

Bəli, İran üçün Azərbaycanın digər əraziləri ilə Naxçıvanı birləşdirəcək təxminən 40 kilometrlik yol Qara dənizə çıxmaq imkanı, Rusiya ilə dolayı əlaqə xəttidir. Amma heç kəs bu xətti bağlamaq barədə düşünmür. Əksinə, TRIPP marşrutu və Zəngəzur dəhlizi ideyası nəhəng regional kommunikasiya habı yaradır ki, bundan bütövlükdə region ölkələrinin fayda götürəcəyi dəfələrlə vurğulanıb. O da bildirilib ki, məsələ regiona davamlı sülh və sabitlik gətirəcək. Bunun nəyi pisdir?

Vilayətinin əndişə duyduğu NATO hərbi mövcudluğu məsələsinə gəlincə, hər halda, belə bir durum yaransa, heç nə gizli qalmayacaq və İran öz növbəsində cavab tədbirləri görmək imkanındadır. Amma nəinki bu durum, heç ona bənzər işartı da yoxdur. Yəni, yaxşı olar ki, cənab Vilayəti fikirlərini köhnə klişelər və mənasız əndişələr üzərində qurmasın. Ümumən, onun yeni dövrdə yaşamağı öyrənməsi çox vacibdir.

Köhnə klişelərdən söz düşmüşkən, İranda kimsə və ya kimlərsə düşüncələrində Türkiyə–Azərbaycan bloku təsəvvürə gətirib haqqında söz açdığımız 40 kilometrlik yolu həmin bloka qarşı balans aləti qismində görməməlidir. Nəzərə alınmalıdır ki, Azərbaycan üçün başlıca məqam özünün əsas hissəsi ilə Naxçıvan arasında yolun maneəsizliyidir. Ölkəmizin buna tam haqqı çatır. Axı, Vilayətinin tarixdən xəbəri var. Yoxsa, o, sabiq SSRİ dönəmini xatırlamır? Xatırlayır, elə isə niyə yaddan çıxarır ki, həmin Sovetlər Birliyi təzə yarananda 40 kilometrlik ayırıcı xətt olmamışdı. Yəni Azərbaycanın əsas hissəsi Naxçıvanla birləşirdi.

Vəlvələdən, yaxud zəlzələdən indi həmin məsafə Ermənistan ərazisidir və Azərbaycan Ermənistanın ərazi bütövlüyünü və suverenliyini tanıyır. Deməli, müşavir əmin olmalıdır ki, İranın ənənəvi marşrutlarından istifadə icazəsini verəcək nə Azərbaycan, nə ABŞ, nə də bir başqa dövlət yox, məhz Ermənistandır. Ermənistan Tramp marşrutuna razılıq verirsə, bu, niyə Tehranın marağında olan həmin ənənəvi yolun bağlanması anlamına gəlməlidir? Anlamaq çətindir.

Vilayəti kimi şəxslərin düşüncələrini həm də ona görə anlamaq müşküldür ki, köhnənin klişelərinə tutulan bu şəxslər, sanki, öz ölkələrinin maraq və mənafelərini düşünməyəcək qədər iflic durumdadırlar. Məgər İranın beynəlxalq durumu çoxmu yaxşıdır? Ölkə hər yandan sıxılır və əslində, Zəngəzur dəhlizi ideyası ona iqtisadi baxımdan fayda vəd edir. Bu faydanı görüb dəyərləndirməkdəksə, NATO “zəngulələrinə” baş vurmaq kənardan olduqca bəsit görünür.

***

Sonda yenidən bir dövlət xadiminin öz ölkəsinin mənafelərini düşünməsi üzərində dayanaq. Bu zaman istər-istəməz ortaya müəyyən şübhəli məqamlar çıxır. Fikrimizi əsaslandırmaq üçün qeyd edək ki, dekabrın ilk günlərində Ermənistanla Avropa İttifaqı arasında strateji tərədaşlıq gündəliyi adlanan sənəd imzalandı. Sənədin ayrı-ayrı müddəalarının anti-Azərbaycan mahiyyət daşıdığı məlumdur. O da məlumdur ki, sözügedən gündəlik fonunda bəzi Aİ rəsmilərinin açıqlamaları kimlərinsə TRIPP marşrutunu fərqli tərzdə dəyərləndirmək, reallığı təhrif etmək niyyətlərinin mövcudluğunu göstərdi.

İndi necə başa düşək? Belə düşünək ki, cənab Vilayəti də kimlərinsə düşərgəsində yer alır? Bir halda ki, İran dövlətinin hazırkı administrasiyasından Zəngəzur dəhlizi xüsusunda hansısa mənfi reaksiya yoxdur, cənab müşavirin ortaya düşüb “havanı korlamasına” başqa ad tapmaq olmur. Ermənistanın İranla sərhədində Aİ-nin müşahidəçilərinin keşik çəkdiyi indiki durumda Vilayəti buna yox, Zəngəzur dəhlizinə “ilişib” İranın təhlükəsizliyinə təhdid axtarırsa, cənab müşavirin öz ölkəsinin mənafeyini düşündüyünü, yoxsa kimlərinsə cəbhəsində yer aldığını söyləmək xeyli çətinləşir. Ümid edək ki, ikinci durum yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İkili standartların kölgə saldığı cinayətlər

## *Azərbaycanın həqiqətləri qərəzli ssenariləri iflasa uğradır*




**Bundan öncə neokolonializmdən çox bəhs etmişik. Xüsusilə də Fransa və Niderlandın illərdir yürütdüyü müstəmləkəçilik siyasəti barədə. Amma bu mənfur siyasət o qədər geniş yayılıb ki, araşdırdıqca problemin dərinliyi daha çox nəzərə çarpır. Elə bu çərçivədə Bakı Təşəbbüs Qrupunun müstəmləkə ölkələri ilə bağlı araşdırmaları xüsusi diqqət çəkir.**

Qrupdan XQ-yə verilən məlumata görə, toplanmış faktlar sübut edir ki, insanlıq adına ən qəddar və ən utancverici cinayətlər məhz Belçika kralları tərəfindən həyata keçirilib. Belçika müstəmləkəçiliyi Avropa imperiyaları arasında mahiyyətinə görə xüsusi yer tutur. Bu modelin əsas fərqi odur ki, müstəmləkə əraziləri birbaşa monarxın — II Leopoldun şəxsi mülkiyyəti kimi idarə olunurdu. Bəli, misli görünməmiş sistemli vəhşiliklər, irqi alçaltma siyasətinin açıq şəkildə tətbiqi və bu təcrübənin Avropanın mərkəzində legitimləşdirilməsi Belçika müstəmləkəçiliyini tarixə ən qaranlıq və ən utancverici nümunələrdən biri kimi həkk edib. Həmin qaranlıq irsin rəzil səhifələrindən biri isə “insan zooparkları”dır.

Qurumun araşdırmasında qeyd olunub ki, 1897-ci ildə Belçika kralı II Leopoldun şəxsi təşəbbüsü və birbaşa göstərişi ilə Konqodan zorla gətirilmiş 267 insan Brüsselin Tervüren bölgəsində keçirilən Dünya Sərgisində “canlı eksponat” kimi nümayiş etdirilib. Hadisə Avropa müstəmləkəçilik təfəkkürünün mahiyyətini açıq şəkildə ortaya qoyan sistemli ideoloji akt idi. “Qoca qitə”nin sərt iqlim şəraitində yarıçılpaq vəziyyətdə saxlanılan insanlar taxta hasarların arxasında nümayiş etdirilir, insanlıqdan çıxarılaraq ekzotik obyekt statusuna salınırdı. Hətta proses fiziki zorakılıqla məhdudlaşmır, eyni zamanda, onların kimliyinin, mədəniyyətinin və insan ləyaqətinin məqsədli şəkildə məhv edilməsi məqsədi daşıyırdı. Bir məqamı da bildirək ki, vəhşiliklər nəticəsində azı yeddi konqolu, o cümlədən uşaqlar, Avropa iqlimi, tibbi nəzarətin olmaması və sanitariya normalarının kobud şəkildə pozulması səbəbindən pnevmoniya, qrip və digər xəstəliklərə yoluxaraq əzablar içində həyatını itirib. Onların cəsədlərinin gizlicə dəfn edilməsi isə cinayətin ictimai məsuliyyətdən kənarda saxlanılmasına yönəlmiş sistemli ört-basdır siyasəti idi. Beləliklə, II Leopoldun sivilizasiya missiyası adı altında formalaşdırdığı “insan zooparkı” Avropanın mərkəzində faktiki soyqırım düşüncəsinin simvoluna çevrildi.

Araşdırmalar nəticəsində ortaya çıxan daha maraqlı fakt ondan ibarətdir ki, “insan zooparkı”nın yerləşdiyi Tervüren ərazisində sonradan daimi muzey yaradılıb. Əvvəl “Konqo Muzeyi”, daha sonra isə “Mərkəzi Afrika üzrə Kral Muzeyi” adlanan bu institut onilliklər ərzində müstəmləkəçi ideologiyanın mədəni və akademik legitimləşdirilməsi funksiyasını yerinə yetirib, kolonial istismar “maarifçilik”, “inkişaf” və “mədəni missiya” kimi təqdim edilib. Avropanın törətdiyi cinayətlər isə ya romantikləşdirilir, ya da tamamilə görünməz hala salınırdı. Yəni, muzey müstəmləkəçiliyin ideoloji davamlılığını təmin edən alətə çevrilmişdi. 1958-ci ildə Brüsseldə təşkil olunan “Expo 58” Ümumdünya Sərgisi zamanı eyni xarakterli insan nümayişinin yenidən təkrarlanması bu siyasətin dəyişmədiyini göstərdi. Bu dəfə Konqodan gətirilən 598 nəfər – 273 kişi, 128 qadın və 197 uşaqdan ibarət 183 ailə yenidən “canlı eksponatlar” kimi ictimaiyyətə təqdim olundu. Hadisənin II Dünya müharibəsindən, faşizmin ifşasından və insan hüquqları diskursunun beynəlxalq səviyyədə qəbulundan sonra baş verməsi isə müstəmləkəçi təfəkkürün nə qədər dərin kök saldığını nümayiş etdirdi. Bu siyasətin digər ağır nəticələri 1959–1962-ci illərdə üzə çıxdı. Belçikanın müstəmləkə idarəçiliyi altında olmuş Burundi, Konqo və Ruanda ərazilərində ağdərili atalarla qaradərili analardan doğulmuş təxminən 20 min uşaq ailələrindən zorla ayrılaraq Belçikaya aparılmış və övladlığa verilmişdi. Valideynlərin razılığı olmadan həyata keçirilən proses uşaqların etnik, mədəni və ailə kimliyinin məqsədli şəkildə silinməsinə yönəlmişdi.

Məhz bu tarixi və ideoloji kontekstdə Azərbaycanın neokolonializmə qarşı apardığı mübarizə qlobal miqyasda normativə çevrilir. Rəsmi Bakı bu mövzunu nə taktiki ritorika, nə də diplomatik dekorasiya səviyyəsində gündəmə gətirir. Əksinə, neokolonializmi müasir beynəlxalq münasibətlərin struktur problemi kimi təqdim edir, sistemin hüquqi, ideoloji və institusional dayaqlarını açıq şəkildə sorğulayır. Daha dəqiq desək, yanaşmamız bir çox dövlətlərin səssizcə qəbul etdiyi status-kvonu ifşa edir. Bakı Təşəbbüs Qrupunun fəaliyyəti məhz bu mənada müstəmləkəçilik cinayətlərinin sistemli xarakterini üzə çıxaran intellektual və siyasi akt kimi qiymətləndirilə bilər. Problemlə mübarizə istiqamətində təşkil olunan çoxsaylı qlobal tədbirlər Avropanın “normativ güc” iddiasının qanlı təməl üzərində qurulduğunu göstərir, Qərbin özünütəqdimetmə mifologiyasını deşifrə edir. Sual yaranır: nə üçün insan hüquqları haqqında hökm verənlərin öz tarixləri ilə hesablaşmaq öhdəliyi yoxdur? Əslində, ölkəmizin neokolonializmlə mübarizə istiqaməyində atdığı addımlar onu göstərir ki, problem keçmişdə qalmayıb, bu gün də davam edir, beynəlxalq hüquq selektiv tətbiq olunur, suverenlik anlayışı geosiyasi maraqlara uyğun şərh edilir, demokratiya və insan haqları diskursu isə təzyiq alətinə çevrilir. Azərbaycan isə açıq şəkildə göstərir ki, qlobal qərarların qəbulunda müstəmləkəçilik təcrübəsini yaşamış, suverenliyini bərpa etmiş və öz yolunu seçmiş dövlətlər də söz sahibi olmalıdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Zaur MƏMMƏDOV,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

Dünya beynəlxalq hüquq müstəvisində ədalətli bir mərhələyə qədəm qoymalıdır. Təəssüf ki, bu gün də görürük ki, ədalətsiz yanaşmalar davam edir, cinayətlər gizlədilir. Daha acınacaqlısı odur ki, bu cinayətləri ört-basdır edənlər məhz beynəlxalq hüququ formalaşdıran, onu yaradan və müasir beynəlxalq sistemin mərkəzində dayanan qüvvələrdir. Onlar özlərini hələ də beynəlxalq münasibətlər sisteminin mərkəzi hesab edir, digər dövlətləri isə yarımperiferiya və ya periferiya kimi görürlər. Bu gün müsəlmanlara, eyni zamanda, Afrika xalqlarına qarşı açıq və gizli formada irqçi münasibətlərin şahidi oluruq. Məhz bu kontekstdə Bakı Təşəbbüs Qrupunun apardığı araşdırma çərçivəsində Belçika nümunəsi reallığı göstərir. Elə cinayətlər var ki, onları sözlə ifadə edərkən insan dəhşətə gəlir, hətta göz önünə gətirmək belə istəmir. Lakin bunlar danışılmalı, açılmalı və beynəlxalq hüquq müstəvisində qiymətləndirilməlidir.

Azərbaycan uzun illər erməni terrorundan və erməni soyqırımı siyasətindən əziyyət çəkib. Bu terror və soyqırımı aktları zamanı bəzi dövlətlərin siyasi dairələri Azərbaycanı tənqid, cinayətkarları isə himayə edir, onları öz himayələri altında saxlayırdılar. Bu yanaşma onu göstərirdi ki, onlar Cənubi Qafqazda da oxşar proseslərin davam edəcəyini, öz maraqlarına uyğun siyasətləri burada da həyata keçirə biləcəklərini düşünürdülər. Lakin Azərbaycan sübut etdi ki, Fransa və Niderlanddakı, yaxud Belçika, Lüksemburq, Avropanın digər ölkələrindəki ayrı-ayrı siyasətçilərinin fərqi yoxdur. Bakı Təşəbbüs Qrupu tərəfindən atılan addımlar, bir çox ölkələrin və siyasi dairələrin ifşa edilməsi, ayrı-ayrı xalqların hüquqlarının müdafiəsi onu göstərdi ki, özlərini beynəlxalq sistemin mərkəzi hesab edən qüvvələr artıq yeni reallığı qəbul etməyə məcburdur. Ölkəmiz bu gün ədalətsiz dünya nizamına qarşı apardığı prinsipial diplomatiyası ilə beynəlxalq nüfuz qazanıb və ona qarşı yönəlmiş siyasətlərə uğurla cavab verir.

Bu ifşa siyasəti gələcəkdə də davam edəcək. Nə qədər ki, regionlara və xalqlara qarşı ikili standartlar tətbiq olunur, nə qədər ki, ədalətsizliyə göz yumulur, o vaxtadək ədalətsizliyə yol verənlər ifşa edilməli və onlara qarşı mübarizə aparılmalıdır.



# Xəzəryanı region və müasir geosiyasət: Azərbaycan konteksti

## II MƏQALƏ

### Xəzəryanı region: geosiyasi konfiqurasiyalar

Bu mövzunun I məqaləsində göstərmişik ki, XXI əsrin gəlişi ilə Xəzərin geosiyasəti aktuallaşmışdır və onun özəllikləri vardır. Onların təməlində bir tərəfdən, Xəzərin siyasi tarixi, digər tərəfdən isə müasir dövrün geosiyasi çağırışlarının gətirdiyi şərtlərdən qaynaqlanan yeni konfiqurasiya modellərinin müəyyən edilməsi durur. Tarixi aspekt üzərində biz başqa məqalədə dayanacağıq. İndi XXI əsrin geosiyasi dinamikası kontekstində irəli sürülən müxtəlif geosiyasi konfiqurasiyalara Xəzərin müasir mərhələdə geosiyasəti aspektində nəzər salaq. Onu vurğulayaq ki, Xəzər mövzusuna hazırda əsas olaraq fənlərarası yanaşma prizmasında baxırlar. Bu da Xəzərin geosiyasəti haqqında yeni nəzəri təsəvvürlər formalaşdırır.

Burada bizim üçün maraqlı olan bir nəzəri məqam mövcuddur. Bir sıra tədqiqatçılar hesab edir ki, Xəzər təbii-geosiyasi koordinatlar sistemində ilk "Xəzəryanı region" anlamından "Böyük Xəzər" arealına transformasiya edir (məsələn, K.A.Markelov, V.Q.Qolovin və başqaları). Burada "təbii-geosiyasi koordinatlar" dedikdə coğrafi xüsusiyyətlər, təbii resurslar, iqlim, iqtisadiyyat, siyasi tarix, nəqliyyat-kommunikasiya potensialı kimi faktorların kompleksi nəzərdə tutulur. Yəni "təbiiliklə" (geniş anlamda təbiətlə) siyasət və geosiyasətin qarşılıqlı əlaqəsi nəzərə alınır.

Ancaq məhz bu cür yanaşma onun müəlliflərinə bütövlükdə problemin "təbiilik"dən çıxarılıb, xüsusi üsulla öz maraqlarına uyğun nəzəriyyələşdirmə imkanını yaradır. Bu o deməkdir ki, "Xəzəryanı region" anlayışından "Böyük Xəzər"ə keçid faktiki olaraq çox müxtəlif siyasi və geosiyasi konfiqurasiyalar meydana gətirir. Nəticədə Xəzər obyektiv, təbii və faydaverici qiymətləndirilmə müstəvisindən çıxarılaraq müxtəlif spekulyativ dəyərləndirmə burulğanına düşür. Bu cür yanaşmanın stratejidə perspektivli ola biləcəyini düşünmürük. Əksinə, sürətlə dəyişən və ciddi çağırışlarla müşayiət olunan XXI əsrdə Xəzər və ətraf regionlar üçün daha mürəkkəb problemlər əmələ gələ bilər. Bu yanaşma səviyyəsində tezisin əsaslı olduğunu sübut edək.

### Ümumi nəzəri səviyyə

Xəzər region olaraq ayrıca məkan kimi geosiyasi anlam kəsb etməlidir ki, onun dünya siyasəti kontekstində müstəqil, avtonom geosiyasi varlığı təmin edilsin. Bu, Xəzər və Xəzərətrafı məkanları öz geosiyasi statusunun subyekti edir və ona daxil olan dövlətlər qrup halında regionun maraqlarından çıxış edərək beynəlxalq miqyasda oyunçu rolunu oynaya bilir. Öz növbəsində həmin məqam Xəzərə konkret və dəqiq müəyyən edilmiş sərhədləri olan ərazi kimi yanaşmaqla "Xəzər siyasəti"ni onun üzərində bərqərar etməyə imkan yaradır.

Nümunə göstərək. Azərbaycan Prezidenti "Azərbaycanın Xəzər nefti" əsərində Xəzər dənizinin geosiyasi arealını aşağıdakı kimi müəyyən edir. Həmin areal, Mərkəzi Asiyanın qərb hissəsini, Rusiyanın cənubunu, Şimali və Cənubi Qafqazı və İranın şimalını əhatə edir. Bu, coğrafi, tarixi və geosiyasi faktorları dəqiq krtiteriyalar əsasında sintez etmək əsasında Xəzərin geosiyasi konseptini yaratmağın təməlidir. Təbii ki, həmin yanaşmada Xəzər müstəqil, avtonom geosiyasi sistem kimi dərk edilir və onun hansısa qüvvələr tərəfindən spekulyasiya predmetinə çevrilməsi imkansızdır. Çünki Xəzər geosiyasi areal kimi dəqiq coğrafi koordinatlara malik məkan olaraq müəyyən edilir.

Burada təbii resurslar faktoru həm sərhədləri müəyyən edilən regionun tarixi özəllikləri, həm də müasir geosiyasi xüsusiyyətlərin qarşılıqlı əlaqəsində konseptuallaşdırılır.

Ayrıca, Xəzər yuxarıda vurğulanan coğrafi məkanların prizmasında geosiyasi anlam alır. Artıq ona hansısa coğrafi olaraq uzaq ölkənin (məsələn, Belarus və ya İraqın) əlavə edilməsi təməl geosiyasi areala daxil deyildir. Prinsipcə, onu genişləndirmək olar, lakin öncədən "Xəzəryanı region" ifadəsi dəqiq müəyyən edilmiş anlama malikdir. Yəni Xəzərin geosiyasi konsepti onun müstəqil, avtonom faktor olaraq anlamına əsaslanır. Bu istiqamətdə təhlili ayrıca davam etdirməyi düşünürük.

"Böyük Xəzər" konsepti isə fərqli kriteriyalara əsaslanır və buna görə də müxtəlif nəzəri spekulyasiyalara yol açır. Bu bağlılıqda başlıca məqam ondan ibarətdir ki, həmin yanaşma prizmasında Xəzərin müstəqil geosiyasi məkan anlamı arxa plana keçir. Bu, qəbuledilməzdir, çünki faydasızdır, mənzərəni qeyri-müəyyən etməkdir. Çünki o halda ön sıraya hansısa dövlətin və ya dövlətlər qrupunun öz maraqlı çıxarılır. Həmin maraqların nə dərəcədə təmin olunmasından asılı olaraq "Böyük Xəzər" geosiyasi status alır. Nümunələrə baxaq.

### "Böyük Xəzər" – 3 regional miqyasın iyerarxiyası

"Böyük Xəzəri" üç regional miqyasın iyerarxik quruluşu kimi təqdim edirlər. Birinci miqyası "sadə regional-coğrafi vahid" adlandırırlar. Bura beş Xəzəryanı ölkə daxildir. İkinci miqyas "aralıq model" adlanır və ona "mezoregion" deyirlər. Bura müəyyən sayda yeni ölkələr aid edilir (onların sayı 1-dən başlayaraq 10-a qədər arta bilər). Məsələn, Belarus və ya İraq. Başqa variantda 10 ölkəni də bura aid edirlər (bu barədə I məqalədə yazmışıq) və s.

Eyni zamanda, Xəzəryanı regionu hansısa təşkilatın marağına uyğun "Böyük Xəzər" etməyə çalışırlar. Məsələn, Belarusu ora aid etməklə Avrasiya İqtisadi Birliyi və MDB maraqlarına uyğun Xəzəri "böyüdürlər".

Ancaq başqa bir modeldə kimlərsə Çini, digərləri Türkiyəni, İsraili, Suriyanı və ya Pakistanla Hindistanı eyni məntiqlə "Böyük Xəzər"ə qata bilir. Ayrıca təşkilatların maraqları prizmasından baxaraq, məsələn, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə "Böyük Xəzər" arasında vəhdəti göstərməyə çalışırlar.

Təbii ki, bu cür genişlənmədə coğrafi mənsubluq kriteriyasına əsaslanmaq ağılsızlıq olardı. Burada heç tutarlı tarixi təməl də tapmaq asan deyildir. Ancaq qədimdən regionların əlaqələrini ifadə edən əməkdaşlıq olmuşdur. Məsələn, "İpək Yolu" coğrafi olaraq uzaq olan məkanları "birləşdirmişdir". Bu kimi funksional xarakterli faktorlardan istifadə edərək müasir elmi yanaşma çərçivəsində müəyyən konseptual transformasiyalara baş vururlar.

"Böyük Xəzər" konseptində də "geosiyasi və geoiqtisadi vahid məkan" anlayışını daxil edirlər. Bu anlayışlar coğrafi mənsubluğun məna və anlamca "konseptual genişləndirilməsi"nə xidmət edir. Nəticədə "Böyük Xəzər"in "elmi və geosiyasi anlam sərhədi" coğrafi, geosiyasi və geoiqtisadi aspektlərin sistemi əsasında müəyyən edilir.

Burada elmi yanaşmanın ciddi olması mümkündür. Nəzəri olaraq coğrafi+geosiyasi+geoiqtisadi faktorların sistemi müəyyən "Böyük Xəzər" modelini yarada bilər. Lakin bunun realpolitika və praktiki siyasi-diplomatik fəaliyyət üçün nə dərəcədə konstruktiv ola biləcəyi qaranlıqdır.

Onun başlıca səbəbi isə yuxarıda vurğuladığımız fərqli süni geosiyasi konfiqurasiyaların meydana gəlməsidir ki, bundan daha güclü dövlətlər öz şəxsi maraqları üçün faydalana bilərlər. Bu da amansız və güzəştsiz rəqabət dövrülüyünün başlaması deməkdir. Məhz "dövr" deyil, "dövrülük", yəni zaman-zaman ölkələrin "qapalı, ziddiyyətlərlə dolu çıxılmaz geosiyasi dairəyə düşməsi" prosesi meydana gələ bilər.

Deyək ki, Rusiya MDB və ya AİB faktorunu və ya başqa geoiqtisadi amili əsas götürərək üstünlük verdiyi "Böyük Xəzər" modelini qəbul etdirməyə çalışar. Eyni qayda ilə Çin, ABŞ, Aİ, İran, Türkiyə və digər böyük güclər oxşar hərəkət edərlər.

### Xəzər konsepti: aralıq modeldən meqaregiona

Beləliklə, Xəzərin geosiyasi konsepti məsələsi asan deyildir. Fərqli yanaşmaların fonunda daha uğurlu və səmərəli olanı müəyyən etmək lazım gəlir. Burada ümumi konseptual xətt müəyyən etmək mümkündürmü? Yəni yanaşma fərqindən asılı olmayaraq elə metodologiya mövcuddurmu ki, Xəzərin perspektivli geosiyasi konseptini hazırlamaq mümkün olsun?

Biz müasir tədqiqatçıların istifadə etdiyi yanaşmanın ümumi məntiqi və semantik xüsusiyyətlərini qəbul edə bilərik. Onun məzmunca ifadəsi aşağıdakı kimidir: Xəzərin regional coğrafi vahiddən (sistemdən, şəbəkədən) aralıq modelə ("mezoregion"a) və oradan da meqaregiona transformasiyası. Onda geosiyasi aspektdə Xəzər konseptinin formalaşması dinamikasını belə ümumiləşdirə bilərik: coğrafi region-mezoregion-meqaregion.

Ancaq bu mərhələdə də prinsipial xarakterli bir nəzəri vəzifə qarşıya çıxır. Onun mahiyyəti "ümumiyyətlə, Xəzər məsələsinə yuxarıdakı məntiqi tədqiqat mövqeyindən yanaşmaq elmidirmi?" sualına cavabla bağlıdır. Sualın meydana çıxmasının başlıca səbəbi Xəzərin coğrafi region anlamından özündə geosiyasi və geoiqtisadi faktorları ehtiva edən "yeni məkan olmağa" transformasiyasının mümkünlüyünün elmi əsaslandırılması ehtiyacından yaranır.

Məntiqidir ki, bu suala cavabda "bünövrə anlayış" rolunu Xəzərin coğrafi region kimi anlamı oynaya bilər. Onun üzərində geosiyasi, geoiqtisadi, geomədəni və s. xarakteristikası Xəzərin məzmununa daxil edilə bilər. Yəni burada praktiki aspektdə fəaliyyətdə mezoregion və ya meqaregion anlayışlarından coğrafi region anlayışına deyil, əksinə idraki keçid etmək lazımdır. Deməli, hər şeydən öncə, Xəzərin dəqiq və konkret coğrafi obrazı yaradılmalı, onun sərhədləri stabil müəyyən edilməlidir.

Bu baxımdan müxtəlif yanaşmalarda Xəzərin coğrafi məkan olaraq fərqli sərhədlərə malik olan region kimi göstərilməsi onların obyektivliyinə elmi şübhələr doğurur. Məsələn, Y.S.Smirnovaya görə, Mərkəzi Avrasiya ölkələri (Mərkəzi Asiya da ora daxildir) Super Avrasiyanın subregionudur. Bu o deməkdir ki, coğrafi olaraq da Mərkəzi Asiyanı Xəzəryanı regiona aid etməmək olar.

Bunu R.K.Sıroyejkinin Mərkəzi Asiyanı geosiyasi dəyərləndirməsi də təsdiq edir. O yazır ki, Mərkəzi Asiya heç zaman "vahid geosiyasi məkan kimi mövcud olmamışdır", o, "uzun müddət Asiya və Avropa ölkələri arasında qitədaxili dəhliz olmuşdur". Yəni bu yanaşmada Mərkəzi Asiyanı Xəzərin regional-coğrafi arealına daxil olan məkan kimi deyil, müxtəlif istiqamətlərdə ölkələrarası əlaqələrdə dəhliz olaraq istifadə olunan ərazi kimi qəbul etmək fikri irəli sürülür.

Əlbəttə, bu süni yanaşmadır və bütövlükdə Xəzəryanı regionun coğrafi, tarixi, iqtisadi və geosiyasi tamlığını pozur. Onu vurğulayaq ki, Avropa da uzun müddət Mərkəzi Asiyanı əhəmiyyətli region saymadı və indi etiraf edir ki, böyük səhv etmişdir. Buna görə də Avropa İttifaqının XXI əsrdə qəbul etdiyi xarici siyasət kursunda (əsas olaraq 2015-ci ildən sonra) Mərkəzi Asiya strateji əhəmiyyətli və Xəzəryanı məkana aid olan xüsusi region kimi qəbul edilmişdir.

"C5+1" və "C6+1" geosiyasi konfiqurasiyaları da bu həqiqəti etiraf etməklə sıx bağlıdır. Yəni yalnız Avropa deyil, ABŞ, Yaponiya, Cənubi Koreya, Rusiya, Çin və başqa böyük dövlətlər (hansılar ki, "C5+1" və "C6+1" platformalarına daxildirlər) də artıq Mərkəzi Asiyanı məhz Xəzəryanı məkanın regionu olaraq etiraf edirlər.

Vurğuladığımız məqamlardan məntiqi olaraq alınır ki, yuxarıda qaldırdığımız suala müsbət cavab vermək o halda mümkündür ki, Xəzərin konkret dəqiq stabil sərhədli coğrafi region anlamı mövcud olsun. Bu baza üzərində Xəzəryanı regionun həm mezoregion, həm də meqaregion kimi perspektivli geosiyasi obrazını yaratmaq mümkündür.

Bu istiqamətdə ən perspektivli yanaşma Azərbaycan Prezidenti İlham Əliyevə məxsusdur. Məsələ o qədər dərin və strateji əhəmiyyəti yüksək olandır ki, Azərbaycan liderinin Xəzərin geosiyasi konsepti üzərində ayrıca geniş dayanmaq lazımdır.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Dövlət və həmkarlar ittifaqları tandemi



*(əvvəli 3-cü səhifədə)*

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədovun çıxışında toxunduğu robotlaşma və süni intellekt məsələləri Qurultayın gündəliyinin nə qədər aktual və gələcəyə hesablanmış olduğunu sübut edirdi. Texnoloji inkişafın sənaye 4.0 inqilabının və rəqəmsallaşmanın əmək münasibətləri sistemini kökündən dəyişdirməsi faktı gündəlik həyatın reallığıdır. Əmək hüquqlarının müdafiəsinin cəmiyyətin diqqət mərkəzində olduğu tezisi sosial məsuliyyətin bölüşdürülməsi prinsipini ön plana çəkir. Robotlaşma nəticəsində insan əməyinin sıxışdırılması, alqoritmik idarəetmənin işçilər üzərində nəzarəti artırması fonunda ənənəvi həmkarlar ittifaqı metodları kollektiv müqavilələr, iş vaxtının tənzimlənməsi və əməkhaqqı danışıqları effektivliyini itirmək təhlükəsi ilə üzləşə bilər. Buna görə də yeni konseptual yanaşmalar rəqəmsal hüquqların qorunmasını, işçilərin texnoloji işsizlikdən sığortalanmasını və ömürboyu təhsil konsepsiyasının tətbiqini ehtiva etməlidir.

***

Qurultayın beynəlxalq legitimliyini və AHİK-in qlobal nüfuzunu təsdiq edən məqamlardan biri Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luk Triaqlın iştirakı və səsləndirdiyi fikirlərdir. Baş katibin Azərbaycanı beynəlxalq konfederasiyanın etibarlı üzvü kimi yüksək qiymətləndirməsi və əməyin mühafizəsi üzrə işçi hüquqları sahəsində görülən işləri təqdirəlayiq hesab etməsi ölkəmizin sosial sahədə apardığı islahatların beynəlxalq standartlara uyğunluğunun göstəricisidir. L.Triaqlın çıxışı konkret qlobal gündəliyi Bakı platformasına daşımaqla yadda qaldı. Onun Beynəlxalq Əmək Təşkilatının (BƏT) Bioloji Təhlükələrə dair Konvensiyasının qəbul edilməsi və sənəddə profilaktika, səhiyyə xidmətlərinə çıxış və kompensasiya ilə bağlı güclü müddəaların yer alması barədə məlumatı postpandemiya dövrünün aktual əmək təhlükəsizliyi məsələsinə toxunur. Konvensiyanın qüvvəyə minməsi üçün ən azı iki ölkənin ratifikasiyasının tələb olunması və Baş katibin Azərbaycanın bu ratifikasiyanı həyata keçirən ilk ölkələrdən biri olacağına ümid etməsi rəsmi Bakının qlobal sosial təşəbbüslərdə liderlik rolunu oynamaq potensialına olan inamı ifadə edir.

Sosial tərəfdaşlığın praktiki müstəvisi və gələcək fəaliyyət planı isə Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayevin çıxışında öz əksini tapdı. Nazirlər Kabineti, AHİK və ASK arasında 2026–2028-ci illəri əhatə edən Baş Kollektiv Saziş üzrə işlərin yekun mərhələdə olması ölkədəki sosial dialoqun fasiləsizliyini və institusional dayanıqlılığını nümayiş etdirir. Məmməd Musayevin qeyd etdiyi kimi, saziş sosial tərəfdaşlığın inkişafında əsas sənədlərdən biri hesab olunur və əmək münasibətlərinin tənzimlənməsində mühüm rol oynayır.

Qurultayda səsləndirilən fikirlərin, müzakirə olunan məsələlərin və qəbul ediləcək qərarların məcmusu göstərir ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası inkişafının yeni mərhələsinə qədəm qoyur. AHİK-in yeni nizamnamə layihəsinin müzakirəsi, təşkilatın daxili strukturunun müasir idarəetmə standartlarına uyğunlaşdırılması, şəffaflığın və hesabatlılığın artırılması istiqamətində atılan hüquqi addımdır. Qarşıdakı dövr üçün əsas fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi zamanı "yaşıl iqtisadiyyat", rəqəmsallaşma və postkonflikt dövrünün reallıqlarının nəzərə alınması həmkarlar ittifaqlarının prosesləri qabaqlayan və strateji təşəbbüslərlə çıxış edən quruma çevrilmək əzmində olduğunu sübut edir.

AHİK-in VIII qurultayı Azərbaycanın sosial modelinin təkamülünü əks etdirən güzgüdür. Əgər əvvəlki dövrlərdə əsas diqqət işsizliyin aradan qaldırılmasına və baza əmək hüquqlarının təmin olunmasına yönəlirdisə, indiki mərhələdə "ləyaqətli əmək" (decent work), inklüzivlik, texnoloji adaptasiya və ekoloji məsuliyyət ön plana çıxır. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi kurs iqtisadi inkişafın insan kapitalının inkişafı ilə vəhdət təşkil etməsini, iqtisadi artımın nəticələrinin cəmiyyətin bütün təbəqələri arasında ədalətli bölüşdürülməsini hədəfləyir. Həmkarlar ittifaqları məhz bu bölüşdürülmə mexanizminin ədalətli və şəffaf işləməsini təmin edən ictimai nəzarətçi funksiyasını yerinə yetirir.

Bakıda keçirilən mötəbər tədbir Azərbaycan cəmiyyətinin sosial yetkinliyini, dövlət təsisatları ilə vətəndaş cəmiyyəti arasındakı dialoqun konstruktivliyini və gələcəyə hesablanmış strateji baxışın mövcudluğunu nümayiş etdirir. Qəbul ediləcək qərarlar və 2026–2028-ci illər üçün Baş Kollektiv Saziş, növbəti illərdə ölkənin sosial mühitinin sabitliyini, əmək bazarının rəqabət qabiliyyətini və vətəndaşların rifahını təmin edəcək fundamental baza rolunu oynayacaqdır. Həmkarlar ittifaqları yeni dövrün çağırışlarına adekvat cavab vermək, işçilərin hüquqlarını rəqəmsal eranın və "yaşıl keçid"in tələblərinə uyğun qorumaq üçün öz sıralarını daha da sıxlaşdırmalı, intellektual potensialını səfərbər etməli və dövlətçilik maraqları ilə sosial ədalət prinsiplərini üzvi şəkildə birləşdirməyə davam etməlidir. Bu Qurultay modernləşmə və inkişaf kursunun dönməzliyini bəyan edən tarixi platforma kimi yaddaşlarda qalacaq.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Mərkəzi Asiya üçün Azərbaycanın sülh təcrübəsi

**Müasir beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizliyin qorunması məsələsi daha ciddi xarakter alır. Münaqişələrin sayı azalmaq əvəzinə artmaqda, beynəlxalq hüququn norma və prinsipləri isə bir çox hallarda pozulmaqdadır. Belə bir şəraitdə dövlətlərin beynəlxalq hüquqa münasibəti onların xarici siyasət kursunun əsas meyarlarından birinə çevrilir. Azərbaycan bu baxımdan ardıcıl və prinsipial yanaşma nümayiş etdirən ölkələrdən biridir.**




Azərbaycanın BMT yanında daimi nümayəndəsi Tofiq Musayevin qurumun Təhlükəsizlik Şurasında "Beynəlxalq sülh və təhlükəsizliyin qorunması" gündəliyi çərçivəsində səsləndirdiyi fikirlər məhz bu yanaşmanın ifadəsidir. Onun vurğuladığı kimi, BMT Nizamnaməsinin və beynəlxalq hüququn yanlış şərhlərinin qarşısının alınması, beynəlxalq öhdəliklərin qəbul edildiyi mahiyyət və məzmunda icra olunması qlobal sabitlik üçün əsas şərtlərdir. Diplomatın fikrincə, Azərbaycanın ağrılı təcrübəsi göstərir ki, beynəlxalq hüququn və BMT xartiyasının məqsəd və prinsipləri bərabər, ardıcıl, ayrı-seçkilik və ikili standartlar olmadan tətbiq edilməlidir. İlk növbədə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, onların daxili işlərinə müdaxilə etməmək beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün vacibdir. Səfir Azərbaycanın multikultural ideyalarının təşviqində fəal rol oynadığını xatırladaraq, ölkəmizin Qoşulmama Hərəkatında, Türk Dövlətləri Təşkilatında, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə və digər beynəlxalq platformalarda sədrliyini və fəal iştirakını nümunə kimi göstərib. Bildirilib ki, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzvlüyü də bu istiqamətdə imkanları daha da genişləndirəcək.

Bu kontekstdə Bakının Mərkəzi Asiyada sərhəd mübahisələrinin sülh yolu ilə həllini dəstəkləməsi xüsusi əhəmiyyət kəsb edir. Qırğızıstan, Tacikistan və Özbəkistan arasında bağlanmış sərhəd sazişləri dünyada münaqişələrin və gərginliklərin artdığı bir dövrdə mühüm siyasi hadisə kimi dəyərləndirilir. Çünki təhlükəsiz və aydın müəyyən edilmiş sərhədlər sabitliyin, sülhün və mehriban qonşuluq münasibətlərinin əsas təminatıdır. Bu baxımdan ərazi bütövlüyü və dövlət suverenliyi, güc tətbiq etməmək və mübahisələrin sülh yolu ilə həlli prinsipləri xüsusi aktuallıq daşıyır.

Məlum olduğu kimi, Mərkəzi Asiya ölkələri arasında sərhəd mübahisələri müstəqillikdən sonrakı dövrdə regionun üzləşdiyi mürəkkəb və həssas problemlərdən olub. SSRİ-nin dağılmasından sonra inzibati sərhədlərin dövlət sərhədlərinə çevrilməsi bir sıra hüquqi, etnik və coğrafi ziddiyyətləri üzə çıxardı. Xüsusilə Qırğızıstan, Tacikistan və Özbəkistan arasında sərhədlərin dəqiq delimitasiya və demarkasiya olunmaması lokal toqquşmalara, humanitar problemlərə və regional əməkdaşlığın zəifləməsinə səbəb oldu.



Son illər isə Mərkəzi Asiya ölkələri bu məsələdə daha praqmatik və məsuliyyətli yanaşma nümayiş etdirirlər. Qırğızıstan, Tacikistan və Özbəkistan arasında imzalanmış ikitərəfli və üçtərəfli sərhəd sazişləri regionda mühüm dönüş nöqtəsi hesab olunur. Bu razılaşmalar qarşılıqlı güzəştlər, dialoq və beynəlxalq hüquq normalarına əsaslanan danışıqlar yolu ilə əldə edilib. BMT və digər beynəlxalq institutların bu nailiyyətləri yüksək qiymətləndirməsi onu göstərir ki, Mərkəzi Asiyada sərhəd mübahisələrinin sülh yolu ilə həlli artıq real presedentə çevrilib.

Onu da qeyd edək ki, bu prosesdə Azərbaycanın mövqeyi və təcrübəsi xüsusi diqqət çəkir. Azərbaycan uzun illər ərazi bütövlüyünün pozulması və sərhəd problemləri ilə üzləşmiş, münaqişənin ağır nəticələrini və onun həllinin əhəmiyyətini dərindən yaşamış ölkədir. Məhz bu təcrübə Bakının beynəlxalq münasibətlərdə ərazi bütövlüyü, dövlət suverenliyi və sərhədlərin toxunulmazlığı prinsiplərinə prinsipial yanaşmasını formalaşdırıb. Azərbaycan bu mövqeyi Mərkəzi Asiya ilə bağlı məsələlərdə də ardıcıl şəkildə müdafiə edir və münaqişələrin dondurulmasının deyil, beynəlxalq hüquq çərçivəsində ədalətli və davamlı həllinin tərəfdarı olduğunu bildirir.

*(ardı 6-cı səhifədə)*

# FHN-in 20 illik yubiley təntənəsi







**Dekabrın 16-da Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı günü və nazirliyin yaranmasının 20-ci ildönümü ilə əlaqədar təntənəli mərasim keçirilib.**

Yubiley təntənəsinin iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üstünə tər çiçəklər düzülüb. Sonra Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzülüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyulub.

Mərasim iştirakçıları FHN-in Akademiyasında nazirliyin xüsusi texnikalarından ibarət sərgi ilə tanış olublar.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra FHN-in şəxsi heyətinin təntənəli keçidi olub.

Mərasim FHN Akademiyasının akt zalında davam etdirilib. Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov mərasimdə çıxış edib. Peşə bayramı və əlamətdar yubiley münasibətilə FHN-in şəxsi heyətini, bu illər boyu çiyin-çiyinə çalışmış hər kəsi ürəkdən təbrik edən nazir FHN-in əməkdaşlarına çətin, lakin şərəfli işlərində daim uğurlar arzulayıb.

Nazir bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti nəticəsində bu gün dünya birliyinin layiqli üzvünə, böyük nüfuza malik qüdrətli dövlətə çevrilib.





Kəmaləddin Heydərov ötən 20 il ərzində dövlətimizin başçısının diqqət və qayğısı sayəsində FHN-in ən müasir maddi-texniki imkanlara malik, istənilən fövqəladə hadisə ilə uğurla mübarizə aparmaq iqtidarında olan peşəkar dövlət orqanı kimi formalaşdığını vurğulayıb.

O bildirib ki, FHN yaradılarkən tabeliyinə verilən qurumların balansında olan xüsusi təyinatlı texnika və avadanlıqların əksər hissəsi fiziki və mənəvi köhnəlməyə məruz qalmışdı və müasir tələblərə cavab vermirdi. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində qısa zamanda nazirliyin texnika parkının müasirləşdirilməsi istiqamətində ciddi addımlar atıldı, büdcə vəsaitləri hesabına dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müxtəlif təyinatlı maşın və avadanlıqlar alınaraq istismara verildi. Ötən illər ərzində alınan tək xüsusi texnikaların sayı 1134, o cümlədən yanğınsöndürmə avtomobillərinin sayı 789-dur. Bundan əlavə, yüzlərlə digər texniki vasitələr alınaraq istismara verilib. Qısa müddətdə Bakıda və respublikanın bölgələrində 9 regional mərkəzin fəaliyyəti təmin edildi, qurumların istifadəsi üçün yararsız inzibati və texniki binalar, depolar əsaslı təmir olundu, yeniləri tikildi. Belə ki, yola salınan illər ərzində yalnız yanğından mühafizə üzrə 80 ədəd yeni depo binası tikilərək istifadəyə verilib.

Nazir vurğulayıb ki, xüsusi ixtisaslı ali təhsilli kadrların hazırlanması, əməkdaşların ixtisaslarının artırılması və fövqəladə hallar sahəsində elmi-tədqiqat işlərinin aparılması məqsədilə Azərbaycan Prezidentinin Sərəncamı ilə 2008-ci ildə yaradılan FHN-in Akademiyası ötən müddətdə bakalavriat pilləsi üzrə 1650, magistratura pilləsi üzrə 121 nəfər məzun yetişdirib: "Ümummilli lider Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır" müdrik kəlamını öz fəaliyyət prinsipi kimi qəbul edən FHN fövqəladə halların vaxtında xəbərdar edilməsi və maarifləndirməni zəruri fəaliyyət istiqamətləri sırasında müəyyən edib. Ötən illər ərzində orta hesabla hər il 70 minə yaxın obyektdə yanğın-texniki müayinə, 4 minə yaxın obyektdə tikintiyə dövlət nəzarəti, 3,3 mindən artıq obyektdə təhlükə potensiallı qurğu və avadanlıqlar üzrə texniki müayinə, 200-ə yaxın obyektdə nüvə və radioloji təhlükəsizlik üzrə nəzarət-yoxlama tədbirləri, 1700-dən artıq kiçikhəcmli gəmiyə texniki baxış keçirilib".

Görülən kompleks tədbirlər sayəsində ötən illər ərzində baş vermiş müxtəlif mürəkkəblik dərəcəsinə malik fövqəladə hadisələrlə mübarizədən uğurla çıxdığını deyən Kəmaləddin Heydərov yanğın-xilasetmə əməliyyatlarına dair statistikaya diqqət çəkib. Son 20 il ərzində ölkə iqtisadiyyatının üç dəfədən çox böyüdüyünü, çoxsaylı yeni istehsal müəssisələri və iş yerlərinin yaradıldığını, çoxşaxəli kommunikasiya sistemlərinin istifadəyə verildiyini, irimiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını, əhalinin sayının 2007-ci ildə təxminən 8 milyon yarımdan artaraq 2024-cü ildə 10 milyonu keçməsini nəzərə almaqla, 2007-ci ildə ölkə üzrə 4 min 517 təbii və texnogen mənşəli hadisə qeydə alındığını, 2024-cü il ərzində bu rəqəmin 14 min 856-ya bərabər olduğunu qeyd edir.

Bununla belə, hadisələrin sayında böyük artıma baxmayaraq, 2007-ci ildə göstərilən hadisələrdə 131 nəfər insan tələfatı qeydə alınmışdısa, 2024-cü ildə təbii və texnogen mənşəli hadisələrdə 83 nəfər həyatını itirib. Hadisələrin sayında bu qədər artım qarşısında insan itkisinin sayında azalma FHN-in çevik və effektli fəaliyyətinin mühüm göstəricisi olmaqla əldə edilən ən ciddi uğurlardan biri kimi dəyərləndirilməlidir. Bundan əlavə, nazirlik yaranandan 2024-cü il də daxil olmaqla, yanğın-xilasetmə qurumları tərəfindən yanğınlar, dağıntılar, qəzalar və digər fövqəladə hallar zamanı ümumilikdə 29 minə yaxın zərərçəkmiş, o cümlədən su hövzələrində batma təhlükəsində olan 5 min 700-ə yaxın şəxs xilas edilib.

Kəmaləddin Heydərov bir məsələni xüsusi vurğulayıb ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva daim təbii və texnogen hadisələr zamanı zərərçəkən insanların yanında olur, onların problemlərinin həllinə xüsusi həssaslıqla, diqqət və qayğı ilə yanaşır, operativ olaraq irimiqyaslı hadisələrin baş verdiyi bölgələrə səfərləri zamanı fəlakətin nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətin bütün resurslarını səfərbər edirlər. 2010-cu ilin yaz aylarında Aran bölgəsində Kür və Araz çaylarında yaranmış daşqınların vurduğu ziyanın, 2012-ci ilin may ayında Zaqatala, Balakən və Qax rayonlarında, 2019-cu ilin fevral ayında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən güclü zəlzələlərin nəticələrinin aradan qaldırılması ilə əlaqədar görülmüş tədbirlər ölkə rəhbərliyinin ağır məqamda daim xalqla bir yerdə olmasının, insanların dərd-sərinin, problemlərinin həllini həmişə diqqətdə saxlamasının bariz nümunələridir. Dövlətimizin başçısının xüsusi nəzarəti altında daşqın və zəlzələlərin ziyan vurduğu rayonlarda ən müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının, sosial təyinatlı və infrastruktur obyektlərinin tikintisi həyata keçirilib, əhali yeni, müasir evlərlə təmin edilib. Dövlətimizin başçısının imzaladığı sərəncamlara uyğun olaraq, Kür-Araz daşqınları ilə əlaqədar ümumilikdə 4 min 481 ev, 2012-ci ildə baş vermiş zəlzələ ilə əlaqədar 5 min 668 ev, 2019-cu il zəlzələsi ilə əlaqədar isə 695 ev və 3 ədəd çoxmənzilli bina tikilib, 2 min 247 ev isə bərpa olunaraq vətəndaşların istifadəsinə verilib. Bu istiqamətdə Heydər Əliyev Fondunun gördüyü böyük işlər də xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Nazir qeyd edib ki, FHN-in qüvvələri Vətən müharibəsi günlərində cəbhəboyu zonada yaşayan əhalinin təhlükəsiz məntəqələrdə yerləşdirilməsi və hər cür təminatının təşkili, döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin təyyarə və helikopterlərlə təxliyəsi, Ermənistanın mülki obyektlərə endirdiyi zərbələr nəticəsində yaranan yanğın və dağıntıların operativ aradan qaldırılması, zərərçəkmişlərin xilas edilməsi, onlara psixoloji yardımın təşkili kimi vəzifələri şərəflə yerinə yetirib. Bu gün isə nazirliyin yerli strukturları işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatını, aparılan irimiqyaslı bərpa-yenidənqurma işləri ilə bağlı tikinti, texniki, yanğın və nüvə təhlükəsizliyinə nəzarəti həyata keçirir, doğma Qarabağ və Şərqi Zəngəzurda fövqəladə hallarla uğurla mübarizə aparır.

FHN-in əməkdaşlarının fiziki sağlamlığına xüsusi diqqət göstərdiyini bildirən nazir deyib ki, ötən müddətdə müxtəlif idman növləri üzrə (taekvondo, karate, güləş, cüdo, boks, kikboksinq, ağırlıqqaldırma, stolüstü tennis, voleybol, minifutbol və s.) nazirliyin komandaları, əməkdaşları və idmançı üzvləri Olimpiya Oyunları, İslam Həmrəyliyi Oyunları, MDB Oyunları, Dünya və Avropa çempionatları, beynəlxalq turnir və respublika yarışlarında uğurla çıxış edərək 256 qızıl, 318 gümüş və 532 bürünc medal qazanıblar.

Çıxışının sonunda peşə bayramı münasibətilə şəxsi heyəti bir daha təbrik edən nazir Kəmaləddin Heydərov FHN-in fəaliyyətinə hər zaman verdiyi yüksək qiymətə, göstərdiyi ali diqqət və qayğıya görə nazirliyin şəxsi heyəti adından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkürünü bildirib və əminliyini ifadə edib ki, ölkə əhalisinin və ərazilərinin təhlükəsizliyinin təmin edilməsi, maddi və mədəni sərvətlərin qorunması, vətəndaşlarımızın firavan həyat və fəaliyyətinin təmin olunması kimi şərəfli vəzifənin yerinə yetirilməsi üçün nazirlik əməkdaşları bundan sonra da bütün qüvvə və bacarıqlarını səfərbər edəcəklər.

Sonra çıxış edən qonaqlar – Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Ərgüc Kələntərli, Qırğız Respublikasının fövqəladə nallar naziri Boobek Ajikeev və Rusiya fövqəladə hallar nazirinin müavini Roman Kurının FHN kollektivini yubiley münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıblar. Qeyd olunub ki, Azərbaycan FHN-in ötən 20 il ərzində böyük inkişaf yolu keçməsi, əldə etdiyi uğurlar, o cümlədən beynəlxalq humanitar əməliyyatlarda peşəkar fəaliyyəti təqdirəlayiqdir.

Məclisin davamında "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında" və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları oxunub.

Xidmətdə fərqlənən əməkdaşların həvəsləndirilməsi tədbirləri haqqında fövqəladə hallar nazirinin əmri barədə məlumat verilib, bir qrup əməkdaşa təltiflər təqdim edilib.

Qazi Süleyman Heydərov FHN işçilərinin çətin və şərəfli peşə fəaliyyətinin əhəmiyyətindən danışıb, göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirib.

Sonda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub.

Təntənəli mərasimə bədii hissə ilə yekun vurulub.

***XQ***

# Mərkəzi Asiya üçün Azərbaycanın sülh təcrübəsi

*(əvvəli 5-ci səhifədə)*

Rəsmi Bakı hesab edir ki, dəqiq müəyyən edilmiş və qarşılıqlı tanınmış sərhədlər regional təhlükəsizliyin əsas şərtidir. Münaqişələrin uzun müddət həll olunmaması isə regionun inkişafını ləngidir, iqtisadi və humanitar əlaqələrə ciddi zərbə vurur. Bu baxımdan Mərkəzi Asiya ölkələri arasında sərhəd məsələlərinin uzadılmadan, dialoq və siyasi iradə yolu ilə həllinə dəstək verilir. Azərbaycan beynəlxalq platformalarda Mərkəzi Asiyada əldə olunan sərhəd razılaşmalarını alqışlayır və bu addımları qlobal gərginlik fonunda müsbət nümunə kimi təqdim edir.

Eyni zamanda, Azərbaycanın təcrübəsi göstərir ki, sülh təkcə siyasi razılaşma ilə məhdudlaşmamalıdır. Münaqişədən sonrakı dövrdə etimadın bərpası, kommunikasiya xətlərinin açılması və iqtisadi əməkdaşlığın genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma Mərkəzi Asiya üçün də aktualdır. Sərhəd razılaşmaları region ölkələri arasında ticarət, nəqliyyat və humanitar əlaqələrin inkişafı üçün yeni imkanlar yaradır və mübahisələrin yenidən alovlanması riskini azaldır. Bu mövqeyi səfir bir daha beynəlxalq tribunadan səsləndirib.

Şübhəsiz ki, siyasi əməkdaşlıq iqtisadi münasibətlərin inkişafı üçün möhkəm zəmin yaradır. Mərkəzi Asiya ölkələri arasında siyasi-iqtisadi əlaqələr genişlənir, Azərbaycan isə bu ölkələr üçün Avropa və Qafqaz istiqamətində açılan mühüm iqtisadi və nəqliyyat qapısı rolunu oynayır. Enerji sahəsində əməkdaşlıq bu münasibətlərin əsas sütunlarından biridir. Xəzər regionunda enerji resurslarının təhlükəsiz və şaxələndirilmiş marşrutlarla nəqli, bərpaolunan enerji üzrə təcrübə mübadiləsi və enerji təhlükəsizliyi məsələləri qarşılıqlı maraqlar əsasında inkişaf etdirilir ki, bu da həm iqtisadi, həm də geostrateji baxımdan mühüm əhəmiyyət daşıyır. Səfirin çıxışında da bu yanaşma özünü aydın göstərir.

Beləliklə, Mərkəzi Asiya ölkələri arasında sərhəd mübahisələrinin həlli region üçün tarixi əhəmiyyət kəsb edir. Azərbaycanın təcrübəsi göstərir ki, bu cür problemlərin həlli üçün əsas şərtlər siyasi iradə, beynəlxalq hüquqa sadiqlik və uzunmüddətli perspektivi nəzərə alan yanaşmadır. Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında formalaşan münasibətlər siyasi dialoq, iqtisadi əməkdaşlıq, nəqliyyat-logistika imkanları, humanitar əlaqələr və təhlükəsizlik məsələlərini əhatə edən kompleks tərəfdaşlıq modelidir. Mərkəzi Asiyada sərhəd mübahisələrinin sülh yolu ilə həlli bu modelin dayanıqlılığını daha da gücləndirir. Bəli, Azərbaycanın mövqeyi aydın və prinsipialdır: regionda sabitlik, beynəlxalq hüquqa hörmət və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq alternativsizdir və bu yanaşma həm Mərkəzi Asiya, həm də Cənubi Qafqaz üçün daha təhlükəsiz və inkişafyönümlü gələcəyin əsasını qoyur. Bu, Azərbaycan regionda və dünyada sülh gündəliyinin daha da təşviq edilməsi, çoxtərəfli sistemin daha effektiv olması üçün səylərini davam etdirmək əzmini bir daha təsdiqləyir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

### *Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**politoloq**

Mərkəzi Asiya ölkələri arasında son illər müşahidə olunan siyasi və iqtisadi yaxınlaşma regional inteqrasiyanın dərinləşdiyini göstərir. Bu prosesdə Azərbaycan yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının mühüm geosiyasi və geoiqtisadi aktorlarından biri kimi çıxış edir. Xüsusilə Avropa və Qafqaz istiqamətində açılan etibarlı nəqliyyat və enerji qapısı rolunu oynaması Azərbaycanın Mərkəzi Asiya dövlətləri üçün də strateji əhəmiyyətini artırır.

İlk növbədə, Azərbaycanın əlverişli coğrafi mövqeyi Mərkəzi Asiya ilə Avropa bazarları arasında körpü funksiyasını yerinə yetirməsinə imkan verir. Qazaxıstan, Türkmənistan və Özbəkistan kimi ölkələr üçün Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri – Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və Bakı–Tbilisi–Qars dəmir yolu malların dünya bazarlarına daha sürətli və təhlükəsiz çıxarılmasını təmin edir. Bu isə Mərkəzi Asiya ölkələrinin ixrac imkanlarını genişləndirir, onların ənənəvi marşrutlardan asılılığını azaldır və iqtisadi suverenliyini gücləndirir. Bu əlaqələrin əsas sütunlarından biri enerji sahəsində əməkdaşlıqdır. Azərbaycan bu baxımdan etibarlı tranzit ölkə və enerji tərəfdaşı kimi tanınır. Bununla yanaşı, bərpaolunan enerji sahəsində əməkdaşlıq da getdikcə ön plana çıxır. Qlobal enerji keçidi və iqlim dəyişikliyi ilə mübarizə şəraitində Azərbaycan və Mərkəzi Asiya ölkələri yaşıl enerji potensialından birgə istifadə imkanlarını araşdırırlar.

Geostrateji baxımdan isə Azərbaycan–Mərkəzi Asiya əməkdaşlığı regional sabitliyə və təhlükəsizliyə töhfə verir.

Nəticə etibarilə, Mərkəzi Asiya ölkələri arasında genişlənən siyasi-iqtisadi əlaqələrdə Azərbaycanın rolu çoxşaxəli və strateji xarakter daşıyır. Azərbaycan yalnız tranzit ölkə deyil, eyni zamanda, Mərkəzi Asiya ilə Avropa arasında dayanıqlı tərəfdaşlıq modelinin formalaşmasında aparıcı aktordur.

# Nəqliyyat sistemində də “Bir pəncərə” yaradılacaq



**Ölkədə idxal-ixrac, tranzit, nəqliyyat və logistika sahəsində fəaliyyətin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər görülür. Prezident İlham Əliyevin 15 dekabr 2025-ci il tarixli fərmanına əsasən, xarici ticarətin tənzimlənməsi sahəsində dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətinin səmərəli əlaqələndirilməsi, o cümlədən idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə vahid giriş imkanı əsasında tam rəqəmsal mühitin yaradılması və yük axınlarının “ağıllı” idarə edilməsi sisteminin tətbiqi məqsədilə “Bir pəncərə” informasiya sisteminin yaradılması qərara alınıb.**

Fərmana əsasən, xarici ticarət fəaliyyətinin həyata keçirilməsi ilə bağlı tələb olunan sənədlərin, o cümlədən kommersiya və nəqliyyat sənədlərinin təqdim edilməsi, nəqliyyat vasitələrinə və daşınan mallara dair sənədlərin və məlumatların elektron qaydada tərtib edilməsi, sərhədkeçmə prosedurları, daşıma qaydaları və şərtləri ilə bağlı məlumat verilməsi, istifadəçilərin müraciətlərinin qəbulu və cavablandırılması sistem vasitəsilə təmin ediləcək.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu sistemin fəaliyyətinin təşkili və inkişafı üçün tədbirlər görəcək, onun “Hökumət buludu” konsepsiyasına uyğun yerləşdirilməsini və dövlət reyestrlərinə daxil edilməsini təmin edəcək. Sistem vasitəsilə aparılan əməliyyatlara dair aylıq hesabatlar isə aidiyyəti qurumlara təqdim ediləcək.

### Ekspert rəyi



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

**Rəqəmsal Logistika Platforması Azərbaycanın investisiya mühitinin daha da yaxşılaşdırılmasına, xarici ticarət əlaqələrinin genişləndirilməsinə və eyni zamanda, yeni sərmayələrin cəlb olunmasına mühüm töhfə verəcək.**

Xüsusilə nəzərə alsaq ki, bu platforma logistika proseslərinin elektronlaşmasına, rəqəmsal həllərdən və hüquqi mexanizmlərdən daha geniş istifadə imkanlarına şərait yaradır, eyni zamanda, Azərbaycanın üzərindən keçən beynəlxalq yükdaşımaların həcminə və səmərəliliyinə də müsbət təsir göstərəcək.

Bu təşəbbüs ölkədə iqtisadi əlaqələrin dərinləşdirilməsi ilə bağlı cənab Prezident tərəfindən müəyyən edilmiş strateji xəttə tam uyğun olaraq həyata keçirilən fəaliyyətlərdən biridir.

Təbii ki, yeni dövrün prioritetləri çərçivəsində xarici investisiyaların daha çox cəlb edilməsi əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Xüsusilə qeyri-neft sektoruna yönələn sərmayələrin artırılması, bu sahədə işlərin sürətləndirilməsi və rəqəmsal həllərin prioritet olaraq tətbiqi hər zaman aktuallığını qoruyur. Son islahatlar bir daha təsdiq edir ki, Azərbaycan artıq növbəti iqtisadi inkişaf mərhələsinə qədəm qoyur və bu mərhələdə elektron xidmətlərdən daha geniş istifadə əsas xətt kimi ön plana çıxır. Bu yanaşma qeyri-neft sektorunun inkişafı baxımından, eləcə də iqtisadiyyatın diversifikasiyasının genişləndirilməsi kontekstində xüsusi əhəmiyyət daşıyır.

Ümumilikdə isə, rəqəmsal logistika həlləri Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin daha da dərinləşməsinə və tətbiq imkanlarının genişlənməsinə real zəmin yaradır.

### “Bir pəncərə” informasiya sistemi nədir?

Yaradılması nəzərdə tutulan yeni sistem dövlət qurumları ilə biznes subyektləri arasında əlaqələrin vahid platforma üzərindən qurulmasına şərait yaradır ki, bu da idarəetmədə çevikliyin və şəffaflığın artırılması baxımından mühüm əhəmiyyət daşıyır. “Bir pəncərə” mexanizmi idxal-ixrac və tranzit əməliyyatları zamanı tələb olunan sənədlərin elektron formada, vahid məkandan təqdim edilməsini mümkün etməklə vaxt itkisini və inzibati yükü əhəmiyyətli dərəcədə azaltmış olur. Müxtəlif dövlət qurumlarına ayrı-ayrılıqda müraciət ehtiyacının aradan qalxması isə sahibkarlar üçün prosedurların sadələşdirilməsinə, qərarların qəbulunun sürətlənməsinə və əməliyyat xərclərinin minimuma endirilməsinə xidmət edir.

Azərbaycanda Rəqəmsal Logistika Platformasının "Ticarət bələdçisi" modulu artıq istifadəyə hazırdır. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "X" sosial şəbəkəsi hesabında bildirib ki, Prezident İlham Əliyevin idxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər barədə imzaladığı fərman rəqəmsal iqtisadiyyatın inkişafına, xarici ticarət əməliyyatlarının sürətləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, Azərbaycanın beynəlxalq logistika zəncirlərində mövqeyinin möhkəmləndirilməsinə xidmət edən fundamental strateji sənəddir.

Onun sözlərinə görə, fərmandan irəli gələn tapşırıqların icrasına artıq başlanılıb: "Bu çərçivədə Rəqəmsal Logistika Platforması (DLP – Digital Logistics Platform) yaradılmaqdadır. Platformanın "Ticarət bələdçisi" modulu istifadəyə hazırdır, digər modulların isə mərhələli şəkildə 2026-cı ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulur. Cənab Prezidentə sahəyə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığımızı bildiririk".

Qeyd edək ki, Rəqəmsal Logistika Platforması ticarət, logistika və gömrük proseslərinin Vahid Pəncərədən idarə olunmasını təmin edir. Bu, idxal, ixrac və tranzit əməliyyatları üzrə sənədləşməni vahid rəqəmsal sistemdə toplayan platformadır. Sənədləşmə proseslərini sürətləndirir, şəffaflığı artırır və əməliyyat xərclərini azaldır. Platforma yük sahibləri və nəqliyyat şirkətləri arasında etibarlı əməkdaşlığı təmin edən rəqəmsal həll təqdim edir. Məqsəd yükdaşıma proseslərini sürətləndirmək, şəffaflığı artırmaq və logistik əməliyyatı daha səmərəli təşkil etməkdir.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi



**Aqil ƏSƏDOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru**

**Prezident İlham Əliyevin imzaladığı “İdxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanın əsas məqsədi ölkəmizdə xarici ticarətin tənzimlənməsi sahəsində dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsi, dövlət qurumlarının fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi, o cümlədən idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə vahid giriş imkanı əsasında rəqəmsal mühitin yaradılması, eləcə də yük axınlarının “ağıllı” idarə edilməsi sisteminin formalaşdırılmasıdır. Fərmanla Azərbaycanda “Bir pəncərə” informasiya sistemi yaradılacaqdır.**

Bu, Azərbaycanın əlverişli coğrafi mövqeyi ilə uzlaşan, bu mövqeyi daha da möhkəmləndirən zamanında qəbul edilmiş siyasi qərarlar ölkəmizi Avrasiya məkanında aparıcı nəqliyyat-tranzit qovşağına çevirir. Beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan uzunmüddətli və zəngin nəqliyyat-tranzit potensialına malikdir. Bu gün Azərbaycan, dünyanın yük axınlarında daha çox paya sahib olmaq üçün geniş imkanlara malikdir. Xüsusilə, Orta dəhliz Çin-Avropa arasında baş verən, illik 700 milyard dollardan da çox olan, yük dövriyyəsində cəlbedici marşrutlardan biridir.

Bununla belə, regionda Çin – Mərkəzi Asiya – Qərbi Asiya (əksər mənbələrdə İran – Mərkəzi Asiya dəhlizi kimi qeyd edilir), Hindistan – Yaxın Şərq – Avropa, Çin-Pakistan dəhlizi, Trans-Əfqanıstan dəmir yolu layihəsi və s. çoxsaylı nəqliyyat layihələrinin reallaşdırıldığı bir dönəmdə, Orta Dəhlizin cəlbediciliyinin qorunması və artırılması, Azərbaycanın nəqliyyat-tranzit imkanlarının çevik və əlverişli şəkildə reallaşdırılması əsas çağırışlar kimi diqqəti cəlb edir.

Bir daha qeyd edim ki, fərman müasir dövrün çağırışlarından irəli gələn bir zərurətdir. Müasir dünyada rəqabət mübarizəsinin əsas istiqamətlərindən biri əlverişli nəqliyyat-kommunikasiya çıxışlarına sahib olmaqdır və bu mübarizədə üstünlük qazanmağın başlıca şərtlərindən biri mövcud imkanların daha çevik və səmərəli şəkildə reallaşdırılması, eləcə də yeni texnika və texnologiyaların intensiv tətbiqidir.

Rəqəmsallaşma süni intellektin müxtəlif iqtisadi proseslərə yaxından nüfuz etməsi idxal-ixrac, nəqliyyat-logistika proseslərinin də çevikləşdirilməsini, bu sahəyə dair proseslərin “Bir pəncərə”dən idarə olunmasını zəruri edir. Bu iqtisadi proseslər üçün tələb olunan sənədlərin, o cümlədən kommersiya və nəqliyyat sənədlərinin, nəqliyyat vasitələrinə və daşınan mallara dair sənədlərin və məlumatların, yükdaşıma və digər müqavilələrin elektron qaydada, “Bir pəncərə” sistemi vasitəsilə, təqdim edilməsi, sərhədkeçmə prosedurları, daşıma qaydaları və şərtləri ilə bağlı məlumatların sistem üzərindən elektron şəkildə izlənməsi, eləcə də istifadəçilərin elektron müraciətlərinin qəbulu və cavablandırılması, bütün hərəkət marşrutu boyunca daşınan yüklərin izlənilmə imkanının yaradılması, elektron ödənişə şərait yaradılması və beləliklə də idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə vahid giriş imkanı əsasında tam rəqəmsal mühitin yaradılması ilə yük axınlarının “ağıllı” idarə edilməsi sisteminin tətbiqi Azərbaycanın qoşulduğu nəqliyyat dəhlizlərini daha cəlbedici edəcəkdir.

Fərmanın icrası nəqliyyat-tranzit proseslərinin çevik və şəffaf təşkilinə dəstək verməklə, idxal-ixrac proseslərinin intensivləşməsinə, tranzit daşınmaların həcminin artmasına və beləliklə də uzun illər öncədən formalaşdırılmağa başlayan infrastruktur təminatdan daha səmərəli istifadəyə imkan verəcəkdir.

Yaxın gələcəkdə Zəngəzur dəhlizinin istifadəyə verilməsi yeni və daha zəngin nəqliyyat-tranzit imkanları yaradacaqdır ki, adıçəkilən fərmanın icrası həm də bu imkanların əlverişli şəkildə reallaşdırılmasına dəstək verəcəkdir. Beləliklə, dövlət başçısının bu fərmanı zamanında qəbul edilmiş qərar olaraq, yerli sahibkarların xarici bazarlara çıxışını daha da asanlaşdıracaq, sərhəd-buraxılış proseslərini sadələşdirərək nəqliyyat-tranzit xidmətlərini büdcənin əsas gəlir mənbələrindən birinə çevirəcəkdir.

# Velosipedçi moped sürə bilərmi?

## *Bunun mümkünlüyünü həyat inkar edir*



**Mopedlər şəhəriçi nəqliyyatda çevik və iqtisadi üstünlükləri ilə seçilsə də, onların intensiv istifadəsi təhlükəsizlik risklərini artırdığı üçün normativ nəzarət mexanizmlərinin təkmilləşdirilməsi zərurətə çevrilib. Son illərdə bu nəqliyyat vasitələrinin sayındakı artım və onların yol hərəkəti prosesində daha aktiv iştirakı mövcud qanunvericiliyin yenilənməsi ehtiyacını gündəmə gətirmişdi. Məhz bu səbəbdən dekabrın 9-da Milli Məclisdə “Yol hərəkəti haqqında” Qanuna mühüm dəyişikliklər qəbul edildi.**

Sözügedən qanunda deyilir ki, mopedlər mühərrik həcmi 50 $sm^3$-dən çox olmayan, maksimum sürəti 50 km/s-dən yüksək olmayan iki və ya üçtəkərli mexaniki nəqliyyat vasitələridir. Əvvəlki hüquqi çərçivədə 16 yaşına çatmış şəxslərin moped idarə etməsi mümkün olsa da, bunun üçün ayrıca sürücülük vəsiqəsi tələb edilmirdi. Moped sürücüləri motosiklet sürücüləri üçün tətbiq olunan yolun sağ kənarında hərəkət etmək, yol nişanlarına riayət etmək və motoşlem geyinmək kimi əsas davranış qaydalarına əməl etməli idilər. Texniki baxış məsələsində də mopedi ayrıca kateqoriya kimi tənzimləyən mexanizm yox idi. Yəni 50 $sm^3$ motosikletlər üçün nəzərdə tutulan dövri baxış tələbi mopedlərə tətbiq olunmur, yalnız zəruri hallarda onların texniki vəziyyəti yoxlanılırdı. Dövlət qeydiyyatına dair ayrıca prosedur mövcud olmadığından, mopedlərin markalanması və nömrə nişanı ilə təmin edilməsinə ehtiyac duyulmurdu.

Parlamentin son plenar iclasında qəbul olunan dəyişikliklər mopedlərin hüquqi statusunu tam şəkildə müəyyənləşdirən və onları müstəqil nəqliyyat vasitəsi kimi normativ çərçivəyə daxil edən mühüm yeniləşmələr paketidir. Yeni qaydaların ən əsas istiqamətlərindən biri moped idarə edən şəxslərin “A1” alt kateqoriyalı sürücülük vəsiqəsi əldə etməsi tələbidir. Bu kateqoriya <125 $sm^3$ mühərrik həcminə malik motosikletlər üçün nəzərdə tutulduğundan, moped sürücülərinin də eyni səviyyədə minimal bilik və bacarığa malik olmaları məqsəd qoyulur. Bununla mopedlərin idarə olunması müvafiq icazə əsasında həyata keçiriləcək və onların istifadəsi digər mexaniki nəqliyyat vasitələri üçün tətbiq olunan əsas qaydalarla uyğunlaşdırılacaq.

Dövlət qeydiyyatı ilə bağlı yeniliklər mopedlərin real nəqliyyat vasitəsi kimi uçot sisteminə daxil edilməsinə xidmət edir. Artıq mopedlər texniki pasport və dövlət nömrə nişanına malik olacaq, beləliklə, onların identifikasiyası, nəzarəti və məsuliyyət bölgüsü daha şəffaf və tənzimlənmiş formaya keçəcək. Bu addım həm də hüquq-mühafizə orqanlarının monitorinq imkanlarını genişləndirəcək.

Texniki və təhlükəsizlik tələbləri də mühüm dərəcədə dəqiqləşdirilib. Qanuna əlavə edilən maddələrə əsasən, mopedin uzunluğu və eni üzrə qabaritlərindən 0,5 metrdən artıq kənara çıxan və ya idarəetməyə mane olan yükün daşınması qəti şəkildə qadağan olunur. Sözügedən dəyişiklik yüklənmənin sabitliyini və yol hərəkəti təhlükəsizliyini artırmağa yönəlib. Həmçinin moped sürücüləri yol nişanlarına tam riayət etməli, yolun sağ kənar zolağında tək sütunla hərəkət etməlidirlər. Yeni normativ baza moped sürücülərindən motosikletçilər üçün nəzərdə tutulan digər davranış tələblərinə – məsələn, yaxınlıq işıqlarından istifadə və tətbiq olunan ümumi yol hərəkəti qaydalarına – eyni səviyyədə riayət olunmasını tələb edir.

Dəbilqə məsələsində də hüquqi terminologiya dəqiqləşdirilib. Qanunun 37-ci maddəsində “motoşlem” ifadəsinin “motodəbilqə” ilə əvəz olunması daha təhlükəsiz, sertifikatlaşdırılmış baş mühafizəsinin məcburi tətbiqini təmin edir. Bu tələb həm sürücülərə, həm də sərnişinlərə şamil olunur. Motodəbilqə taxmadan və ya onu düymələmədən motosikleti və mopedi idarə etməyə, yaxud motodəbilqəsi olmayan və ya onu düymələməyən sərnişinləri motosikletdə və mopeddə daşımağa görə sürücülər 40 manat məbləğində cərimələnəcəklər. Statistik göstəricilər sübut edir ki, dəbilqənin düzgün şəkildə taxılması baş travması riskini təxminən 60-70 faiz aşağı salır. Əksinə, dəbilqənin bağlanmaması onun qoruyucu funksiyasını tamamilə aradan qaldırır və qəza zamanı sürücünü, faktiki olaraq, müdafiəsiz vəziyyətdə buraxır. Məhz bu səbəbdən qanuna daxil edilən yeni tələbin konkret mexanizm kimi təsbit olunması yol təhlükəsizliyinin artırılması istiqamətində ən əhəmiyyətli addımlardan biri kimi qiymətləndirilir.

Məsələ ilə bağlı XQ-nin sorğusuna cavab olaraq Baş Dövlət Yol Polis İdarəsindən (BDYPİ) bildirilib ki, mopedlərin istismarı üzrə yeni cərimə tədbirlərinin tətbiqi və bu nəqliyyat vasitələrini idarə etmək üçün nəzərdə tutulan “A1” alt kateqoriyası üzrə sürücülük imtahanlarının keçirilməsi mexanizmləri hazırda normativ-hüquqi sənədlər çərçivəsində dəqiqləşdirilir. İdarədən verilən məlumata əsasən, həm cərimə prosedurlarının, həm də “A1” alt kateqoriyası üzrə nəzəri və praktiki imtahanların təşkili, keçirilmə prosesi, qiymətləndirmə meyarları və inzibati tələblər barədə müvafiq dövlət qurumları arasında zəruri koordinasiya aparılır. BDYPİ vurğulayıb ki, imtahanların tətbiqi müddəti, qeydiyyat qaydaları, imtahan mərkəzlərinin fəaliyyət prinsipləri və moped sürücülüyünə dair yeni tənzimləmələrin tam icrası barədə geniş məlumat qısa müddətdə ictimaiyyətə rəsmi açıqlama şəklində təqdim olunacaq.



**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı** XQ-yə açıqlamasında bildirib ki, yeni qanunun tətbiqində hər hansı bir çətinlik gözlənilmir: “Qanunvericilik çox aydındır. Bu nəqliyyat vasitələri artıq sürücülük vəsiqəsi ilə idarə olunmalıdır və qeydiyyata düşməlidir. Söhbət “A1” alt kateqoriyasından gedir. Bu addım ona görə atıldı ki, son illər mopedlərlə bağlı kobud qayda pozuntularının sayı kəskin artmışdı”. Onun sözlərinə görə, dəyişikliklər cəmiyyət tərəfindən də ciddi dəstək alıb: “Şəhər ərazilərində yaşayan insanların çoxu bu nəqliyyat vasitələrinin yaratdığı səs-küy, təhlükəli manevrlər və piyadalar üçün risklərdən narazılıq edirlər. Müzakirələr zamanı cəmiyyətin böyük hissəsi buna ehtiyac olduğunu dedi. Açığını deyim, bəzi moped sürücüləri bu qanunu öz davranışları ilə zərurətə çevirdilər”.

Ekspert qeyd edib ki, yeni qaydaların tətbiqi ilk dövrlərdə müəyyən çətinliklər yarada bilər, amma bu risk daşımır. Onun sözlərinə görə, oxşar vəziyyət vaxtilə mobil telefonla bağlı da yaşanmışdı: “Mobil telefonla nəqliyyat vasitəsinin idarə edilməsinə qadağa qoyulanadək mobil telefonla danışaraq sürücülük etmək inzibati məsuliyyət yaratmırdı. Lakin sonrakı illərdə məhz telefonla danışma səbəbindən baş verən qəzaların sayı kəskin artdı. Bu da qanunvericiliyə dəyişiklik edilməsini zəruri etdi və nəticədə mobil telefonla danışaraq avtomobil idarə etmək qadağan olundu, cərimə tətbiq edildi. Bu gün skuter və digər mikromobillik vasitələrində də oxşar təhlükələr artır. Gələcəkdə bu nəqliyyat növləri haqqında da ciddi tədbirlərin görüləcəyi aydındır. Bir çox ölkələrdə artıq onların istifadəsinə məhdudiyyət və ya qadağa tətbiq olunub”.

Ekspert yük daşımalarının da yeni qaydalara uyğunlaşdırılmasının səbəbini izah edib: “Kiçik qabaritli nəqliyyat vasitələrində ağır və genişhəcmli yükün daşınması sürücünün müvazinətini pozur, nəqliyyat vasitəsinin idarəetmədən çıxmasına və piyadalar üçün təhlükə yaranmasına səbəb olur. Məhz buna görə yarım metrdən kənara çıxma məhdudiyyəti tətbiq edilir. Bu yanaşma beynəlxalq standartlara tam uyğundur. Ümumiyyətlə, heç bir qanun əsassız şəkildə qəbul edilmir, hər birinin arxasında real zərurət dayanır”.

Elektriklə işləyən skuterlərin və digər mikromobillik vasitələrinin statusu barədə danışan Elməddin Muradlı bildirib ki, hüquqi boşluq ehtimalı çox azdır: “Sürücü olmaq istəyən şəxs sərbəst şəkildə hazırlaşıb “A”, “A1”, “B” və “B1” kateqoriyalarını heç bir kurs keçmədən əldə edə bilər. Sadəcə nəzəri biliklə yanaşı, praktiki bacarıqların formalaşması vacibdir. Təəssüf ki, bəzi insanlar moped və skuter kimi nəqliyyat vasitələrini oyuncaq hesab edirlər”. Ekspert xüsusilə valideynləri bu barədə diqqətli olmağa çağırıb: “Bir çox hallarda valideynlər övladlarına skuter və ya moped alırlar, lakin onların bu vasitəni idarə etmə bacarığı barədə heç bir məlumatı olmur. Bəzi valideynlər düşünür ki, velosiped sürməyi bacaran rahatlıqla moped də idarə edə bilər. Bu çox ciddi məsuliyyətdir. Beynəlxalq təcrübədə bunun ağır nəticələri olub. Türkiyədə bir ana övladına moped hədiyyə etmişdi, uşaq həmin nəqliyyat vasitəsi ilə qəza törətdi və həyatını itirdi. Belə faciələrin yaşanmaması üçün hər kəs məsuliyyətli davranmalıdır”.

Nəticə etibarilə, moped və digər mikromobillik vasitələri haqqında illərdir formalaşmış yanlış təsəvvürlər yeni hüquqi çərçivə ilə birdəfəlik aradan qalxır. Qaydaların sərtləşdirilməsi həm sürücülərin məsuliyyət dərəcəsini yüksəldir, həm də bu nəqliyyat növlərini real yol iştirakçısı kimi qəbul etməyin zəruriliyini önə çıxarır. Mopedlərin qeydiyyata alınması, “A1” kateqoriyası üzrə icazə tələbi, yüklənmə məhdudiyyətləri və təhlükəsizlik normalarının dəqiqləşdirilməsi şəhər mühitində daha sabit, daha təhlükəsiz və daha intizamlı yol hərəkəti sisteminin qurulmasına xidmət edir.

***Tacir SADIQOV***
***XQ***

# Vətən savaşının bədii və hüquqi tərənnümü

**Xalq şairi, yurdsevər publisist, istiqlal mübarizi Sabir Rüstəmxanlının 2020-ci ilin noyabr ayında dərc olunmuş "Qarabağa dönüş" poeması ilk oxunuşdan dillər əzbəri oldu. Həmin dövrdə coşub-daşan Qələbə təntənəsinin, Zəfər duyğularının təsiri altında bu şanlı mənzuməni yaşanan öyünc və sevincin ifadəsi poetik dastanı kimi qiymətləndirmişdim.**




Digər vətənpərvər ziyalımız, tanınmış hüquqşünas, fəlsəfə doktoru, yetkin qələm sahibi Vafəddin İbayevin bu yaxınlarda nəşr olunmuş "Suverenliyin zəfər yolu" kitabını oxuyanda yenidən 5 il əvvəlin Zəfər təntənələrinin bəxş etdiyi ovqatı yaşadım. Sabir müəllimin şeiriyyətində əksini tapmış ideya-məzmunu Vafəddin müəllim hüquqi dillə ifadə edib. Elə buradaca poeziya ilə hüququn ortaq ifadə nöqtələrini axtarmağa başladım. Hər iki əsərin qayəsinə ədəbi-bədii, fəlsəfi-tarixi, siyasi-hüquqi prizmalardan baxdıqda müəlliflərin fərdi yaradıcılığının – poeziya ilə hüququn eyni mövzu ilə bağlı vəhdət təşkil etdiyinə, hətta bir-birini tamamladığına əmin oldum.

Şair Sabir Rüstəmxanlı poemada Qarabağ dərdini bir zamanlar üçün "yaramızdan axan qan", "ətalət yuxusu" kimi qiymətləndirir, bu dərddən ürəyimizin "çilik-çilik" olmasını qeyd etməklə, xalqın qəflət yuxusundan oyanmasını, soydaşlarımızı, torpaqlarımızı əsir etmiş yağılara qarşı mübarizəyə qalxmasını, paralanmış ürəyimizin bütövləşməsini arzulayan şair harayını ucadan səsləndirirdi.

Poemada Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı beynəlxalq təşkilatların səmərəsizliyi, Azərbaycan əsgərinin mübarizəyə hazırlanması, onun Xocalı qisası, torpaqlarının azadlığı uğrunda mübarizəyə atılması, Şuşanın sıldırım qayalarına qalxaraq düşmənə gözlənilməyən istiqamətdən qəfil zərbələr endirərək Zəfəri əldə etməsi bədii sözün əlvan və alovlu çalarları ilə təsvir edilib.

Hüquqşünas Vafəddin İbayev isə eyni məsələləri daha çox siyasi və hüquqi müstəvidə nəzərdən keçirib. Hüquqşünas həmkarımızın qələmə aldığı, Hüquq və İnsan Haqları İnstitutunun nəşr etdiyi "Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" kitabı Zəfər yürüşünün 5-ci ildönümü günlərində oxucuların müzakirəsinə təqdim olunmaqla yenidən yaşanan təntənələrlə həmahənglik yaratdı.

Kitab 44 günlük Vətən müharibəsi günlərində Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciətlərini, çıxışlarını, müsahibələrini gündəmə gətirməklə bizi 30 il səbirsizliklə gözlədiyimiz o günlərə qaytardı. Kitabı vərəqlədikcə, xalqı Zəfərə aparan ali çağırışları, həqiqət saçan nidaları, bədxah sualları və qətiyyətli cavabları dinlədiyimiz, oxuduğumuz həmin 44 günün ümidli və həyəcanlı günlərini bir də, lakin bu dəfə arxayınlıq və fərəhlə yaşadıq.

Vafəddin İbayev kitabda müxtəlif beynəlxalq sənədlərə müraciət edib, beynəlxalq hüquq normalarının təfsirini, müxtəlif siyasi proseslərin təhlilini verib. Müəllifin Qurani-Kərimin ayələrinə, onların şərhinə, ulu Dədə Qorqud sözünə, ünlü yazıçı və şairlərimizin əsərlərinə, Aristotel, Makiavelli kimi filosofların, görkəmli siyasətçilərin fikirlərinə, fatehlərin sərkərdəlik məharətlərinə müraciət etməsi kitabı zənginləşdirərək daha da maraqlı edib.

Qarabağ Zəfəri haqqında yazılmış müxtəlif yazılarda, kitablarda müəlliflərin eyni məsələlərə oxşar münasibət bildirməsi təbiidir. Çünki Qarabağ Zəfəri birdir, onun əldə olunması üçün çəkilən zəhmət, fədakarlıqlar, bu proses zamanı cərəyan edən hadisələr də eyni mənbədən qaynaqlanıb, eyni hədəfə – işğal altında olan torpaqların azadlığa çıxarılmasına həsr edilib.

Bu mübarizədə baş vermiş hadisələrə münasibətlər, baxışlar, yanaşmalar müxtəlif və fərqli olub. Bəzi hallarda isə müxtəlif yanaşmaların biri-birini tamamlaması, inkişaf etdirməsi müşahidə edilib. Eyni hadisə və məram barədə müxtəlif əsərlərin mövcudluğu bu gerçəyin daha yaxşı və hərtərəfli dərk olunmasına kömək edib.

**Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poeması bu ricətlə başlayır:**

***Yaramızdan axan qan qan deyil, qorxumuzdur,***
***Ağrılarla qovulan ətalət yuxumuzdur.***
***Dünən ağladığıma bu gün qəlbən gülürəm,***
***Ölüydüm yaşadıqca, dirilməyə gedirəm.***
***Nə bu ölüm yenidir, nə yarımcan dirilik,***
***Üzdə bütöv olsam da, ürəyim çilik-çilik...***

Eyni ağrını, "nəğmənin ağıya", "laylanın göz yaşına" dönməsini Vafəddin İbayev 417-ci ildə Qal şairinin "Tanrının bəsirəti haqqında nəğmə" şeirində ölkəsinin 10 ildə məruz qaldığı fəlakətinin təsviri ilə müqayisə edir: "Bu naməlum şair şeirində həmvətənlərinin məruz qaldığı bəlaları "Əhdi-ətiq"də ifadəsini tapan müddəalarla əsaslandırır, eyni zamanda, onun çağırışları insanları mübarizəyə səsləyir: "Əgər bu qalalar verilməyibsə... onda bu əllərlə yaradılmış gözəlliklər Allahın seçdiyi xalqın xeyirxahlıqlarına şahidlik etmək üçün yaşamalıdır".

Bu parça "Əhdi-ətiq"i xatırladır: "Allahın seçdiyi xalq düz yoldan yayındığına görə məhvə məruz qalır". Lakin mətnin ikinci gizli mənası da var: "Əgər sizdə bir azca da olsa daxili qüvvə qalıbsa, gəlin, günahlarımızın boyunduruqlarını silkələyib, zəncirləri qıraq və bizim vətənimizə azadlıq və şöhrəti qaytaraq".

**Sabir Rüstəmxanlı:**

***Unutduq ki, insanlıq çaylar kimi daşmaqdır.***
***Haqq-ədalət yolunda sonadək savaşmaqdır,***
***Sağalmaz yara olar boyun əymək düşmənə.***
***Ömrüm sığışa bilməz parçalanmış Vətənə.***

**Vafəddin İbayev** düşmənə qarşı mübarizə aparılmasının zəruriliyi ilə bağlı Heydər Əliyevin 1993-cü ildəki çıxışına müraciət edir: "İndi gərək hər kəs Vətən, torpaq, namus yolunda öz payını, öz borcunu versin. Xalqın övladları bu torpaqda doğulub dünyaya gəliblərsə, atalarımızın, babalarımızın ruhu bizim üçün müqəddəs və əzizdirsə, öz borcumuzu verməliyik. Bu hamının borcudur". Bəli, artıq hər kəs bilirdi ki, Vətən hamımızındır və onu birgə qorumalıyıq.

Müəllif sonra bildirir ki, Azərbaycan övladları: "Vətən yolunda öldü var, döndü yox!" şüarı ilə ancaq irəliyə baxırdılar, onlar üçün geriyə yol yox idi... Torpaqdan güc alan Azərbaycan əsgəri hər kəndi, hər obanı, hər yüksəkliyi azad etdikcə daha da fərəhlənir, qələbədən-qələbəyə inam qazanır, düşmənin bir vaxtlar zəbt etdiyi torpaqları xarabazarlığa çevirməsindən doğan nifrət onu işğalçıları qovmağa, Azərbaycan torpaqlarından çıxarmağa səsləyirdi".

**Sabir Rüstəmxanlı:**

***İşğal ordusu durdu işğalçının yanında***
***Boğdu öz şərəfini Xocalının qanında.***

**Hüquqşünas** isə erməni əsilli Fransa jurnalisti Berain Siracyanın "Hücumdan əvvəl" məqaləsindən sitat gətirir: "Xocalıda baş verənləri öz gözlərimlə gördüm. Hər tərəfdən qan qoxusu gəlirdi. Qarın üzərində düşüb qalmış kimsəsiz, cansız meyitlərdən vahimələndim… Ona görə vahimələndim ki, bu qanı Azərbaycanın, onun gələcək nəsillərinin heç zaman unutmayacağını və susmayacağını anladım. Bu gün ruslar bizimlədir. Bəs sabah? Biz tək qala bilərik".

**Vafəddin İbayev daha sonra yazır:** "İlham Əliyev müsahibəsində ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə, onların mandatlarına müvafiq olaraq qərəzsizlik nümayiş etdirməli olduqlarına münasibət bildirərək qeyd edirdi ki, Fransanın son günlərdəki mövqeyi onların vasitəçilik missiyalarına müvafiq olmamış, onlar əsassız olaraq Azərbaycan və Türkiyəni münaqişəyə muzdlular cəlb etməkdə ittiham etmiş, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir" kimi şüarlarla çıxış etmişlər.

Fransa dövlət başçısının bu cür fəaliyyəti həmin ölkədə yaşayan erməni diasporunun təsirinin nəticəsi olsa da, Fransanı nüfuzdansalıcı bir hərəkət kimi dəyərləndirilməlidir. Tarixi təcrübə digər dövlətlər kimi, Fransanın da beynəlxalq aləmdə bir qayda olaraq, ədaləti deyil, özünün maraqlarına xidmət edən siyasət həyata keçirməsini təsdiq edir".

**Sabir Rüstəmxanlı:**

***Hüquq donub, haqq batıb, dünya eşitmir, kardı.***
***Qatilə dur deməyən özü də günahkardı.***

**Vafəddin İbayev** bu məsələni hüquq prizmasından şərh edir: "Əslində, Azərbaycan Ermənistan tərəfindən müharibənin başlanma təhlükəsini hiss etmiş və təxminən bir həftə əvvəl BMT kimi nüfuzlu beynəlxalq təşkilatın tribunasından Ermənistanın bu niyyətinin qarşısının alınmasını, onun dayandırılmasını beynəlxalq ictimaiyyətdən tələb etmişdi. Lakin həmişəki kimi, yenə də beynəlxalq ictimaiyyət cavab reaksiyası verməmişdi".

**Sabir Rüstəmxanlı:**

***Dünya özü də bilmir istəyi nədir bizdən,***
***Otuz il qara duman əksilmir üstümüzdən.***
***Sanki görmür kor gözü – Vətənimdir burası.***
***O millətlər birliyi, bu dövlətlər şurası...***
***Hamısının ağzında eyni çürük saqqızdı,***
***Hamı siyasət qurdu, quzu–yurdum yalqızdır.***

**Vafəddin İbayev Uinston Çörçillin Fulton nitqində qeyd etdiklərini yada salır:** "Çətinliklər və təhlükələr biz onları sezməsək belə aradan qalxmayacaqdır. Biz hər şeyi öz axarına buraxdığımız və nə baş verəcəyini gözlədiyimiz zaman da onlar yoxa çıxmayacaqdır. Əgər biz əmin-amanlıq siyasətini həyata keçirsək, bu halda da onlar yoxa çıxmayacaqdır. Nizamasalma lazımdır. Biz nə qədər uzun zamana bunu təxirə salsaq, onu əldə etmək bir o qədər çətin olacaq, bizi hədələyən təhlükə bir o qədər artacaqdır".

İlham Əliyev U.Çörçillin 74 il əvvəl söylədiklərini bilirdi, həm də bunları 17 illik prezidentlik təcrübəsində yaşamışdı. İlham Əliyev bir həftə əvvəl, BMT-nin sessiyasında təcavüzkar dövlətin cilovlanmasının zəruriliyini bildirəndə də BMT-nin, beynəlxalq ictimaiyyətin bu xəbərdarlığa, həmçinin biganəliklə yanaşacağını da bilirdi".

**Sabir Rüstəmxanlı:**

***Ancaq birdən göylərdən bir şimşək çaxıb keçdi,***
***Həqiqət min yalanı yandırıb yaxıb keçdi.***
***Savaş deyən sərkərdə milləti oyandırdı,***
***Hər ürəkdə ümiddən çilçıraqlar yandırdı.***

**Vafəddin İbayev isə yazır:** "Azərbaycan gəncləri də, Azərbaycan xalqı da artıq xoşbəxtliyin necə əldə ediləcəyini bilirdi. Bunun üçün mübarizə aparmaq lazım idi. Ordu bu mübarizəyə hazırlanmışdı. Onlar 2016-cı ilin aprel ayından sonra düşmən üzərində bir neçə dəfə qələbə qazanmışdılar və artıq Ermənistan ordusu üzərində qələbə qazanmağa onlarda əminlik vardı. Orduda çalışanlar bilirdilər ki, "kim ki, qılıncının qara dəstəyindən möhkəm yapışmaq istəmir, onun iti ucu özünə tərəf dönəcəkdir".

İlham Əliyev inamla bildirirdi ki, Azərbaycanı öz məqsədlərinə çatmaqdan heç bir qüvvə yayındıra bilməz: "Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!".

**Vafəddin İbayev** 2006-cı ildə qələmə aldığı "Xarıbülbül həsrətində" yazısına istinadla yazır: "Reallıq isə belədir ki, Qarabağda doğulmasam da, Qarabağı Vətənimin bir parçası, Üzeyirin, Xan qızının, Bülbülün vətəni, gözəllik təcəssümü kimi sevirəm. İstəyim, arzum bir daha Cıdır düzündə gəzib o əzəməti, o gözəlliyi duymaqdır. Qışda lopa-lopa yağan qarda gəzib Şuşanın təmiz, saf havasını udmaq istəyirəm. Yayda istinin cırhacırında İsa bulağının suyundan içmək, "Qarabağ şikəstəsi"ni Qarabağda dinləmək istəyirəm. Cıdır düzündə dizimi torpağa qoyub Xarıbülbülün gözəlliyinə tamaşa etmək, ətrini duymaq istəyirəm. Bir də inandıqlarım var. O gün gələcək, arzularım çin olacaq. Buna inanıram".

**Sabir Rüstəmxanlı:**

***Tələs, igid əsgərim, havalar soyuqlaşır.***
***Təpələr çallaşmada, bir azdan qış gələcək.***

**Vafəddin İbayev,** sanki, şairin narahatlıqlarının əsaslılığını sübut etmək üçün N.Makiavelliyə müraciət edir: "Hələ üç əsr əvvəl N.Makiavelli yazırdı: "Qış müharibəsindən təhlükəli və ehtiyatsız heç nə yoxdur. O, xüsusən müdafiə olunandan daha çox, hücuma keçən üçün təhlükəlidir...". Yağıntılı hava və şaxta ordunu məcmu halında səfərbər etməyə və düşmənə qarşı vahid kütlə kimi durmağa imkan vermir. Ona görə də möhkəm qurulmuş ordunun yaradılmasına sərf olunmuş zəhmət əbəs yerə yoxa çıxır".

Hüquqşünas torpaqların müdafiəsi üçün fədakarlığın zəruriliyini Heydər Əliyevə müraciətlə əsaslandırır: "Hər bir insanın özünə görə qiyməti var, hər kəs atası-anası, qardaşı-bacısı üçün, ailəsi üçün ən qiymətlidir. Bizim heç birimiz həlak olanlardan qiymətli deyilik, o cümlədən mən də. Ona görə də Kəlbəcəri, başqa torpaqlarımızı da müdafiə etmək lazım idi. Bəlkə də beş dəfə, on dəfə artıq qurban vermək lazım idi, ancaq müdafiə edib öz torpağımızda alnıaçıq, üzüağ oturmaq lazım idi. Ola bilər, yarımız qırılaydıq, amma yarımız öz torpağımızda qalardıq. İndi nə olsun ki, əksəriyyəti çıxıb gəlib, qaçqın düşübdür. Torpaqlarımız da, burada düz dedilər, yağıların əlindədir. Güman edirəm ki, biz bundan sonra bütün işlərimizə, həyatımıza, hökumətimizə, dövlətimizə, respublikamıza, torpaqlarımıza əsl vətənpərvər kimi münasibət göstərməliyik".

**Sabir Rüstəmxanlı:**

***Tikiləcək kəndlərim, sonsuz cah-cəlalıyla.***
***Erməni dil uzadıb "Qarabağ" deyəndə vur,***
***Dəmir quşlar uçuşsun qartallarla yanaşı,***
***İlanı yuvasında, bayquşu göyündə vur!***

**Vafəddin İbayev yazır:** "İlham Əliyev uzunmüddətli müharibə aparılmasını istəmirdi. Onu müharibə deyil, azad ediləcək torpaqlarda yeni yaşayış məskənləri, təhsil ocaqları, sağlamlıq mərkəzləri, idman stadionları, yollar, hava limanları, aqrar və sənaye parkları, "Qarabağ şikəstəsi"nin Qarabağda hər tərəfə yayılacağı, insanların qurub-yaratmaq eşqi ilə həyat sürəcəyi məkanlar qurmaq maraqlandırırdı. O, qurub-yaratmaq, tikmək, inkişaf etdirmək üçün yaranmışdı. Onun çağırışı dağıtmaqda deyil, yaratmaqda, inkişafda idi".

İlham Əliyev də münaqişənin sülh yolu ilə nizama salınmasına çox çalışdı. 17 il münaqişənin danışıqlar yolu ilə nizama salınması üçün saysız-hesabsız görüşlər keçirdi, müzakirələr apardı, çıxışlar etdi, Ermənistanın iqtisadi inkişafı ilə bağlı güzəştlər təklif etdi. Lakin Ermənistan tərəfi sağlam düşüncə nümayiş etdirə bilmədi.

**Vafəddin İbayev yazır:** "Hz. Peyğəmbər tərəfindən "şəhid" sözünün Allah yolunda canından keçən mənası da işlədilmişdir: "Mən onların (şəhidlərin) Allah yolunda canlarından keçdiklərinə şahid və şəfaətçiyəm". Vətən, xalq, dövlət, millət, haqq, ədalət yolunda canından keçmək, özünü haqq işə fəda etmək şəhidliyin əsas əlamətidir. Bu zirvəyə o insanlar yüksəlir, ucalırlar ki, onlar vətən, millət, dövlət yolunda ölümün üzərinə yürüyə, ölümün gözlərinin içinə dik baxa bilirlər. Şəhidlər xalqın, millətin milli qürur mənbəyi, milli iftixar hissi, and, namus yeri, baş tacı hesab olunur. O torpaqlar Vətən hesab olunur ki, onların uğrunda canından keçən, canını fəda edən vətən övladları, şəhidləri var".

**Sabir Rüstəmxanlı:**

***Daşlar soyuq, sürüşkən, altda dibsiz uçurum,***
***Qayaların başında düşmən əsgəri min-min.***
***Yağış ol, dumana dön, düşmən duyuq düşməsin***
***Gözündəki şimşəyi görənə kimi sənin.***

**Vafəddin İbayev:** "İlham Əliyev digərlərinə mümkünsüz görünən işi Azərbaycan əsgərinin görə biləcəyinə inanırdı. O, mümkün olmayanı həyata keçirmək üsulunu tapmış, təlimlərdə Azərbaycan əsgərini buna hazırlamışdı. Azərbaycan əsgərinin sıldırım qayalara dırmanıb gözlənilmədən Şuşa şəhərində meydana çıxması düşmən arasında vahimə toxumu səpdi, onu lərzəyə saldı. Sadə yolu keçmək asandır, lakin bu yolun sonunda əsl qiymətli nəsə nadir hallarda olur. Mümkün hesab olunmayan yoldan zəhmət, əziyyət, qətiyyət hesabına məqsədə doğru irəliləmək mütləq bəhrəsini verməlidir. Allah-taala zəhməti qiymətləndirir. İnsan əlindən gələni etməli, sonra Allaha təvəkkül aparmalıdır".

**Sabir Rüstəmxanlı:**

***Əsgərin silahı yox, əmrin özü silahdır,***
***Bu əmr özü qanaddır, qaldırır uçurumdan.***

**Vafəddin İbayev yazır:** "İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun apardığı müharibə yeni dövrün müharibəsi idi. Yeni texnologiyalardan istifadə olunmaqla düşmənin texnikası və canlı qüvvələrinə endirilən dəqiq zərbələr döyüşlərin taleyinin həllində mühüm rol oynayırdı. Azərbaycan əsgər və zabiti yeni texnologiyalardan məharətlə istifadə etməklə yanaşı, döyüşlərin bütün növlərində, hətta əlbəyaxa döyüşlərdə də qəhrəmanlıq nümunələri nümayiş etdirirdi". Müəllif çətin döyüş epizodlarından misallar gətirməklə Azərbaycan əsgərinin şücaətini Qədim Roma əsgərlərinin qəhrəmanlıqları ilə müqayisə edir.

**Sabir Rüstəmxanlı:**

***Ona gülməli gəlir bizim son niyyətimiz,***
***Min-min gözdən yayınıb Şuşaya qalxa bilmək.***
***Ölkələrə əl açan erməni ümidiylə***
***Erməni ordusunu bir əllə boğa bilmək!***
***Gecənin havasını doldurub ciyərinə***
***Bilir ki, vuruşacaq yüz dostunun yerinə.***
***Bu qoyun sürüsünə qurd kimi saldırmalı,***
***Qoynundakı bayrağı Şuşada qaldırmalı!***

**Vafəddin İbayev** "Kitabi-Dədə Qorqud"a müraciət edir: "Azərbaycan əsgəri düşmən tərəfindən müəyyən edilmədən Şusa şəhərini çiyinlərində saxlayan qayalara çatmaq üçün günlərlə meşə cığırlarını, dərələri keçib, dağları aşıb, uzun məsafə qət etmişdi. Onların çətin keçidli uzun məsafəni qət etdikdən sonra qayalara dırmaşıb şəhərə daxil olması son dərəcə yüksək fiziki hazırlıq, dözüm, cəsarət, Dədə Qorqudun dili ilə desək, "ciyərli olmaq tələb edirdi: "O gün ciyərli, cəsur igidlər bəlli oldu".

**Sabir Rüstəmxanlı:**

***Şuşam uca olsa da, bayraq ondan da uca,***
***Altında keşik çəkib mən də baxım doyunca.***
***Sonra düşmən gülləsi sinəmdə yanır, yansın,***
***Təki Vətən göyündə bayrağım dalğalansın!***

**Vafəddin İbayev** şairin "Təki Vətən göyündə bayrağım dalğalansın!" fikrini öz sözləri ilə bu cür ifadə edir: "Bu yol çətin, lakin şərəfli bir yol idi. Bu yol əsgər üçün qan-tər, əzab-əziyyət, partlayış, güllə, yanğın, bəzən şəhidlik və şikəstliklə müşayiət olunan, lakin dövlət bayrağı ellərimiz, obalarımız üzərində dalğalananda hər cür əzabı ona unutduran bir yol idi. Bu yol yuxusuz gecələr, səksəkəli günlər yaşayan, uzun gecələri Allah-taalaya dualarla keçirən, balasına qovuşmaq həsrəti ilə saçlarını ağardan, Vətən torpaqlarında üçrəngli bayrağımızın dalğalandığını görüb şəhid balasının bu an üçün qurban getməsinə dözümlə: "Təki Vətən sağ olsun", - deyən anaların, gözləri yol çəkən, Vətənin müdafiəsi ilə bağlı toy-busatı təxirə salınmış nişanlı qızların, qardaşına görə narahat bacıların həsrət yolu idi".

**Sabir Rüstəmxanlı:**

***Bu bizim haqq işimiz, ədalət savaşımız,***
***İntiqam ala-ala dikələcək başımız.***
***Vur, əsgərim, vur! - deyə əmr eləyir Komandan***
***Qoy bir də yurdumuzda tokülməsin nahaq qan.***
***Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,***
***Başımızın üstündə üçrəngli bayrağımız!***

Geriyə baxmadan qaçan erməni əsgərlərinin vəziyyətini Vafəddin İbayev L.Tolstoyun təbirincə ifadə edir: "Qaçan heyvanın başına vurmaq yox, bəlkə, qamçını onun başı üzərində saxlamaq, heyvanı qorxutmaq daha faydalıdır".

**Sabir Rüstəmxanlı:**

***Azərbaycan içindən doğulur, diqqətlə bax,***
***Xalqın ruhu bütövsə, bütövdür gələcəyi!***

**Vafəddin İbayev yazır:** "İlham Əliyevin qələbələrin əldə olunmasında mühüm amil kimi dəyərləndirdiyi məsələlərdən biri də xalqın birliyi ilə bağlı idi: "Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik".

Müasir dövrümüzün böyük şairi Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poemasını oxuyanda böyük mənəvi zövq almışdım və yeni baxış bucağından bir daha dönüb oxumaq daha xoş təəssürat yaratdı.

Vafəddin İbayevin böyük zəhmət, elmi araşdırma, müqayisəli təhlil əsasında yazdığı "Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" kitabı Qarabağ Zəfərinə növbəti töhfədir.

***Adil MİNBAŞI,***
***hüquqşünas, baş ədliyyə müşaviri***

*Azərbaycan Memarlıq və İnşaat Universiteti – 50*

# Milli memarlıq və inşaat mühəndisliyi mərkəzi

**Bu günlərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin yaradılmasının 50 illik yubileyi ölkənin milli-mədəni və elmi-pedaqoji sahədə əldə edilmiş uğurlarının daha bir önəmli göstəricisi kimi təntənə ilə qeyd edilir. Yarım əsrlik tarixinin son 34 ili müstəqil dövlətçiliyimizə xidmətdə keçən, ölkənin ali təhsil sistemində önəmli mövqeyi və rolu olan universitetin kollektivi əlamətdar hadisəyə ötən 50 ildə qazanılmış uğurların öyüncü və qarşıda duran vəzifələrin diktə etdiyi məsuliyyətlə nəzər salır.**



Əvvəla, qeyd edək ki, bu yubiley təkcə bir ali təhsil ocağının tarixində ilk yarım əsrlik mərhələnin başa çatmasını yekunlaşdırmır, həm də ölkəmizin memarlıq və inşaat təhsilinin inkişafına göstərilmiş dövlət qayğısının, milli mühəndislik məktəbinin formalaşmasına imkan vermiş xüsusi diqqətin yaratdığı potensialın dəyərləndirilməsi fürsətidir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə, eləcə də sovet dövlətinin ali rəhbərliyində çalışdığı zaman texniki ali təhsilin inkişafına verdiyi dəyər və mühəndislik sahəsinə yönəlik strateji baxışı Memarlıq və İnşaat Universitetinin formalaşmasında, onun gələcək inkişaf konsepsiyasının müəyyənləşməsində də həlledici rol oynayıb. Təsadüfi deyil ki, AzMİU məhz Ulu öndərin ölkəyə ilk rəhbərliyi dövründə yaradılmış, hakimiyyətə qayıdışından sonra isə universitet adı alaraq yeni bir mərhələyə qədəm qoymuş, çağdaş inkişafının istiqamətləri müəyyənləşdirilmişdir.

Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan böyük quruculuq işləri, şəhərsalmanın vüsət alması, ağıllı şəhər, yaşıl memarlıq, enerji effektli tikinti kimi çağdaş yanaşmalar memarlıq və inşaat təhsilinə yeni tələblər formalaşdırır. AzMİU bu çağırışlara cavab vermək üçün yenilənmiş təhsil proqramları, mütəxəssis hazırlığının yeni strukturu, gücləndirilmiş elmi baza, beynəlmiləlləşmə və rəqəmsal transformasiya istiqamətində ardıcıl addımlar atır.

Yubileyə hazırlıq tədbirlərinə və yekun hesabata "Əsrə bərabər 50 il" devizini seçməyimiz də təsadüfi deyil. Bu yarım əsr təkcə universitetin yetkinlik yaşına çatmasını deyil, eyni zamanda, ali məktəbin Azərbaycanın sürətli inkişafa verdiyi töhfələrin, minlərlə memar və mühəndisin yetişdirilməsi ilə formalaşdırdığı intellektual və praktik bazanın, ölkənin quruculuq və bərpa işlərində ön sıralarda dayanmağın ifadəsidir. Bu baxışın özülündə isə 1920-ci ildə respublikada yaradılmış ilk inşaat fakültəsindən başlayan mühəndislik təcrübəsi və quruculuq salnaməsi dayanır.

Bu gün Azərbaycan özünün ən sürətli inkişaf dövrünü yaşayır. Regionların yenilənməsi, işğaldan azad olunmuş torpaqların dirçəldilməsi, yeni şəhər və kəndlərin qurulması, müasir infrastruktur şəbəkələrinin yaradılması – bütün bu genişmiqyaslı proseslər təhsildə güclü mühəndis və memar hazırlığına olan ehtiyacı daha da artırıb. Universitetin yetirdiyi minlərlə mütəxəssis Azərbaycanın müasir şəhərlərini, binalarını, körpülərini, su sistemlərini, yollarını, kommunikasiya xətlərini – bir sözlə, ölkənin müasir simasını formalaşdırmağa və inkişafın qarşıya qoyduğu böyük tələblərə cavab verməyə qadir olmalıdır.

Universitetimizin tarixi rəsmi olaraq 1975-ci ildən başlasa da, onun kökləri çox daha dərindir. 1920-ci ildə Bakı Politexnik İnstitutunun tərkibində yaradılan inşaat fakültəsi, 1930–1934-cü illərdə fəaliyyət göstərən İnşaat və Memarlıq İnstitutu, ötən əsrin müxtəlif mərhələlərində yenidən təşkil olunan fakültə və şöbələr bugünkü AzMİU-nun əsasını formalaşdırıb.

Ötən əsrin 70-ci illərində Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan qısa müddətdə kənd təsərüfatı ölkəsindən sənaye ölkəsinə çevrilməyə başladı. Bütün sahələrdə olduğu kimi, memarlıq və inşaat sahəsində də genişmiqyaslı layihələr başladıldı, yeni sənaye müəssisələri, yaşayış kompleksləri, mikrorayonlar tikilməyə başlandı. Məhz bu işlər bugünkü universitetin 1975-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutu olaraq müstəqil təhsil ocağı kimi formalaşmasını, ölkədə inşaat-memarlıq sahəsində ixtisaslaşmış ilk ali məktəbə çevrilməsini zəruri etdi.

Təhsil ocağına 1992-ci ildə universitet statusunun verilməsi, 2000-ci ildə isə Prezident Heydər Əliyevin tarixi fərmanı ilə ali təhsil müəssisəsinin adının rəsmi şəkildə "Azərbaycan Memarlıq və İnşaat Universiteti" kimi təsdiqi bu inkişaf yolunun ardıcıl mərhələləridir. Bu xronika göstərir ki, AzMİU-nun 50 illiyi həm də bir elm məktəbinin, bir ali ixtisas təhsili ənənəsinin, müasir dövrün memarlıq-inşaat düşüncəsinin formalaşmasının yubileyidir.

Bu gün AzMİU tarixinin yeni dövrünü yaşayır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, böyük tikinti və nəqliyyat layihələrinin icrası, regionların davamlı inkişafı və müasir infrastrukturun formalaşdırılması üçün müasir tələblərə cavab verən mütəxəssis hazırlığı universitetimizin qarşısında duran böyük və məsuliyyətli vəzifədir.

Hazırda universitetin memarlıq, inşaat, su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri, tikinti-iqtisad, mexanika və informasiya texnologiyaları, nəqliyyat, dizayn fakültələri ölkənin mühəndis təhsilinin aparıcı mərkəzlərindəndir. Universitetimizdə yüksək səviyyəli, təcrübəli mütəxəssislər və alimlərdən, eyni zamanda, gənc kadrlardan ibarət 600 nəfər professor-müəllim heyəti fəaliyyət göstərir. Tədris 3 dildə – Azərbaycan, ingilis və rus dillərində aparılır və 24 ixtisas üzrə bakalavr pilləsində mütəxəssis hazırlanır. Magistratura səviyyəsində 53 proqram üzrə tədris aparılır.








Universitetin nəzdində İnşaat Kolleci, Fizika-Riyaziyyat Təmayüllü Lisey, 2010-cu ildən Layihə İnstitutu fəaliyyət göstərir. Son illərdə həyata keçirdiyimiz islahatlar tədris prosesini müasir tələblərə uyğunlaşdırmağa, tələbəmərkəzli tədris modelinə keçidi təmin etməyə, beynəlxalq səviyyədə universitetin tanıdılması və nüfuzunun artırılmasına yönəlib.

Bu gün qürurla qeyd edə bilərik ki, 50 il ərzində universitetdən 70 mindən çox memar, inşaat, nəqliyyat hidrotexniki və meliorativ mühəndis məzun olub. Respublikanın, demək olar ki, bütün iri tikinti layihələrində, şəhərsalma planlaşdırılmasında, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasında AzMİU məzunlarının imzası var. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq işlərinin əsas icraçıları, layihə rəhbərləri, sahə mühəndisləri də məhz bizim məzunlardır. Bu fakt bir daha sübut edir ki, AzMİU yalnız təhsil müəssisəsi deyil, ölkənin inkişaf strategiyasının həyata keçirilməsində rolu olan milli intellekt mərkəzidir.

Universitetin ölkənin inkişafındakı rolunun daha da artması, istehsalatın tələblərinin təmin edilməsi və əlaqələrin gücləndirilməsi məqsədilə 50 illik yubileyi ərəfəsində AzMİU-nun Məzun Assosiasiyası yaradıldı. Yaradılmasından qısa zaman keçməsinə baxmayaraq, Məzun Assosiasiyası artıq universitetin keçmişi, bu günü və gələcəyi arasında körpü rolunu oynayır.






Bir ildən az vaxtda assosiasiya universitetin maddi-texniki bazasının gücləndirilməsi, laboratoriyalarının yenilənməsi, tələbələrin motivasiyasının artırılması və xeyriyyəçiliklə yataqxana binasının əsaslı təmir olunması üçün layihələndirilməsi ilə bağlı real işlər görüb. Məzun Assosiasiyası peşəkar əməkdaşlıq platforması olmaqla yanaşı, həm də universitetin tarixi yaddaşının, məzun birliyinin və sosial məsuliyyət ənənəsinin gücləndirilməsi deməkdir.

Rəqəmsallaşma və Süni İntellekt Strategiyasının tələblərinə uyğun inkişaf istiqamətlərimiz də diqqət mərkəzindədir. Təhsilin məzmununun elektronlaşdırılması, rəqəmsal qiymətləndirmə sistemi, virtual laboratoriyalar və 3D model əsaslı tədris modulları mühəndis hazırlığında artıq əsas vasitəyə çevrilib. Bu prosesə təkcə texniki yenilənmə kimi baxmaq olmaz. Bu, təhsildə tamamilə yeni fəlsəfədir: daha çevik, daha şəffaf və tələbənin inkişaf motivasiyasını artıran bir yanaşmadır. Şübhəsizdir ki, bu proses inkişaf edən xətlə davam etdiriləcək.

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası"nın təsdiq edilməsi haqqında imzaladığı sərəncam ölkəmizdə rəqəmsal transformasiya prosesinin yeni mərhələsinə keçidi müəyyənləşdirir. Bu strategiya ali təhsil müəssisələrinin qarşısına intellektual texnologiyaların tətbiqi, rəqəmsal elmin inkişafı və yüksəkixtisaslı kadr hazırlığı sahəsində konkret vəzifələr qoyur. Azərbaycan Memarlıq və İnşaat Universiteti bu çağırışların cavabı olaraq rəqəmsal ekosistemin gücləndirilməsi, süni intellektə əsaslanan tədris və tədqiqat mühitinin formalaşdırılması istiqamətində ardıcıl addımlar atır. Strateji Sərəncamdan irəli gələn tələblər universitetimizin fəaliyyətində yeni prioritetlərin müəyyənləşməsinə səbəb olmuşdur.

AzMİU Azərbaycanın aparıcı İT şirkətləri ilə birlikdə rəqəmsal layihələrin hazırlanması, tələbələrin real mühəndislik tapşırıqları üzərində çalışma imkanlarının yaradılması, habelə süni intellekt üzrə praktik təlimlərin təşkili istiqamətində əməkdaşlığı genişləndirir. Tələbə və müəllimlərin biliklərinin artırılması üçün universitetdə müxtəlif istiqamətlər üzrə İT kursları təşkil olunur.

Proqramlaşdırma, süni intellektin əsasları, məlumatların analizi, rəqəmsal modelləşdirmə kimi sahələri əhatə edən bu kurslar beynəlxalq akkreditasiyaya malik partnyor şirkətlərin dəstəyi ilə həyata keçirilir. Tələbələrin ali təhsil diplomu ilə bərabər beynəlxalq sertifikatlar alması onların məşğulluq imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Qlobal texnologiya şirkətləri ilə qurulan tərəfdaşlıq sayəsində universitetdə beynəlxalq praktikanı əks etdirən birgə layihələr də həyata keçirilir. Xarici ali məktəblərlə birgə (məsələn, İspaniya universitetindən süni intellektlə bağlı mütəxəssis dəvət etmişdik) tədqiqat proqramları, akademik mübadilə, professor-müəllim heyətinin və tələbələrin qarşılıqlı səfərləri təşkil olunur. Beynəlmiləlləşmə universitetin inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Süni intellekt, böyük verilənlər analitikası və rəqəmsal dizayn sahəsində ixtisaslaşmış universitetlərlə əməkdaşlıq AzMİU-nun potensialını daha da gücləndirir.

Müasir dövrdə təhsilin ölkənin iqtisadi inkişafında artan rolu, insan kapitalının prioritet istiqamət olması ali təhsilin beynəlxalq rəqabətliliyinin artırılmasını tələb edir. Beynəlmiləlləşmə ali təhsil müəssisəsinin bütün funksiyalarına, təhsilə, elmi tədqiqat fəaliyyətlərinə, idarəetməyə beynəlxalq standartlara söykənən yanaşmanın tətbiqindən ibarətdir. Beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi isə inkişafın vacib şərtlərindən biridir.

Beynəlmiləlləşmə prosesinin məntiqi davamı və universitetin qlobal ali təhsil standartlarına nə dərəcədə uyğun olmasının göstəricisi nüfuzlu beynəlxalq reytinq cədvəllərində yer almasıdır. "QS World University" reytinqində dünya səviyyəli universitetlər sırasına daxil olmaq və "QS Stars" yarışmasında maksimal – 5 ulduzla qiymətləndirilmək AzMİU-nun son illərdə əldə etdiyi nailiyyətlərdəndir. "The World University" reytinqində də mövqeyimiz ilbəil möhkəmlənir. "Green Metric, RUR" və bir sıra digər reytinqlərdə iştirak edir və dünya universitetləri ilə müxtəlif istiqamətlərdə yarışa qatılırıq.

Bununla yanaşı, beynəlxalq səviyyəli ali təhsil ocağı olmağın mütləq göstəricilərindən biri hazırlanan ixtisas proqramlarının beynəlxalq akkreditasiyadan keçməsidir. Bu yolda atılan ilk uğurlu addımlar memarlıq (RİBA), inşaat və nəqliyyat mühəndisliyi (JAAR) üzrə beynəlxalq qiymətləndirmədən keçməyimizdir.

Beynəlxalq tərəfdaşlıqların genişlənməsi, xarici universitetlərlə çoxşaxəli əməkdaşlıq, müəllim və tələbə mobilliyi, ikili diplom proqramları və birgə tədqiqat layihələrinin miqyasının artırılması AzMİU-nu regionda mühəndislik, memarlıq və dizayn təhsili üzrə beynəlxalq standartlara uyğun aparıcı ali məktəblərdən birinə çevirib. Universitetin bu istiqamətdə həyata keçirdiyi ardıcıl və strateji fəaliyyətin tərkib hissəsi olaraq AzMİU-nun qlobal təhsil məkanında öz mövqeyini möhkəmləndirir, həm də Azərbaycanın ali təhsil sisteminin beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm töhfə verir.

Hazırda AzMİU dünyanın müxtəlif ölkələrində yerləşən nüfuzlu ali təhsil müəssisələri ilə çoxölçülü əməkdaşlıq əlaqələrinə malikdir. Universitetin tərəfdaş şəbəkəsində İstanbul Texniki Universiteti və Yıldız Texniki Universiteti kimi Türkiyənin aparıcı ali məktəbləri, Milan Politexnik, La Sapiensa, Vestminster universitetləri kimi Avropanın yüksək reytinqli, habelə Cənubi Koreya, Çin, Mərkəzi Asiya ölkələrinin müxtəlif texnologiyayönümlü ali təhsil qurumları yer alır. Bu tərəfdaşlıqlar çərçivəsində tədqiqat mübadiləsi, müəllim və tələbə mobilliyi və rəqəmsal tədris mühitində birgə layihələrin icrası geniş şəkildə həyata keçirilir.

Universitetin beynəlxalq fəaliyyətində xüsusi yer tutan ikili diplom proqramları AzMİU tələbələrinə həm Azərbaycan, həm də tərəfdaş ölkələrin ali məktəbləri tərəfindən tanınan diplom əldə etmək imkanı yaradır. Hazırda ikili diplom proqramları Ankara Universiteti, Vestminster Universiteti, Texas Texniki Universiteti, Ege Universiteti, İstanbul Texniki Universiteti, Milan Politexnik Universiteti (memarlıq və dizayn ixtisasları) Leiriya və Coruna Universiteti ilə uğurla həyata keçirilir.

Beynəlxalq əməkdaşlıqlar vasitəsilə Azərbaycana qabaqcıl tədris metodologiyası, innovativ texnologiyalar və dünya təcrübəsi transfer olunur. Universitetimizin məzunları həm yerli, həm də qlobal əmək bazarında yüksək rəqabət qabiliyyətinə malik mütəxəssislər kimi formalaşır, ölkənin mühəndislik, memarlıq və dizayn sahələrində insan kapitalının inkişafına mühüm töhfə verirlər.

Ötən 50 il ölkəmizdə memarlar və inşaat sahəsi üzrə mühəndislər hazırlığında və universitetin bir ali təhsil ocağı olaraq inkişafında mühüm mərhələ olmuşdur. Məhz AzMİU-nun məzunları ötən əsrin 70-80-ci illərinin və müstəqillik dövrünün arxada qalmış 34 ili ərzində ölkədə həyata keçirilən böyük tikinti və yenidənqurma fəaliyyətinin aparıcı mühəndis qüvvəsini təşkil etmişlər.

Məzun və tələbələrimiz Vətənin müdafiəsi, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə fədakarcasına iştirak etmiş, qəhrəmanlıq göstərmiş, şəhidlik zirvəsinə ucalmışlar. Vətən müharibəsində Zəfəri canları bahasına yaxınlaşdıranların sıralarında AzMİU-nun 27 şəhid yetirməsi də var. Onlar bizim qürur mənbəyimiz və tələbələrimiz üçün örnəkdirlər.

Prezident İlham Əliyevin Azərbaycanın yüksək templə inkişafına, beynəlxalq aləmdə rolunun və nüfuzunun artmasına, xalqın rifahının yüksəldilməsinə istiqamətləndirilmiş siyasi strategiyası ölkənin müasir tələblərə cavab verən kadrlarla təmin edilməsini vacib şərt olaraq ön plana çəkmişdir. "Qara qızılın insan kapitalına çevrilməsi" ideyası davamlı olaraq konkret fəaliyyətlərlə həyata keçirilməkdədir. AzMİU Azərbaycanın təhsil sisteminin bir hissəsi olaraq bu böyük məqsədə uyğun işini qurur və fəaliyyət strategiyasını planlaşdırır.

Universitetimizin dərin köklərə malik elm və təhsil ənənələri, ardıcıl həyata keçirilən yeniləşmə siyasəti, nüfuzlu və müasir professor-müəllim heyəti yeni dövrdə yeni tələblər səviyyəsində qarşıda duran vəzifələrin öhdəsindən gələcəyinə və Azərbaycanın ən səviyyəli elmi tədqiqat universitetinə çevriləcəyinə əminlik yaradır.

***Gülçöhrə MƏMMƏDOVA,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor***

*Azərbaycanda Özbəkistan Mədəniyyəti Günləri*

# Daşkənddən Bakıya sənət körpüsü

**Xəbər verdiyimiz kimi, Azərbaycanda qardaş Özbəkistanın mədəniyyət günləri davam edir. Dekabrın 14-də Özbəkistanın Mədəniyyət Nazirliyinin rəhbər heyəti, tanınmış incəsənət nümayəndələri və aparıcı bədii kollektivləri ölkəmizə səfərə gəlib. Heydər Əliyev Mərkəzində Özbəkistan Mədəniyyəti Günlərinin açılış mərasiminə həsr olunmuş geniş konsert proqramı da təşkil edilib. Sonrakı gün isə Özbəkistan-Azərbaycan birgə Mədəniyyət Komissiyasının ilk iclası gerçəkləşib.**




Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Fərid Cəfərov qeyd edib ki, ölkələrimiz arasında qarşılıqlı münasibətlərin tarixi uzaq əsrlərdən başlanır. Xalqlarımızı oxşar milli adət-ənənələr, ümumi dil qrupu, mədəniyyət və din birləşdirir. Bu mənəvi və mədəni yaxınlığın bariz nümunələrindən biri də dahi özbək mütəfəkkiri Əlişir Nəvainin öz "Xəmsə"sini böyük Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"sindən ilhamlanaraq qələmə almasıdır.

Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistan torpağında sığınacaq tapıb. İndi də çoxsaylı soydaşımız qardaş ölkədə yaşayır, sosial, ictimai, iqtisadi və digər sahələrində uğurla çalışır.

Bu gün Azərbaycan-Özbəkistan münasibətləri sıx dostluğa, qardaşlığa əsaslanmaqla, yüksək səviyyəsinə çatıb. Bu münasibətlər iki ölkə liderlərinin uzaqgörən siyasəti, qarşılıqlı səfərləri və mütəmadi təmasları nəticəsində demək olar ki, bütün sahələrdə artan templə inkişaf edir.



Nazir müavini mədəniyyət günlərinin rəsmi toplantıdan daha artıq məna daşıdığını, iki qardaş xalq arasında mövcud olan qarşılıqlı hörmətin, səmimi münasibətlərin və dərin mənəvi bağlılığın bariz göstəricisi olduğunu vurğulayıb. O bildirib ki, Azərbaycanda Özbəkistan Mədəniyyəti Günlərinin təşkili bütövlükdə Türk dünyasının mədəni həyatında mühüm və yaddaqalan hadisə kimi dəyərləndirilməlidir. Azərbaycan cəmiyyətində özbək mədəniyyətinə, Özbəkistanda isə Azərbaycan mədəni irsinə hər zaman böyük maraq, sevgi və ehtiramla yanaşılıb. Qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi formalaşmış ənənə olmaqla yanaşı, ortaq mənəvi irsimizin qorunması və gələcək nəsillərə ötürülməsi məsuliyyətinin ifadəsidir. Bu ənənənin davam etdirilməsi isə ölkələrimiz arasında strateji tərəfdaşlığın nəticəsidir.

Fərid Cəfərov daha sonra diqqətə çatdırıb ki, hər iki xalq Türk dünyasının ayrılmaz tərkib hissəsi kimi eyni sivilizasiya məkanına mənsubdur. O, bu əməkdaşlığın beynəlxalq təşkilatlar, xüsusilə Türk Dövlətləri Təşkilatı və onun mədəniyyət sahəsində fəaliyyət göstərən qurumları, eləcə də UNESCO, ICESCO və MDB çərçivəsində daha da genişləndirilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Özbəkistan Respublikasının mədəniyyət nazirinin müavini Bahodir Əhmədov isə bildirib ki, son 3 il Özbəkistanla Azərbaycan arasında mədəni əlaqələr ardıcıl və yüksək dinamika ilə inkişaf etməkdədir. Onun sözlərinə görə, bir il əvvəl Özbəkistanda, Daşkənd şəhərində təşkil olunan Azərbaycan Mədəniyyət Günləri böyük maraq, səmimi qarşılanma və yüksək təşkilatçılıqla yadda qalıb. Bundan iki il əvvəl isə Özbəkistan Mədəniyyət Günləri Azərbaycan Respublikasında uğurla keçirilərək geniş ictimai rezonans doğurub.

Nazir müavini qeyd edib ki, hazırda Özbəkistan Mədəniyyət Günləri Bakı şəhərində, eləcə də Füzuli şəhərində reallaşdırılır. O vurğulayıb ki, tədbirlər proqramının hazırlanmasına xüsusi həssaslıqla yanaşılıb, bütün məqamlar öncədən nəzərə alınıb və tədbirin yüksək səviyyədə təşkili üçün genişmiqyaslı hazırlıq işləri aparılıb.

Bahodir Əhmədovun sözlərinə görə, bu mədəni tədbirlər xalqlarımızın mədəni irsinin bir-birini necə tamamladığını, ortaq tarixi köklərimizin dərinliyini və iki qardaş xalq arasındakı bağların nə qədər möhkəm olduğunu aydın şəkildə nümayiş etdirir.

*

**Özbəkistan Mədəniyyəti Günləri çərçivəsində dekabrın 15-də Heydər Əliyev Sarayında Özbəkistanın "Navruz" Milli Rəqs Ansamblının konserti keçirilib. Konsertdə instrumental heyətin müşayiəti ilə dahi özbək şairi Əlişir Nəvainin "Xəmsə"sindən "Fərhad və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" əsərləri əsasında hazırlanan musiqili-xoreoqrafik kompozisiyalar təqdim olunub.**

Proqramda qardaş ölkənin müxtəlif bölgələrinin koloritini əks etdirən milli rəqslər və mahnılar şövqlə nümayiş etdirilib. Özbəkistanın Əməkdar artisti Mohiçehra Şomuradova ifasında "Küçələrə su səpmişəm" Azərbaycan Xalq mahnısı sürəkli alqışlarla qarşılanıb. Özbəkistanın Əməkdar artistləri Tulkin Jabborov və Yulduz Turdiyeva öz ifaları ilə gecəyə rəng qatıblar.

Y.Turdiyeva özbək kompozisiyaları ilə yanaşı, "Qarabağ" mahnısını da ifa etməsi könülləri oxşayıb. Xalqlarımızı əsrlərdən gələn ümumtürk kimliyi, ortaq tarix və mədəni köklər, eyni dəyərlər birləşdirir. Bu bağlılıq yüzilliklər boyu davam edən ədəbiyyat, musiqi, incəsənət və mənəvi irs mübadiləsi ilə bu günə qədər canlı şəkildə qorunub saxlanılıb. Ortaq dil, adət-ənənələr və dünyagörüşü xalqlarımız arasında sarsılmaz bir mənəvi körpü formalaşdırıb.

İki ölkə arasında siyasi münasibətlər isə dövlət başçılarımızın uzaqgörən, strateji və qətiyyətli siyasəti, eləcə də qarşılıqlı etimada əsaslanan şəxsi dostluqları sayəsində sadə tərəfdaşlıq mərhələsini geridə qoyaraq müttəfiqlik zirvəsinə yüksəlib. Bu müttəfiqlik regional və beynəlxalq müstəvidə ortaq maraqların qorunmasına xidmət edən möhkəm siyasi xətt kimi çıxış edir. Məhz bu siyasi həmrəyliyin təbii davamı olaraq, hazırda qardaş ölkələrimiz arasında mədəni əməkdaşlıq əlaqələri də özünün intibah dövrünü yaşayır. Birgə layihələr, qarşılıqlı mədəni günlər, sərgilər, ədəbi görüşlər və sənət mübadilələri xalqlarımızın bir-birini daha yaxından tanımasına, ortaq irsin yeni nəsillərə ötürülməsinə və ümumtürk mədəni məkanının daha da zənginləşməsinə mühüm töhfə verir.

**Özbəkistan Mədəniyyəti Günlərinin bağlanış mərasiminin qardaş ölkə tərəfindən 2023-cü ildə Füzuli şəhərində tikilib istifadəyə verilən Mirzə Uluqbəy adına tam orta məktəbdə keçirilməsi planlaşdırılır. Eyni zamanda, Bakıda Özbəkistan nümayəndə heyətinin üzvləri üçün mədəni proqram da təşkil olunur.**

Xatırladaq ki, 2023-cü ildə Bakıda Özbəkistan Mədəniyyəti Günləri, 2024-cü ildə isə Daşkənddə Azərbaycan Mədəniyyəti Günləri keçirilib. 2 il öncə Özbəkistan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən mədəniyyət günləri çərçivəsində tanınmış özbək sənətçilərinin iştirakı ilə böyük konsert proqramı, eyni zamanda, teatr tamaşalarının nümayişi, kitab sərgisinin keçirilməsi və digər tədbirlərlə yadda qalıb.

Dörd gün davam edəcək mədəniyyət günləri çərçivəsində məşhur sənətçilərdən Özbəkistanın Xalq artistləri Fərrux Zakirov, Nəsibə Abdullayeva, Haşimjon İsmayılov, Zulayxo Boyxanova, Gulsanam Mamazoitova, Jenisbek Piyazov, Samandar Alimov və başqaları azərbaycanlı sənətsevərlərin qarşısında öz performanslarını göstəriblər.

Ötən il isə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 10-14 iyun tarixlərində Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri keçirilib.

İyunun 11-də Daşkənddəki Özbəkistan Forumlar Sarayında Azərbaycan Mədəniyyəti Günlərinin qala konserti gerçəkləşib.

Gecədə hər iki ölkənin mədəniyyət nazirləri Adil Kərimli, Ozodbek Nazarbekov, digər rəsmilər, tanınmış mədəniyyət və incəsənət xadimləri, Azərbaycan musiqisinin, muğamının pərəstişkarı olan yüzlərlə tamaşaçı iştirak ediblər.

***Ləman TƏHMƏZ,***
***Fidan ƏLİYEVA***
***XQ***

# Doktorantların və gənc tədqiqatçıların elmi məclisi

*XXVIII respublika konfransında 610 məruzə dinlənilir*

**Dekabrın 16-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Doktorantların və gənc tədqiqatçıların XXVIII respublika elmi konfransı"nın açılış mərasimi olub. Konfransın keçirilməsində əsas məqsəd gənc tədqiqatçıların elmi fəaliyyətini stimullaşdırmaq, elmi fikir mübadiləsi və təcrübə paylaşımı üçün platforma yaratmaqdır.**





Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və ADNSU-nun birgə təşkilatçılığı ilə keçirilən konfransda dövlət rəsmiləri, yerli və xarici qonaqlar, tanınmış elm xadimləri, ali təhsil müəssisələrinin rektorları, professor-müəllim heyəti, doktorantlar və gənc tədqiqatçılar iştirak edirlər.

ADNSU-nun rektoru Rüfət Əzizov açılış nitqində uzun illərdir konfransın ölkənin elmi həyatında mühüm platforma rolunu oynadığını bildirdi. XXVIII konfransda dayanıqlı inkişaf məqsədlərinin əhatə olunduğunu vurğulayan rektor statistik göstəricilərə əsaslanaraq qeyd etdi ki, bu məclis ölkəmizdə iştirakçı sayına görə liderdir. Eyni zamanda, qəbul edilmiş məqalələrin sayı 600-ü ötüb, konfransa Azərbaycandan 61, xarici ölkələrdən isə 11 ali təhsil müəssisəsi və institutun doktorant və gənc tədqiqatçılarının tezisləri qəbul olunub. Rektor ADNSU-da gənc alimlər üçün yaradılmış elmi mühitdən və gənc tədqiqatçıların təşviqinə yönəlmiş imkanlardan danışaraq dedi:

– Builki konfrans əvvəlki illərlə müqayisədə böyük maraqla qarşılanıb və rekord sayda - 649 iştirakçı öz elmi materialları ilə konfransa müraciət edib. Daxil olan müraciətlər konfransın müəyyən edilmiş tələblərinə uyğun şəkildə qiymətləndirilib və nəticədə 610 elmi iş qəbul olunub. Bu göstərici ümumi müraciətlərin təxminən 93 faizini təşkil edir və konfransın həm elmi səviyyəsinin, həm də təqdim olunan materialların keyfiyyətinin yüksək olduğunu deməyə əsas verir. Vurğulamaq istərdim ki, cari il konfransda iştirak edən doktorantlar və gənc tədqiqatçılar ölkə daxilində 61 ali təhsil müəssisəsi və elmi tədqiqat institutunu təmsil edirlər.

Konfrans beynəlxalq miqyasda da maraq doğurub. Belə ki, xarici ölkələrin 11 universitetindən, xüsusilə Türkiyə və Almaniyada təhsil alan doktorantlardan materiallar göndərilib. Bu baxımdan qeyd etmək olar ki, istər iştirakçı sayına, istərsə də təqdim olunan materialların keyfiyyətinə görə NASCO XXVIII indiyədək keçirilən konfranslar arasında ən yüksək göstəricilərlə yadda qalıb.

Konfransın əhəmiyyəti ondan ibarətdir ki, bu platforma ölkəmizdə gənc tədqiqatçılar və doktorantların elmi tədqiqat bacarıqlarının inkişaf etdirilməsi, eləcə də elmi nəşrlərin beynəlxalq standartlara uyğun hazırlanması sahəsində təcrübələrinin artırılması üçün geniş imkanlar yaradır. Qeyd etmək lazımdır ki, bu ildən etibarən konfransın qəbul qaydaları daha da təkmilləşdirilib, qəbul olunan hər bir elmi məqaləyə müvafiq sahə üzrə digər mütəxəssislər tərəfindən əlavə rəy verilir.

Eyni zamanda, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin son illərdə əldə etdiyi elmi tədqiqat nəticələrini də təqdim etdik. Diqqətinizə çatdırım ki, son beş il ərzində universitetin elmi tədqiqat göstəriciləri təxminən 5,5 dəfə artıb. Kəmiyyət artımı ilə yanaşı, elmi məqalələrə istinadların sayı da təqribən 4 dəfə yüksəlib. Bu göstəricilər universitetdə elmin inkişafının keyfiyyət baxımından da dinamik xarakter aldığını göstərir. Onu da deyim ki, bu cür ölçüləbilən meyarların olması elmin hansı istiqamətdə inkişaf etdiyini, gələcəkdə hansı resurslara ehtiyac olduğunu aydın şəkildə ortaya qoyur. Bu isə təkcə ADNSU-nun deyil, ümumilikdə respublikamızda fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinin inkişaf strategiyalarının hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir.

Elm və təhsil naziri Emin Əmrullayev ölkənin elm və təhsil sahəsində əldə olunmuş nailiyyətlər və gələcək prioritetlər barədə danışdı. Nazir çıxışında xüsusilə vurğuladı ki, elm və təhsil ölkəmiz üçün strateji prioritetdir və məqsəd nəzəri biliklərin artırılması ilə yanaşı, həm də elmin iqtisadiyyat və cəmiyyətlə inteqrasiyasını gücləndirməkdir.

Sentyabr ayından etibarən ölkədə tətbiq olunacaq yeni nəsil doktorantura proqramları gənc alimlərə elmi fəaliyyətlərini beynəlxalq standartlara uyğun aparmağa imkan verəcək. Ali təhsildə multidisiplinar yanaşmanın genişləndirilməsi, AMEA-da aparılan struktur islahatları, qrant və maliyyə mexanizmlərinin modernləşdirilməsi, startap ekosistemi və texnoparkların inkişafı Azərbaycan elmi potensialını gücləndirib. Bu islahatlar və təşəbbüslər ölkəmizin elm və innovasiya sahəsində gələcək inkişafına əsas yaradır.

Nazir çıxışının sonunda konfransın elmi nəticələrin təqdimatı və fikir mübadiləsi baxımından vacib platforma olduğunu qeyd edərək konfransın işinə uğurlar arzuladı.

Qeyd edək ki, 2 gün davam edəcək konfrans çərçivəsində "Akademik Yusif Məmmədəliyevin ölməz irsi və müasir kimyanın perspektivləri", "Elm əsaslı innovasiya" mövzularında panel müzakirələr aparılacaq və müxtəlif elmi istiqamətləri əhatə edən məruzələr dinləniləcək.

***Mehparə ƏLİYEVA***
***XQ***

# BMT Azərbaycanın sivil dialoq modelini dəstəkləyir



**Dekabrın 16-da Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə BMT-nin Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC) üzrə ali nümayəndəsi və islamofobiya ilə mübarizə üzrə xüsusi elçisi Migel Anxel Moratinos arasında görüş keçirilib.**

Söhbət zamanı Azərbaycan ilə BMT-nin Sivilizasiyalar Alyansı arasında mövcud əməkdaşlıq münasibətləri və bu əməkdaşlığın gələcək inkişaf istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb. Növbəti il Bakı şəhərində UNAOC-un tərəfdaşlığı ilə VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili məsələləri müzakirə olunub. Eyni zamanda, alyansın XII Qlobal Forumunun 2027-ci ildə Azərbaycanda keçirilməsi təşəbbüsünün UNAOC Dostlar Qrupu ilə birgə müzakirə edilməsi barədə razılıq əldə olunub.

Görüşdə "Bakı prosesi" çərçivəsində formalaşmış tərəfdaşlığın beynəlxalq mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynadığı vurğulanıb. Müzakirə zamanı Azərbaycanın UNAOC-la birgə həyata keçirdiyi təşəbbüslər, o cümlədən əvvəlki illərdə təşkil olunmuş beynəlxalq forumlar, cari dövrdə keçirilən tədbirlər və növbəti mərhələdə planlaşdırılan forumlar barədə fikir mübadiləsi aparılıb. Bu platformaların multikultural dəyərlərin təşviqi, dini və mədəni dözümlülüyün möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib.

Qlobal çağırışlar fonunda mədəni diplomatiyanın rolu, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsi imkanları da müzakirə olunub. Tərəflər Azərbaycan ilə UNAOC arasında əməkdaşlığın bundan sonra da qarşılıqlı hörmət və ortaq dəyərlər əsasında inkişaf etdirilməsinin vacibliyini qeyd ediblər.

***XQ***

*Sosial gündəm*

# Pensiyalarda artım gözlənilir

*Gələn il ayrılan məbləğ 1,5 milyard manat artaraq 8 milyard manatı ötəcək*



**Ölkəmizdə aparılan sosial islahatların mühüm bir istiqaməti 1,1 milyon insanı əhatə edən pensiya təminatıdır. Dövlət başçısının fərman və sərəncamları ilə 2018-ci ildən icra olunan, 4 milyondan çox vətəndaşı əhatə edən, illik əlavə maliyyə tutumu 7,6 milyard manat olan 5 islahat paketi nəticəsində sosial ödənişlərdə ciddi artımlara - minimum pensiyada 3 dəfəyədək, aylıq pensiyada 2,6 dəfə artıma nail olunub. 2025-ci ilin əvvəlindən bütün pensiyalar indeksləşdirilərək 8,1 faiz artırılıb, minimum pensiya isə 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən XQ-yə verilən məlumatda bildirilir ki, 2018-ci ildən bəri orta aylıq pensiya 208 manatdan 540 manata, yaşa görə isə 234 manatdan 575 manata çatıb. 2026-cı ildə də pensiyaların indeksləşdirilərək artırılması gözlənilir. Bu da pensiyalarda növbəti artımlara imkan verəcək. Nəticədə, gələn il 590 manata və yaşa görə 629 manata çatacağı proqnozlaşdırılır. Bu da 2018-ci ilə nisbətən orta aylıq pensiyada 2,8 dəfə, yaşa görə 2,7 dəfə artım deməkdir.

Ümumilikdə, Dövlət Sosial Müdafiə Fondundan (DSMF) gələn il pensiya təminatı istiqaməti üzrə 7 milyard 993 milyon manat vəsait yönəldiləcək. 2018-ci ilə nisbətən bu göstəricidə 2,3 dəfə artım olacaq. Onu da bildirək ki, son illər humanist yanaşmalar tətbiq olunmaqla pensiya təminatına əlçatanlıq xeyli artırılıb. Erkən dövrdə yaşa görə pensiya hüququ yaranan şəxslərin sırası daha da genişləndirilib. Məsələn, 2019-cu ilin əvvəlindən pensiya yaşına çatan və fərdi hesabında hətta ən kiçik məbləğdə pensiya kapitalı olanlara avtomatik pensiya hüququ verilir.

Son illər qanunvericilikdə bir çox əlavə və dəyişiklik edilməklə erkən pensiya hüququ olan kateqoriyaların sırası da genişləndirilib. Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən əmək sahələri sırasına isə yeni vəzifə və peşələr əlavə edilib. Bunun nəticəsi olaraq hazırda pensiya hüququ qazananların bir hissəsi müəyyən edilmiş yaşdan daha tez təqaüdə çıxırlar.

Yaşa görə pensiya təminatı ilə bağlı gözlənilən pensiya ödənişi müddəti 12 il (144 ay) götürülsə də, təhlillər göstərir ki, ölkəmizdə yaşa görə pensiya alanların 60 faizi 12 ildən artıqdır ki, pensiya alanlardır.

Növbəti dövlət büdcəsi ölkəmizdə sosial müdafiə xərclərində artım dinamikasının gələn il də davam edəcəyini, əhalinin rifahının yüksəldilməsi və həssas qrupların sosial müdafiəsinin dövlətin diqqət mərkəzində dayandığını bir daha təsdiq edir. DSMF-nin əhaliyə ödənişləri üzrə xərcləri 2024-cü ilə nisbətən 1 milyard 534 milyon manat, bu illə müqayisədə isə təqribən, 800 milyon manat çox olmaqla gələn il 8 milyard 196 milyon manata çatacaq. Bu da təkcə son 2 ildə fondun əhaliyə ödənişlərində 1,5 milyard manatdan artıq artımın olduğunu göstərir.

***Mustafa KAMAL***
***XQ***

# “Ağ qızıl”ın cəfası və səfası



## Müstəqillik dövrünün ilk pambıq rekordu – 355,7 min ton!

**Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, dekabrın 15-dək ölkə üzrə 100 min 468 hektar sahədən 355,7 min ton xam pambıq tədarük olunub. Hər hektarın orta məhsuldarlığı 35,40 sentnerə yüksəlib. Ötən il isə 103 min hektardan artıq sahədə pambıq əkilib və 307 min tondan çox məhsul götürülüb.**

Beləliklə, əkin sahələrinin azalmasına baxmayaraq, məhsul həcminin və məhsuldarlığın kəskin artması ilə pambıqçılıq müstəqillik dövründə ən yüksək göstəricilərlə yeni bir tarixi inkişaf mərhələsinə daxil olub. Bu mühüm nəticələr təsadüfi xarakter daşımır. Çünki pambıqçılıqda əldə edilən uğur aqrar sektorda həyata keçirilən davamlı dövlət siyasətinin, institusional islahatların, texnoloji yenilənmənin və fermer maraqlarının uzlaşdırılmasının məntiqi nəticəsidir.

### Yüksəlişin səbəbləri və strateji əhəmiyyəti

Xatırladaq ki, pambıqçılığın inkişafı uzun müddətdir ki, Azərbaycanın aqrar siyasətində üstün istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatının şaxələndirilməsi, qeyri-neft ixracının artırılması və regionlarda məşğulluğun gücləndirilməsi məqsədilə bu sektor strateji sahə elan olunub. Dövlət proqramları çərçivəsində pambıq istehsalçılarına subsidiyaların verilməsi, güzəştli kreditlərin ayrılması, texnika və gübrə təminatının gerçəkləşdirilməsi, eləcə də məhsulun tədarükünə dövlət dəstəyi mexanizmlərinin yaradılması gerçəkləşdirilib.

Xüsusilə qeyd edilməlidir ki, subsidiyaların elektron kənd təsərrüfatı sistemi vasitəsilə şəffaf şəkildə verilməsi fermerlərin bu sahəyə marağını artırıb. Yenilik qeyri-formal münasibətləri minimuma endirib. Artıq istehsal edilən məhsulun hər kiloqramına görə əvvəlcədən müəyyənləşdirilən dövlət dəstəyi pambıqçılığın inkişafına yeni təkan verib.

Son illər pambıqçılıqda aqrotexniki tədbirlərin elmi əsaslarla həyata keçirilməsi nəticəsində məhsuldarlıq sürətlə artıb. Torpaq analizlərinin genişləndirilməsi, düzgün əkin dövriyyəsinin tətbiqinə üstünlük verilməsi, keyfiyyətli toxum materiallarından istifadənin diqqət mərkəzində saxlanılması və vaxtında suvarma prosesinin reallaşdırılması bu sahədə göstəricilərin yüksəlməsinə mühüm təsir göstərib. Xüsusilə yüksək reproduksiyalı, xəstəliklərə davamlı toxum sortlarının tətbiqi hektarın məhsuldarlığını əhəmiyyətli dərəcədə artırıb. Bu yanaşma pambıqçılıqda əsas məsələnin – əkin sahəsinin genişləndirilməsi ilə bərabər, həm də hər hektardan maksimum səmərə əldə etməyin zəruri olduğunu təsdiq edib.

Məhsuldarlığın yüksəlməsində suvarma sistemlərinin yaxşılaşdırılması da əhəmiyyətli rol oynayıb. Son illər regionlarda kanalların bərpası, nasos stansiyalarının yenilənməsi və damcı suvarma texnologiyalarının tətbiqinin diqqətdə saxlanılması pambıq sahələrinin su ilə təminatını xeyli yaxşılaşdırıb. Suvarmanın vaxtında və normaya uyğun aparılması bitkinin inkişafına müsbət təsir göstərib, məhsul itkisini azaldıb. Bununla da pambıqçılıqda yüksək nəticələrin fermer zəhməti və infrastruktur yatırımları ilə əldə edilməsi qənaəti möhkəmlənib.

Pambıqçılıqda rekord göstəricilərin qeydə alınmasının digər mühüm bir səbəbi isə müasir kənd təsərrüfatı texnikasının geniş tətbiqi ilə bağlı olub. Əkin, becərmə və xüsusilə yığım prosesində kombaynların geniş istifadəsi itkiləri minimuma endirib, məhsulun keyfiyyətini yüksəldib. Əl əməyindən asılılığın azalması həm məhsuldarlığı artırıb, həm də mövsümi işçi çatışmazlığı problemin qarşısını xeyli alıb.

Rekord göstəricilərin arxasında dayanan əsas amillər kompleks xarakter daşıyır. Dövlət dəstəyi ilə yanaşı, fermerlərin bilik səviyyəsinin yüksəlməsi və texnologiyaya çıxış imkanlarının genişlənməsi bu məsələdə mühüm rol oynayır. Aqrar məsləhət xidmətlərinin gücləndirilməsi, torpaq analizlərinin aparılması və sahələr üzrə fərqli gübrələmə yanaşmalarının tətbiqi də məhsuldarlığa əsaslı təsir göstərir. Ənənəvi üsullarla fəaliyyət göstərən təsərrüfatlarla innovativ yanaşmaya üstünlük verən fermerlər arasındakı fərq isə artıq qabarıq şəkildə nəzərə çarpır.

Son illər pambıq tədarükü və emalı zəncirində münasibətlər də daha institusional xarakter alıb. Fermerlə emal müəssisəsi arasında müqavilənin bağlanılması, tədarük qiymətlərinin əvvəlcədən müəyyənləşdirilməsi istehsalçı üçün riskləri azaldıb. Fermerin artıq məhsulu harada və hansı şərtlərlə təhvil verəcəyini əvvəlcədən bilməsi nəticəsində istehsala inam daha da güclənib.

Pambıqçılıqda yüksək artım əldə edilməsi təkcə statistik göstərici deyil, eyni zamanda, sosial-iqtisadi səmərəliliklə bağlı bir prosesdir. Bu sahə minlərlə insanın mövsümi və daimi məşğulluğunu təmin edir, regionlarda gəlir səviyyəsinin artmasına şərait yaradır. Xüsusilə kənd yerlərində pambıqçılıq ailə təsərrüfatlarının əsas gəlir mənbələrindən biri kimi diqqət çəkir.

Yeri gəlmişkən, mövcud göstəricilər pambıqçılığın inkişaf potensialının hələ tam tükənmədiyini göstərir. Qarşıdakı mərhələdə əsas hədəf məhsuldarlığın daha da artırılması, su və torpaq resurslarından səmərəli istifadə edilməsi, emal sənayesinin genişləndirilməsi və pambıqdan əldə olunan hazır məhsulların ixrac payının yüksəldilməsidir. Bu isə son nəticədə artıq xammal ixracından dəyər zəncirinin yuxarı mərhələlərinə keçidin reallaşdırılmasıdır.

Göründüyü kimi, pambıq tədarükü və orta məhsuldarlıq üzrə müstəqillik dövrünün ən yüksək göstəricilərinin əldə edilməsi kompleks amillərin və düşünülmüş dövlət siyasətinin gerçəkləşdirilməsi nəticəsində mümkün olub. Dövlət dəstəyi, elmi yanaşma, texnologiya, infrastruktur və fermer maraqlarının uzlaşdırılması bu sektoru yenidən respublikanın aparıcı aqrar sahələrindən birinə çevirib. Bu uğur modeli digər sahələr üçün də nümunə kimi dəyərləndirməni şərtləndirib.

### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

İqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində strateji önəm daşıyan pambıq istehsalı son illərdə dövlətin məqsədyönlü siyasəti, fermerlərin maraqlarının artırılması, innovativ texnologiyaların tətbiqi və müasir emal müəssisələrinin qurulması nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyub.

Pambıq yalnız kənd təsərrüfatı məhsulu deyil, həm də sənaye üçün strateji xammaldır. Bu baxımdan, pambıqçılığın inkişafı həm kənd təsərrüfatının, həm də yüngül sənayenin tərəqqisinə təkan verir. Hazırda respublikada bu sahə sürətlə inkişaf etməkdədir. Dövlət dəstəyi və subsidiya mexanizmləri, texnikanın güzəştli şərtlərlə fermerlərə təqdim olunması, müasir suvarma sistemlərinin tətbiqi və aqrotexniki xidmətlərin gücləndirilməsi nəticəsində məhsuldarlıq da getdikcə artır. Belə ki, əgər əvvəllər hər hektardan 15–20 sentner məhsul götürülürdüsə, operativ məlumata əsasən, cari mövsümdə bu göstərici 35,40 sentner, tədarükü isə 355,7 min ton təşkil edir.

Pambıq istehsalının artması emal sənayesinin də genişlənməsini zəruri edib. Bu, bölgələrdə yeni pambıq emalı zavodlarının inşa olunması, mövcud olanların modernləşdirilməsinin həyata keçirilməsi ilə öz ifadəsini tapıb. Belə müəssisələrdə qabaqcıl texnologiyaların tətbiqinə üstünlük verilib. Bununla da mahlıcın keyfiyyətinin yüksəlməsinə, itkilərin minimuma endirilməsinə və ixrac üçün rəqabətqabiliyyətli məhsulun əldə edilməsinə nail olunub.

Hazırda pambıqçılıq üzrə klaster modelinin tətbiqi istiqamətində önəmli layihələr gerçəkləşdirilir. Belə bir yanaşma fermerlərdən tutmuş emal müəssisələrinə, hazır tekstil fabriklərindən ixrac şirkətlərinə qədər bütün zənciri vahid sistemdə birləşdirir. Bu isə səmərəliliyin artırılmasına, istehsalın şəffaf idarə olunmasına və iqtisadi dəyərin ölkə daxilində formalaşmasına zəruri şərait yaradır.

Lakin xammal ixracı ilə kifayətlənməklə yüksək gəlir əldə etmək mümkün olmur. Ona görə də hazırda qarşıya qoyulan əsas məqsəd pambığı hazır tekstil məhsuluna çevirərək ixracının gerçəkləşdirilməsidir.

### Pambıqçılığın inkişaf dinamikası

Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata əsasən, 2025-ci ildə respublikanın 16 rayonunda çiyid səpini aparılıb. Əkinin, təxminən, 86 faizə yaxın hissəsi pambıqçılıq üzrə ixtisaslaşan 9 rayonda (Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar, İmişli, Neftçala, Saatlı, Sabirabad və Salyan) reallaşıb. Bu rayonlarda pambıq əkinlərinin ümumi ərazisi 86 min hektara çatdırılıb. Cari il ən çox pambıq Saatlı (12 min 634 hektar), Ağcabədi (11 min 822 hektar) və Sabirabad (11 min 86 hektar) rayonlarında əkilib.

Yuxarıda qeyd etdiyimiz kimi, ölkədə pambıq əkini torpaq mülkiyyətçisi olan fermerlərlə pambıq tədarükü və emalı şirkətləri arasında bağlanan müqavilələr əsasında aparılır. İmzalanan müqaviləyə əsasən, şirkət fermeri zəruri toxum, gübrə, pestisid və herbisidlərlə təmin edir, onun torpağın əkinə hazırlanması, aqrotexniki qulluğun göstərilməsi və məhsulun yığılması ilə bağlı texnika təchizatını həyata keçirir, bitkinin vegetasiya dövründə fermerə zəruri məsləhətlər üçün aqronom ayırır, əkin xərclərini qarşılamaq üçün avans verir. Fermer isə bütün bunların qarşılığında məhsulu yetişdirmək və müqavilədə göstərilən qiymətə şirkətə təhvil vermək öhdəliyinə malikdir. “Contract farming” formatında müqaviləli əkin fermerlərin əkin xərclərini və məhsul satışı problemini aradan qaldıran üsul kimi respublikada uzun illərdir ki, tətbiq olunur və özünü uğurla doğruldur.

Bu günədək pambıq üzrə ən yüksək məhsuldarlıq Beyləqan rayonunda qeydə alınıb. Burada hektarın orta məhsuldarlığı 41,26 sentner olub. Dekabrın 11-dək rayon üzrə əkin aparılan 8 min 898 hektar sahədən 36 min 712 ton məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib.

Hektara görə orta məhsuldarlıq göstəricisində növbəti yerləri Neftçala (39,69 sentner), Biləsuvar (39,49 sentner), Tərtər (37,51 sentner), Bərdə (36,15 sentner) və Saatlı (35,89 sentner) tutur. Bu rayonlarda pambıq üzrə orta məhsuldarlıq göstəricisi ümumrespublika göstəricisindən yüksəkdir.

Azərbaycanda pambıqçılıq əsasən Aran iqtisadi rayonunda formalaşsa da, son illər regionlar üzrə məhsuldarlıq göstəricilərində ciddi fərqlər və müsbət dinamika müşahidə olunur. Saatlı, İmişli, Sabirabad və Beyləqan rayonları ənənəvi olaraq pambıq istehsalında lider mövqedədir. Bu rayonlarda orta məhsuldarlıq bəzi təsərrüfatlarda hektardan 38–40 sentnerə qədər yüksəlib. Buna isə torpaqların münbitliyi, suvarma şəbəkəsinin nisbətən inkişaf etməsi və iri fermer təsərrüfatlarının mövcudluğu ilə nail olunub.

Ağcabədi, Bərdə və Yevlax rayonlarında son illər məhsuldarlıq artımı xüsusilə diqqət çəkir. Əvvəllər orta göstəricilərlə kifayətlənən bu regionlarda aqrotexniki tədbirlərin təkmilləşdirilməsi və toxumçuluğun yenilənməsi nəticəsində məhsuldarlıq 33-36 sentner səviyyəsinə yüksəlib. Bu da göstərir ki, düzgün idarəetmə və texnologiya tətbiqi torpaq potensialını tam üzə çıxara bilir.

Ucar, Zərdab və Kürdəmir rayonlarında isə əsas problem uzun illər suvarma ilə bağlı olub. Son dövrdə meliorasiya layihələrinin icrası, kanalların təmizlənməsi və su itkilərinin azaldılması bu ərazilərdə pambıqçılığın dirçəlməsinə şərait yaradıb. Nəticədə məhsuldarlıq artımı həmin rayonlarda da müşahidə olunur, lakin potensial hələ tam reallaşmayıb.

Regionlar üzrə müqayisə göstərir ki, pambıqçılıqda uğur yalnız təbii şəraitdən deyil, idarəetmə keyfiyyəti və investisiya səviyyəsindən birbaşa asılıdır. Bu sahənin inkişafı regionlarda sosial sabitliyə müsbət təsir göstərir. Belə ki, mövsümi işlərlə yanaşı, emal və logistika sahələrində də daimi iş yerləri yaranır. Bu isə kənd yerlərindən şəhərlərə miqrasiyanın qarşısının alınmasına xidmət edir.

### Subsidiyalaşma maraq yaradır

Kənd Təsərrüfatı Nazirliyindən bildirilib ki, ölkəmizdə pambıq əkinləri dövlət tərəfindən subsidiyalaşdırılır. Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2025-ci təsərrüfat ilində müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrdə yetişdirilmiş məhsulu pambıq emalı və tədarükü şirkətlərinə təhvil verən fermerlər hər tona görə dövlətdən 210 manat subsidiya alacaqlar. Ənənəvi üsulla suvarılan sahələrdə yetişdirilib tədarük məntəqələrinə təhvil verilən pambığın hər tonuna görə isə fermerlərə 195 manat subsidiya ödəniləcək.

Pambığa görə məhsul subsidiyası bu il dekabr ayının 15-dək məhsulun təhvil verilməsinə dair qəbzləri Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil edən fermerlərə verilir.

Cari il Aqrar Subsidiya Şurası növbəti təsərrüfat ili üçün pambıq istehsalına görə məhsul subsidiyasının artırılması barədə qərar qəbul edib. 2026-cı ildə fermerlərə müasir suvarma sistemləri ilə təmin olunmuş əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə 215 manat, müasir suvarma sistemləri ilə təmin olunmamış əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə isə 200 manat subsidiya ödənilməsi nəzərdə tutulur.

Gələn il pambıq üzrə məhsul əmsalı Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Biləsuvar, Goranboy, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Tərtər, Yevlax, Zərdab rayonlarına, habelə Cəlilabad rayonunun Günəşli və Təzəkənd kəndlərinə və Ucar rayonunun Xələc kəndinə şamil ediləcək, digər rayonlarda əkiləcək pambığa görə isə məhsul subsidiyası ödənilməyəcək.

### Sabaha inamla...

Bütün müsbət göstəricilərə baxmayaraq, qarşıda müəyyən çağırışlar da mövcuddur. Su resurslarının məhdudluğu, iqlim dəyişiklikləri və dünya bazarında qiymət dalğalanmaları pambıqçılığın davamlı inkişafını risk altına sala bilər. Buna görə də daha qənaətcil suvarma texnologiyalarının tətbiqi, sığorta mexanizmlərinin genişləndirilməsi və fermerlərin bazar risklərindən qorunması vacibdir.

Beləliklə, pambıq tədarükü və orta məhsuldarlıq üzrə müstəqillik dövrünün ən yüksək göstəricilərinin əldə olunması təkcə aqrar uğur deyil, həm də regional inkişaf, sənayeləşmə və ixrac strategiyasının birləşməsidir. Regionlar üzrə balanslı inkişaf, tekstil sənayesinin genişləndirilməsi və dəyər zəncirinin ölkə daxilində tamamlanması pambıqçılığı Azərbaycanın qeyri-neft iqtisadiyyatının əsas sütunlarından birinə çevirir.

***Vaqif BAYRAMOV***
***XQ***

***Xuntaçıların məhkəməsi***

# Ruben Vardanyanın məhkəmə istintaqı yekunlaşdı

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 16-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra R.Vardanyanın müdafiəçisi Emil Babışov iki vəsatət təqdim edib. Bildirib ki, sentyabrın 16-da keçirilmiş məhkəmə prosesi zamanı hüquqlarını qoruduğu təqsirləndirilən şəxs Ruben Vardanyan bir neçə vəsatət verib. Həmin vəsatətlərdən biri də şahid qismində Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəsinin məhkəmədə iştirakının təmin edilərək dindirilməsi barədə olub. Emil Babışov qeyd edib ki, müdafiə tərəfinin mövqeyinə görə, həmin təşkilatın nümayəndəsinin məhkəmədə şahid qismində iştirakı zəruridir. Belə ki, təqsirləndirilən şəxsin bildirdiyinə görə, ibtidai istintaq zamanı, eləcə də məhkəmə istintaqı dövründə müxtəlif vaxtlarda BQXK-nın nümayəndələri Ruben Vardanyanın müvəqqəti saxlanıldığı yerə gələrək, onunla görüşüblər. Onun ərzaqla və geyimlə təmin olunmasına, ailə üzvləri ilə əlaqə saxlanılmasına köməklik göstəriblər.



Vəkil bildirib ki, təqsirləndirilən şəxsin mövqeyinə əsasən, Komitə nümayəndəsinin məhkəmədə iştirakının təmin olunmasında əsas məqsəd onun cinayət prosesində statusunun müəyyənləşdirilməsindən ibarətdir. Bu səbəbdən, BQXK-nın nümayəndəsinin məhkəmədə şahid qismində iştirakının təmin olunmasına köməklik göstərilməsini xahiş edir.

Təqsirləndirilən Ruben Vardanyan da hüquqlarını qoruyan vəkilinin vəsatətini müdafiə etdiyini bildirib. Vəsatətə münasibət bildirən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev Ruben Vardanyanın hazırda məhkəmədə baxılan cinayət işi üzrə statusunun təqsirləndirilən şəxs olduğunu xatırladıb. Vurğulayıb ki, Ruben Vardanyan Azərbaycan Cinayət Prosessual Məcəlləsinə uyğun olaraq təqsirləndirilən şəxs qismində cəlb olunub və ona ittiham elan edilib.

Bundan başqa, ona hüquqları izah olunub və bu barədə bildirişlər təqdim edilib, ibtidai istintaq zamanı təqsirləndirilən şəxs qismində dindirilib. Bir ilə yaxındır davam edən məhkəmə prosesində təqsirləndirilən şəxs kimi öz hüquqlarından istifadə edir, hüquqlarını müdafiə edir, eləcə də vəsatətlər verərkən Cinayət Prosessual Məcəlləsinin 91-ci maddəsinə dəfələrlə özü istinad edib. Təqsirləndirilən şəxs kimi hüququndan istifadə edərək məhkəmə baxışı zamanı ifadə verməkdən də imtina edib.

İttiham tərəfi hesab edir ki, Ruben Vardanyan özü də təqsirləndirildiyi cinayət işi üzrə prosessual statusunu başa düşür və dərk edir.

Göstərilən halda hər hansı beynəlxalq təşkilatın nümayəndəsinin məhkəmədə verəcəyi ifadənin şəxsin statusunu necə dəqiqləşdirəcəyi və ya nəyi müəyyənləşdirəcəyi təbii ki, qeyri-müəyyən haldır. Digər tərəfdən, beynəlxalq təşkilatın nümayəndəsi məhkəmə prosesində hansısa şəxsin statusunu müəyyənləşdirmir.

Qeyd olunanları nəzərə alaraq dövlət ittihamını müdafiə edən prokuror məhkəmədən vəsatətin təmin olunmamasını xahiş edib.

Məhkəmə tərəfləri dinlədikdən sonra yerində müşavirə keçirərək qərar qəbul edib.

Qərara əsasən, vəsatət təmin olunmayıb. Qərarı əsaslandıran zaman sədrlik edən Zeynal Ağayev verilmiş vəsatətin baxılan işə aidiyyətinin olmadığını, hansısa bir sübut əhəmiyyəti daşımadığını və bu səbəbdən də rədd edildiyini deyib. Əlavə edib ki, məhkəmə şəxsin təqsirli olub-olmaması məsələsinə baxır. Hansısa beynəlxalq təşkilatın nümayəndəsinin bununla bağlı deyəcəklərinin məhkəmə üçün heç bir əhəmiyyəti yoxdur.



Sonra vəkil Emil Babışov məhkəməyə ikinci vəsatəti təqdim edib. Bildirib ki, cinayət işinin materiallarında iş üzrə təqsirləndirilən Ruben Vardanyanın istifadəsində olmuş ofisə və yaşadığı evinə baxış keçirilməsinə dair protokol və videomaterialların toplandığı disklər var. Müdafiə tərəfinin mövqeyinə görə, müvafiq istintaq hərəkətləri aparılarkən çəkilmiş videolardakı bəzi faktların aydınlaşdırılmasına zərurət olduğundan, müstəntiqin məhkəmədə şahid qismində iştirakı təmin edilərək dindirilməlidir.

Təqsirləndirilən Ruben Vardanyan vəsatəti müdafiə etdiyini deyib.

Vəsatətə münasibət bildirən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev müdafiə tərəfinin vəsatətinin əsassız olduğunu deyərək fikrini belə əsaslandırıb ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 95-ci maddəsində cinayət işi ilə əlaqədar səlahiyyətlərini yerinə yetirmiş müstəntiqin dindirilməsi üçün konkret əsaslar müəyyənləşib. Hazırda baxılan cinayət işi üzrə məhkəmə prosesində bu hallar aşkar olunmayıb. İttiham tərəfi hesab edir ki, müstəntiqin iş üzrə şahid qismində dindirilməsində zərurət yoxdur və müdafiə tərəfi fikrini kifayət qədər əsaslandırmayıb.

Qeyd edilənlər nəzərə alınmaqla vəsatətin rədd olunması xahiş edilib.

Məhkəmənin tərəflərin fikirlərini dinləyərək qəbul etdiyi qərara əsasən, verilmiş vəsatət rədd edilib. Qərar əsaslandırılan zaman vurğulanıb ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 95-ci maddəsində şahid qismində dindirilə bilməyən şəxslər müəyyən edilib və müstəntiq həmin şəxslərə aiddir.

Bundan sonra iclasa sədrlik edən hakim Zeynal Ağayev məhkəmə istintaqının yekunlaşması ilə bağlı tərəflərin fikirlərini öyrənib. Tərəflər məhkəmə istintaqının yekunlaşmasına və çıxışların başlanılmasına etiraz etmədiklərini bildiriblər.

Dövlət ittihamını müdafiə edən prokurorlar çıxışa hazırlaşmaq üçün məhkəmədən vaxt istəyiblər.

Məhkəmənin növbəti iclası dekabrın 18-nə təyin olunub.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 265 (30959) 17 dekabr 2025-ci il, çərşənbə

# Bakı 2026-cı ildə Dünyanın idman paytaxtı seçildi



**Azərbaycanın paytaxtı 2026-cı ildə "Dünya İdman Paytaxtı" elan olunub. Bu münasibətlə dekabrın 16-da dövlət rəsmilərinin və Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası (ACES) nümayəndələrinin iştirakı ilə "Dünya İdman Paytaxtları" xatirə lövhəsinin rəsmi imzalanma mərasimi keçirilib.**

"Dünya İdman Paytaxtı" titulu rəsmi olaraq Monakonun paytaxtı Monako-Vill şəhərindən Bakıya təhvil verilib. Mərasimdə gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və digər rəsmi şəxslər iştirak ediblər. Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının nümayəndə heyətini isə qurumun prezidenti Can Françesko Lupatelli, baş katib Huqo Alonso, Monako Knyazlığının sabiq təhsil, gənclər və idman naziri İzabelle Klaudio Aline Bonnal təmsil ediblər.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov zəngin idman ənənələri olan Azərbaycanın baş şəhərinin "Dünyanın İdman Paytaxtı" seçilməsinin fərəhli və məsul hadisə olduğunu bildirib. O, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizin bütün bölgələrində idman növlərinin davamlı inkişaf etdiyini deyib. Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanın bir çox beynəlxalq yarışlara və məclislərə uğurla ev sahibliyi etdiyini xatırladıb, Bakını növbəti il daha maraqlı oyunların gözlədiyini söyləyib.

Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının prezidenti Can Fransisko Lupatelli isə Bakının beynəlxalq idmanın inkişafına daim yardımçı olduğunu vurğulayaraq qeyd edib ki, bu şəhər müasir, əlverişli idman obyektləri ilə seçilir.

"İdman Paytaxtı" qurumu Brüsseldə yerləşən qeyri-kommersiya assosiasiyasıdır və hər il müxtəlif qitələrdən şəhərlərə "İdman Paytaxtı" titulu və digər idman sahəsi üzrə mükafatlar təqdim edir. Bu seçimlər demokratik prinsiplər əsasında edilməklə, cəmiyyətin sosial inteqrasiyası, psixofiziki rifahı və həyat tonusunun gücləndirilməsinə xidmət edir. Federasiya Avropa Komissiyasının İdman Həftəsinin və UNESCO-nun tərəfdaşıdır.




***Ə.ƏLİYEV,***
***R. İBRAHİMOV (foto)***
***XQ***



## İDMAN

### 4 boksçumuz Avropa finalında

**Almaniyanın Keinbaum şəhərində yeniyetmə boksçular arasında U-17 Avropa çempionatında yarımfinal mərhələsinin döyüşləri başa çatıb. Azərbaycan millisinin bu mərhələdə mübarizə aparan 4 idmançısı finala yüksəlib.**




Gülər Hüseynova (48 kq) Serana Mali (İngiltərə) ilə üzüzə gəlib. Boksçumuz inamlı çıxış sayəsində rəqibini məğlub edib – 3:2 (29:28, 29:28, 29:28, 28:29, 28:29). O, finalda Asmin Cabasla (Türkiyə) döyüşəcək.

Qardaş Rəhimov (46 kq) Rati Xarbedia (Gürcüstan) ilə qarşılaşıb. O, hər 3 raundda rəqibindən güclü olub və yekunda 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27) hesabı ilə qələbə qazanıb. Rəhimov qızıl medal uğrunda Birham-Pasa İuseimlə (Rumıniya) gücünü yoxlayacaq.

Şahin Aslanov (60 kq) da adını finala yazdırıb. O, Ceyson Maherlə (İrlandiya) dueldən qalib ayrılıb – 5:0 (30:27, 30:27, 29:28, 30:27, 30:27). Boksçumuzun finalda rəqibi Frenki Smit (İngiltərə) olacaq.

Şükar Əliyev (75 kq) isə finala döyüş keçirmədən vəsiqə qazanıb. Aleks Domjan (Macarıstan) rinqə çıxmadığı üçün millimizin üzvü qalib elan olunub. O, finalda Maykl Mauqanı (İngiltərə) sınağa çəkəcək.

Qeyd edək ki, final döyüşləri bu gün keçiriləcək.

### Antidopinq agentliklərinin Anlaşma Memorandumu

**Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) icraçı direktoru Təhminə Tağı-zadə və qurumun direktorunun müavini Rüfət Efendiyev Avstriyada işgüzar səfərdə olub. Səfər çərçivəsində Avstriyanın Milli Antidopinq Agentliyi (NADA Austria) ilə Anlaşma Memorandumu imzalanıb. Memorandumu Azərbaycan tərəfdən Təhminə Tağı-zadə və NADA Austria-nın icraçı direktoru Mixael Sepiç imzalayıblar.**




Anlaşma Memorandumu Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartlara uyğun olaraq əməkdaşlıq sahələrini müəyyən edir. Bu sahələrə nəticələrin idarə olunması, antidopinq təhsili və profilaktika, testetmə, tədqiqatlar, eləcə də təhqiqat və araşdırmalar daxildir.

Nümayəndə heyəti NADA Austria-nın qərargahında bir sıra işgüzar görüşlər də keçirib. Qonaqlara hüquq, təhsil, elm və testetmə sahəsinə dair ətraflı məlumat verilib.

Sonra AMADA nümayəndə heyəti Zaybersdorfda yerləşən, WADA tərəfindən akkreditə olunmuş Dopinq Nəzarəti Laboratoriyasında olub.

### Qadın voleybolunda VII tur

**Dünən qadın voleybolçular arasında Azərbaycan Yüksək Liqasında VII tura start verilib. İlk oyun günündə bir qarşılaşma baş tutub.**



"Murov Az Terminal"ın qonağı olan "Azərreyl" oyunu yüksək səviyyədə keçirərək rəqibə heç bir şans verməyib – 3:0. Görüş "Murov Az Terminal"ın idman zalında baş tutub.

Qeyd edək ki, tura dekabrın 19-da yekun vurulacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Göygöldə şəhid ailələri ilə görüş

**Göygöl rayonunda Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın ailə üzvləri ilə keçirilən görüşlər dərin ehtiram və kövrək duyğularla davam edir. Rayon icra hakimiyyəti başçısının iştirakı ilə təşkil olunan növbəti görüşdə şəhid ailələrinin arzu və istəkləri dinlənilib, onların qayğı və problemləri xüsusi diqqət mərkəzində saxlanılıb.**



Görüş zamanı çıxış edən RİH-in başçısı Vüqar Novruzov Azərbaycan tarixini öz qanı ilə yazan igid Vətən oğullarının adlarının xalqımızın yaddaşında əbədi yaşayacağını vurğulayıb. Bildirib ki, şəhidlərimizin əziz xatirəsi daim uca tutulur, onların ailələri isə dövlətimizin və cəmiyyətimizin ən müqəddəs əmanəti kimi qorunur. Qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanların ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir.

RİH başçısı çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən birinin məhz şəhid ailələrinin, müharibə veteranlarının və əlillərinin sosial müdafiəsinin gücləndirilməsi olduğunu bildirib. Bu kateqoriyadan olan vətəndaşların problemlərinin vaxtında və operativ şəkildə həllinin daim diqqət mərkəzində saxlanıldığı xüsusi qeyd edilib.

Görüşdə söz alan şəhid valideynləri övladlarının keçdiyi şərəfli döyüş yolundan danışaraq, onların igidliyi, mərdliyi və Vətən sevgisi ilə bağlı xatirələrini bölüşüblər. Qürurla, lakin kövrək hisslərlə danışılan bu xatirələr zalda duyğulu anlar yaşadıb. Şəhid ailələrinin müraciətləri dinlənilib, onları narahat edən məsələlər öyrənilib, problemlərin həlli istiqamətində müvafiq tapşırıqlar verilib.

Göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirən şəhid yaxınları dövlətin onlara hər zaman həssaslıqla yanaşdığını, dərdlərinə şərik olduğunu vurğulayıblar. Onlar qeyd ediblər ki, Vətən uğrunda canını fəda edən oğullarının xatirəsinin uca tutulması, ailələrinə göstərilən diqqət və ehtiram onların ən böyük təsəllisidir.

Bu görüşlər bir daha göstərir ki, şəhidlərimizin xatirəsi təkcə yaddaşlarda deyil, görülən işlərdə, göstərilən qayğıda və dövlət–vətəndaş birliyində yaşayır. Göygöldə keçirilən bu səmimi görüşlər Vətənə yazılan talelərin unudulmadığının, şəhid ailələrinin daim diqqət və qayğı ilə əhatə olunduğunun bariz nümunəsidir.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

## *Sağlamlıq*

# Mədənin altında – sağlamlığın önündə

**Mütəxəssislərin fikrincə, alkoqol, siqaret, düzgün qidalanmamaq və hərəkətsizlik bədənin ən vacib orqanlarından biri olan mədəaltı vəzi sıradan çıxarır.**

Kiçik, lakin həyat üçün vacib orqan olan mədəaltı vəz qidanın parçalanmasına kömək edən fermentləri və qan şəkərinin səviyyəsini tənzimləyən insulin və qlükaqon kimi hormonlar hazırlayır. Mədəaltı vəzin zədələnməsi iltihaba (pankreatit), şəkərli diabetə, bəzi hallarda isə xərçəngə səbəb olur. Buna görə də hansı vərdişlərin bu orqana zərər verə biləcəyini bilmək vacibdir.

Kinqston Universitetinin baş müəllimi, tədqiqatçı Dipa Kamdarın rəhbərlik etdiyi "The Conversation" jurnalında tədricən mədəaltı vəzini zədələyən təhlükə barədə söhbət açılıb. Məqalədə qeyd olunur ki, çox alkoqollu içki qəbul etmək pankreatitin əsas səbəblərindən biridir. Kəskin pankreatit şiddətli qarın ağrısı, ürəkbulanma və qusma kimi özünü göstərir və təcili müalicə tələb edir. Mədəaltı vəzi toxumasının çapıqlanması və funksiyasını itirirməsi həzm problemləri, vitamin və yağların malabsorbsiyası, diabet və mədəaltı vəzi xərçəngi təhlükəsinin artması ilə nəticələnir.

Tədqiqatçılar bildirirlər ki, spirtli içki mədəaltı vəzinin özündə həzm fermentlərinin erkən aktivləşməsinə səbəb olur, mədəaltı vəzi mayelərini qalınlaşdırır, kanalları bağlayan kiçik daşlar yaradır. Nikotin və tüstünün digər komponentləri mədəaltı vəzi hüceyrələrində kalsium səviyyələrində dəyişikliklərə səbəb olur, DNT-ni zədələyir və xüsusən də mədəaltı vəzi xərçəngi hallarının təxminən 90 faizində anormal olan KRAS genində mutasiya təhlükəsini artırır.

Doymuş yağlar, ət və karbohidratlarla zəngin qidalar da mədəaltı vəzi zəiflədir. Yüksək şəkər qəbulu zamanla insulin müqaviməti yaradır və mədəaltı vəzi xərçəngi törədə bilir.

Piylənmə zamanı yağ mədəaltı vəzin özündə toplana bilər. Bundan əlavə, piylənmə bədəndə xroniki iltihabı artırır və öd kisəsində daşlaşma yaradır.

Fiziki fəaliyyət immuniteti gücləndirir piylənməni azaldır və bununla da pankreas təhlükəsini azaldır.



Pankreas xəstəlikləri həyat üçün təhlükə yarada bilər. Əgər davamlı qarın ağrısı, süni arıqlama, iştahsızlıq, ürəkbulanma, qusma, sarılıq və xroniki yorğunluq kimi əlamətlərdən hər hansı biri baş verərsə, mütləq həkimə müraciət etmək və tibbi müayinədən keçmək lazımdır.

***Vüsalə BAYRAMOVA***
***XQ***

## HAVA

# Bakıda yağmursuz, dağlıq ərazilərdə qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin dekabrın 16-dan 17-nə keçən gecə bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi axşam cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 3-6, gündüz 7-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 771 millimetr civə sütunundan 775 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Bəzi şərq rayonlarında leysan xarakterli olacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Mülayim şərq küləyi əsəcək.



Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 7-10 dərəcə isti, dağlarda gecə 3-8, yüksək dağlıq ərazilərdə 10-14, gündüz 0-5 dərəcə şaxta olacaq.

Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlamaq ehtimalı var.

***Q.ƏLİYEV***
***XQ***

*✓ 2021-ci ildə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Cəfərova Ülviyyə Azər qızının adına verilmiş şəhid ailəsi üzvünün 005730 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ 2024-cü ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən Rəhimov Ülvi Elşən oğlunun adına verilmiş Sq seriyalı, 0030857 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi

**ELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2331
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00